*Valdemar Zorn*

# Nur övladlarının qəbiləsi



Valdemar
ZORN

# NUR ÖVLADLARININ QƏBİLƏSİ

Valdemar Zorn
*Nur övladlarının qəbiləsi*
ISBN 978-966-2089-43-1

©2010 "Şərqdə nur"

©2010 Waldemar Zorn
for the Azeri edition

Bu kitab sərbəst surətdə çıxarıla
və ya elektron şəkildə paylana bilər.

# Ön söz

*Bu kitabın məzmunu ilk insanların cənnətdən qovulduqdan sonra onların necə həyat sürmələri haqqındadır. Bu barədə nə öyrənə bilərik? O dünya kiçik tayfalar üçün çox böyük idi. Kəşf edilməli və aşkar olunmalı çox şey var idi. Müasir arxeoloqlar qədim şəhərlərin qalıqlarını, onları tikənlərin izlərini aşkar edirlər. Bəzən ibtidai olmayan incəsənət insanı heyran edir. O vaxtlar yeni tikililər ucaldılmış, qədim insanların istifadə etdiyi əşyalar yaradılmışdı. Paleontoloqlar o dövrdə yaşamış mamont və dinozavrların skelet qalıqlarını, daşlaşmış ağac gövdələrini, insan və heyvanların sümüklərini aşkar edirlər. Bəşər övladının qısa tarixi isə köhnə, solğun bir filmin parçaları kimi fikrimizdə canlanır. Sadəcə, bu səssiz sübutları qərəzsiz, düzgün şərh etmək lazımdır. Bu kitabdakı hadisələr keçmiş zamanlarda vəhşi təbiətlə mübarizə aparmayan, lakin onunla harmoniyada, sanki Yaradanının orada yerləşdirdiyi nəyisə qoruyub saxlamağa çalışan insanların həyəcanlı macəralarını canlandırır. Bu hekayə bir-birinə zidd görünən bir çox şeylərin izahını açıqlayır. Məsələn, arxeoloqlar "Dəmir dövrü"nə xas müasir baltalar və digər əşyalarla yanaşı tamamilə fərqli, daha inkişaf etmiş bir dövr, "Daş dövrü"nə aid olan çaxmaq daşından düzəldilmiş bıçaqlar və ox ucluqarı tapırlar.*

*O vaxtlar dünya bizim müasir dünyamızdan tamamilə fərqli idi. O dövrdə yer kosmosdan gələn zərərli və bəzən öldürücü təsir edən şüadan qorunaraq qalın bir su təbəqəsi ilə örtülmüşdü (unutmayın ki, hər şey bu yaxınlarda yaradıldı*

*və Rəbb yer kürəsinin qayğısına qaldı, onu qalın bir su təbəqəsi ilə qorudu). Müqəddəs Kitabda deyilir: "Sonra Allah dedi: 'Qoy suların arasında bir qübbə olsun və suları bir-birindən ayırsın'. Allah qübbəni düzəltdi və qübbənin altındakı suları onun üstündəki sulardan ayırdı. Belə də oldu. Allah qübbəni 'göy' adlandırdı. Axşam oldu, səhər açıldı; bu, ikinci gün idi" (Yaradılış 1:6-8). Yer kürəsində yalnız bir mülayim iqlim var idi. Şiddətli soyuq və ya qızmar isti yox idi. Hələ yağış yağmamışdı və ona ehtiyac yox idi.*

*"Yer üzündə heç bir bitki, çöl otu bitmirdi, çünki Allah yer üzünə hələ yağış göndərməmişdi və torpağı becərən insan da hələ yaranmamışdı. Amma yerdən su çıxırdı və bütün torpağı sulayırdı" (Yaradılış 2:5-6). Bu, heç nəyə bənzəməyən heyrətamiz bir dünya idi. Yer üzündə nəhəng ağaclar, mamırlar və başqa bitkilər böyüdü. Ağaclarda yuva quran iri quşlar insanlara gecələmək üçün təhlükəsiz yerə işarə edirdilər. Nəhəng iynəcələr bir metr uzunluğunda şəffaf qanadlarını çırparaq uçurdular. Dinozavrlar yemək axtarmaq üçün dayaz sularda gəzirdilər. Evimiz olan yer kürəsi tamamilə yeni idi, orada ləzzətli meyvələr və şirəli otlar bitirdi. Su təmiz və şəffaf idi. Heç bir zərəri olmadan hər yerdə su içə bilərdiniz. Demək olar ki, ora cənnət idi, amma tamlıq yox idi.*

*Müqəddəs Kitabda bu barədə çox az qeyd olunub. Lakin arxeoloqların topladığı məlumatlara əsasən neçə min il əvvəl yeni yaranmış yer kürəsində insanların həyatını təsəvvür edə bilərik. İlk şəhərlərin bir çox qalıqları arxeoloqlar tərəfindən artıq tapılıb. Şübhəsiz ki, onlardan biri yer üzündə ilk qardaş qatili olan Qabilin qurduğu şəhər idi. Kəlamda təsvir olunan o şəhər qoxulu idi. Oranın bütün sakinləri dəhşətli günah etdiklərini göstərmək üçün alınlarında bir damğa gəzdirirdilər.*

*O dövrdə müxtəlif insanlar yaşayırdı. Bəziləri Allahın yaradılışından həzz alır, gördüklərini mağaraların və sərdabələ-*

*rin divarlarında həkk edir, digərləri insan öldürmək üçün silahları təkmilləşdirir və qardaşlarını qula çevirmək məqsədi ilə ova çıxırdılar. Əlinizdə tutduğunuz kitabda üzlərini qara boya ilə boyamış Qabil nəslinin, eləcə də diri və sevən Allaha ibadət edən Şetin (Nur övladları) nəslinin həyatlarından danışılır. Bəziləri meşələri qırıb şəhərlər saldılar, metalları əritdilər — bir sözlə, yer kürəsinə sivilizasiya gətirdilər.*

*Meşələrdə və mağaralarda yaşayan digər tayfalar Qabil nəslindən heç də zəif deyildi, əksinə, onlar daha güclü idilər. Lakin onlar nur yolunu və hər şeyi yaradan Allaha ibadəti seçdilər. Ağsaqqalları onlara hər şeyin fərqli olduğu bir dövrdən danışır və yüzilliyin əhdlərinə sadiq olmağa çalışırdılar. Onlar özlərini "mədəni" qardaşlarından qoruyaraq bu Nuru ehtiyatla özlərində saxlayırdılar. Onlar Səmavi Atalarını xatırlayıb Ona səcdə edirdilər və dualarında Ona minnətdarlıqlarını bildirirdilər. Lakin şər artıq yer kürəsinə yayılmağa başlamışdı. Üzü qara rəngli insanlar isə şəri həvəslə yer üzündə yayırdılar, sanki Yaradanın mükəmməl, gözəl və bənzərsiz yaratdığı dünyada gələcəkdə nə olacağı vaxta əvvəlcədən hazırlaşırdılar. "Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir. O, yer üzündə insanları yaratdığına peşman oldu və ürəyində kədərləndi. Rəbb dedi: 'Yaratdığım insanları yer üzündən siləcəyəm, bunu insanlarla birgə heyvanların, sürünənlərin və quşların da başına gətirəcəyəm, çünki onları yaratmağıma peşman olmuşam'" (Yaradılış 6:5-7).*

*Nur övladları hər zaman keşikdə durmalı idilər, lakin digər tərəfdən heç kimi öldürmək istəmirdilər. Şəhər sakininin dəmir qılıncı bu kitabın qəhrəmanlarından birinin əlinə keçəndə o, qorxusundan onu yerə atır. Bu, qətl silahıdır və o silahla heç bir iş görmək istəmir. Allahdan qaçıb üzünü qara boyayan və*

*Ondan gizlənənlərlə Rəbbin adını çağıranlar arasında ortaq heç nə ola bilməz. Bu iki qrup insan hələ o zamanlar, başlanğıcdan bu günə qədər görünən iki ifrat mövqeyi göstərdi. Birinci qrup ətrafdakı hər şeyin Rəbb tərəfindən yaradıldığına inananlar, digər qrup isə təkamülə inanan və yalnız öz güclərinə güvənənlərdir. "Sivil" insanlar öz əcdadları Qabilin yolu ilə gedir, Yaradanı unudub Onun möcüzələrini təhrif etməyə çalışırlar.*

*Bu kitab yer kürəsinin uzaq keçmişindən bəhs edir. Bu, tezliklə baş verəcək möhtəşəm və faciəli hadisələrin müqəddiməsidir.*

*Yerin uzun tarixindən üç-dörd min il keçdi. Bu əsrlər ərzində çoxlu hadisələr baş verib, lakin bu hekayənin bəhs etdiyi iman qığılcımları iz buraxdı. Yer kürəmizə o möhtəşəm an gəldi. "Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı" (Yəhya 1:9). İki min il əvvəl peyğəmbərin sözləri yerinə yetdi: "Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə nur doğdu" (Yeşaya 9:2). Zamanın dolğunluğu gələndə, Yaradan böyük mərhəməti ilə yeganə Oğlunu, yer üzünə həyat verən Nurunu göndərdi. İsa Məsih Özü haqqında insanlara belə dedi: "Dünyanın nuru Mənəm. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq" (Yəhya 8:12).*

*Bu hekayə bizim uzaq əcdadlarımızdan, onların necə yaşadıqlarından, nə hiss etdiklərindən, nəyə inandıqlarından, nəyə ümid etdiklərindən bəhs edir. Onlar bizə bənzəyirdilər, amma təəccüblü deyil ki, biz hamımız bir Səmavi Atanın övladlarıyıq.*

Biologiya elmləri doktoru
*İqor Saviç, Sankt-Peterburq*
*10 mart 2010-cu il*

## 1-ci fəsil

# *Vacib qərar*

Günəşin ilk şüaları çaydan əks tərəfindəki meşənin üstündə ətrafı işıqlandırarkən gənc oğlan Va mağaradan çıxdı. O dartındı, əvvəl bir ayağı, sonra o biri ayağı üstündə tullandı, sanki artıq yuxunu özündən kənara atdı. Sönmüş tonqalın yanında oturan gecə gözətçisi qoca Hel məzəmmətlə başını tərpətdi və bir az inildəyib ayağa qalxdı və mağaraya doğru getdi. Onun növbə vaxtı bitmişdi.

Va yamacdan tullandı və dik təpədən aşağı, səhər şehi ilə örtülmüş otların arası ilə qaçdı. O, sahildəki iri qaya daşının üstündən çaya tullandı. Çay onların mağarasından bir qədər aralıda iri hamar daşlarla əhatə olunmuşdu və bu bir hovuz yaranmışdı.

— Ah! — buruq saçlı Va başını sudan çıxararaq tərpətdi.

Soyuq su həmişəki kimi Vanı canlandırdı və bir neçə dəqiqədən sonra onun əzələli bədənini yeni güclə, ürəyini isə həyat sevincilə doldu. Quşların ciggiltisi, çayın şırıltısı, ağacların xışıltısı və çayın aşağısındakı evlərdən gələn səs-küy insanda yaradılış barədə sevinc hissi oyadırdı. Va qollarını bir neçə dəfə

tərpətdi və bu an dostları suya atılaraq onun yanında sudan başlarını çıxardılar.

— Bizdən gizlicə uzaqlaşmaq istəyirdin? Yoxsa dünənki tətildən sonra bütün günü yatacağımızı düşünürdün? — deyə qırmızı saçlı El soruşdu.

— Onun sadəcə bizə yazığı gəldi və ona görə də bizi şirin yuxudan oyatmaq istəmədi — deyə Arun həmişə olduğu kimi dostunu müdafiə etməyə çalışdı.

O, arxası üstə çevrilərək güclü qollarının köməyi ilə Elin yanına üzdü. El isə onlardan uzaqlaşmağa çalışdı və Arun Eli təəccübləndirərək onun başını suya saldı.

Dostlar soyuq suda bir az üzdükdən sonra qayaların üstünə çıxıb günəşin şüaları altında uzanaraq qızındılar. Günəş daşların hamar səthini isitmişdi.

— Sonuncu ov çox uğurlu oldu. Bir ovda üç maral ovlamaq həmişə mümkün olmur — deyə El qalın, qırmızı saçlarını hörmək üçün oturdu.

Va dedi:

— Bəli, bu doğrudur. Elə bayram da böyük uğurla keçdi. Danın ananızın necə qayğısına qaldığını gördünüzmü? Atanızın yas günləri çoxdan geridə qalıb. Çox təəssüf ki, o, indi aramızda deyil. O, çox mehriban və təmkinli bir insan idi.

— Artıq bir ay üçün ərzaq tədarükümüz var, amma böyük balıq ovuna hazırlaşmağa başlaya bilərik. Balıqlar tezliklə kürü tökməyə başlayacaqlar — deyə Arun bacısının gözlərinin yaşla dolduğunu görüb söhbəti başqa səmtə çevirdi.

El dedi:

— Gəlin gedək!

O asanlıqla yerindən sıçrayaraq yamaca dırmaşmağa başladı. Onların mağarası yamacın zirvəsində, qayalı bir yerdə yerləşirdi.

Vanın şən, hazırcavab, gözəl qamətli Eldən xoşu gəlirdi. Qızın gözəl mavi gözlərinə baxanda Vanın nədənsə ürəyi döyünürdü.

El oğlanlar kimi yaxşı ox atmağı, ağaclara dırmaşmağı və balıq kimi cəld üzməyi bacarırdı. Qız eşitdiyi nağılları saatlarla danışa bilərdi, onun anası qəbilənin ilk gözəli sayılırdı. Qız bu nağılları anasından və heç kimin neçə yaşı olduğunu bilməyən qoca Heldən eşitmişdi. Va Elin danışdıqlarına qulaq asmağı çox sevirdi. Onun səsi Vanın ürəyində ata-anası, bacı-qardaşı hələ sağ ikən mağarada deyil, dəridən tikilmiş böyük çadırda yaşadıqları uşaqlıq xatirələrini canlandırırdı. Onların qəbiləsi Elin ailəsi kimi yüngül daxmalarda və ya çadırlarda yaşayırdı. Onlar əsasən dovşan, cüyür və quşları ovladıqları üçün özlərini "Qurd" qəbiləsi adlandırırdılar. Onlar həmişə canavar dərisi geyinir və canavar dərisindən hazırlanmış çarpayılarda yatırdılar. Qəbilənin adı da buradan yaranmışdı.

El "Maral ovçuları" qəbiləsinə aid idi. On il əvvəl onlar yeni ov yeri axtararkən xaraba qalmış kəndə rast gəlmişdilər. Belə görünürdü ki, kəndlilər gecə yatarkən onlara hücum edib öldürmüşdülər. Va isə sağ qalmışdı. Həmin gün o özündən dörd yaş böyük qardaşına heç nədən qorxmadığını sübut etmək üçün bütün gecəni meşədə keçirmişdi. O vaxt Vanın cəmi səkkiz yaşı var idi, lakin ata-anası bu fikrə etiraz etməmişdi. Onun yaşı az olsa da cəsur və müstəqil idi.

Həmin gün o, kəndlərindən xeyli uzaqda olan meşəyə getdi və orada söyüd budaqlarından özünə yuva düzəldib içinə girdi. Artıq hava qaralmışdı. Gecə vaxtı qaranlıq meşə müxtəlif səslərlə dolu idi və səma parlaq ulduzlarla örtülmüşdü.

Va gec yuxuya getdi və düşmənlərin kəndlərinə hücum etdiyini görmədi. Səhər evə qayıdanda, orada dağıdılmış daxmaların böyük bir dairəsində bütün ölənləri meydana yığan "Maral ovçuları" qəbiləsinin kəşfiyyatçılarını gördü.

Artıq bir neçə nəfər ölmüş sakinləri basdırmaq üçün meşənin kənarında böyük bir xəndək qazımışdı.

Va ata-anasını üzüstə uzanmış, hərəkətsiz vəziyyətdə ölülərin arasında tapdı. O, valideynlərini belə yaddaşında saxladı. Ölən-

lər arasında bacı-qardaşı yox idi. "Maral ovçuları" qəbiləsinin adamları Vanı görəndə çox təəccübləndilər, çünki təcavüzkarlar bütün uşaqları və gənc qadınları əsir götürmüşdülər. "Maral ovçuları" qəbiləsinin adamları onların arxasınca getməyə cəsarət etmirdilər və onların qatil olduğuna əmin idilər. "Maral ovçuları" qəbiləsinin adamlarının sayı az idi və qaniçən, pis insanlardan əsirləri geri qaytarmağa cəhd edə bilməzdilər.

Üzləri qara rəngə boyandığından bütün qəbilələr onları "qarərənglilər" adlandırırdı. Onlar Qatran dağlarının yaxınlığında yaşayırdılar, hamı meşənin arxasındakı o yeri "kiçik dağlar bölgəsi" adlandırırdı və şərqə bir neçə günə ora gedib çıxmaq olardı. Onların öz uşaqları az idi, ona görə də qonşu qəbilələrə hücum edəndə uşaqları özləri ilə aparırdılar. Belə söz gəzirdi ki, onların arasında uzunömürlülər azdır və çox qəddardırlar. Onlar özlərini "Əlamət" qəbiləsi adlandırırdı.

Va, El və Arun çaydan qayıdanda uzun boylu, qırmızı saçlı qadın onlardan soruşdu:

— Siz harada idiniz? Yenə də çaya qaçmışdınız?

— Bəli, ana! Bu gün çox gözəl bir gündür! — deyə gözəl El hamının yerinə cavab verdi və gəlib anasının üzündən öpdü. Bu dərhal anasının üzündə təbəssüm yaratdı və onun qar kimi ağ dişləri göründü.

Mağaradan çıxan Dan gənclərin fikri ilə razılaşaraq dedi:

— Yaxşı! Li, axı sən bilirsən ki, hər səhər çayda üzən heç vaxt xəstələnmir.

Mağaranın qarşısındakı geniş daş terrasda bir neçə tonqal yanırdı və təzə qızardılmış ətin ətri ətrafa yayılırdı. Böyüklər arasında səs-küy salan uşaqların, öz aralarında pıçıldayan qızların, yuxularını bir-biriləri ilə bölüşən qocaların səsi gəlirdi. Bütün kişilər və yeniyetmələr vaşaq, canavar və ya tülkü dərilərindən hazırlanmış geyimlər geyinmişdilər. Qadınlar qısa, qolsuz, dizdən yuxarı, xam dəridən tikilmiş paltarlar geyinmişdilər.

Bəzilərinin boynunda balıqqulağından düzəldilmiş boyunbağı asılmışdı. Canavara bənzəyən itlər mağaranın girişində uzanıb quyruqlarını bulayaraq mürgüləyirdilər.

Bir neçə qadın un hazırlamaqla məşğul idi. Onlardan bəziləri daş lövhələr arasında taxıl üyüdür, digərləri alovdan çıxarılmış daşların üzərində kökələr bişirirdi və təzə çörəyin xoş ətri insanı bihuş edərək ətrafa yayılırdı.

"Maral ovçuları"nın qəbiləsi kiçik idi. Orada uşaqlarla birlikdə yüzdən çox adam olardı. Digərlərindən seçilən bir neçə qara saçlı qadın istisna olmaqla, əksəriyyəti sarışın və hündürboy idi. Onların "Qor" qəbiləsindən olduqları və evləndikdən sonra bura gəlmələri aydın idi. Uzunömürlülər deyirdilər ki, qonşu qəbilədən qız almaq daha yaxşıdır. Uzunömürlülər hündürboylu, gümüşü saçlı idilər. Qəbilədə onların sayı çox idi. Uzunömürlü qadınlar uzun hörüklərini başlarına dolamışdılar və buradakı yaşlı insanlar onlara göstərilən hörmətdən xoşhallanırdılar. Hamıya elə gəlirdi ki, onlar həyatın və ölümün sirlərini bilirlər, yaradılışdan başlayaraq öz qəbilələrinin, bütün bəşər övladının həyatını xatırlayırlar. Heç kim, hətta Or belə nəhəng tüklü mamontların şimaldan cənuba neçə dəfə köçdüyünü deyə bilməzdi.

Üzərində iri ət parçaları qızardılmış, qalın söyüd budaqlarına asılmış ocaqlardan birinin yanında üç uzunömürlü — bir qadın və iki kişi oturub öz aralarında sakitcə söhbət edirdilər.

Ən hörmətli uzunömürlü Or dedi:

— Bizim qəbiləmiz çox böyükdür, beş-altı ailəni ayırmaq üçün başqa mağara axtarmaq lazımdır.

— İndi qəbiləni parçalamaq üçün təhlükəli vaxtdır, kəşfiyyatçılarımız çayın o tayındakı meşədə qararənglilərin izlərini görüblər. Onlar hər an bizim qəbilyə hücum edə bilərlər — deyə arvadı Nua etiraz etdi.

Hel dedi:

— Onların qəbiləsindən heç kim üzə bilmir və çay da genişdir. Əgər onlar çayın ətəyindən keçsələr, çayın sahili ilə yuxarı qalxmalı olacaqlar və orada, bu dağların arxasında onlara hücum edən uzun dişlilərin* yanından keçməli olacaqlar.

Or əminsiz halda dedi:

— Bilmirəm... Mağaramız qəbiləmiz üçün çox balacadır. Onsuz da başqa birini axtarmalı olacaqsınız. Mən həyatımda bundan böyük mağara görməmişəm. Təxminən on il əvvəl ulu Tanrının bu mağaranı bizə necə göstərdiyini xatırlayırsınızmı? Axtarışa bir neçə gənc döyüşçü göndərməliyik ki, onlar yeni bir qəbilə yarada bilsinlər.

— Sən çoxdandır ki, Va və Arun haqqında düşünürsən? — Nua dedi və daş bıçaqla bir tikə ət kəsib ərinə verdi.

— Bəli, bu iki gənci və Danı düşünürəm. Onların hələ həyat yoldaşları yoxdur, onlar cəsur, güclü və ovda təcrübəlidirlər. Onlar bütün izləri və meşədəki bütün səsləri ayırd edə bilirlər — deyə o, barmaqlarını bir-birinə keçirərək cavab verdi.

— Kənara çəkil! — uzaqda dayanıb yaşlıların söhbətinə diqqətlə qulaq asan El itin üstünə qışqıraraq dedi.

Köpək yenidən Elin üzünü yaladı və quyruğunu bulayaraq yaxınlıqdakı tonqalın yanında dayanan Dan və Linin yanına qaçdı.

---

**Uzun dişlilər pələnglərə aiddir.*

2-ci fəsil

# Vanın həyat tarixçəsi

Həmin gün axşam geniş mağaranın ortasında həmişə olduğu kimi, ətrafında bir neçə uzunömürlü və qoca ovçu oturmuş böyük bir tonqal yanırdı. Ovçuları duruşlarına və saçlarına toxunmuş uzun lələklərə görə fərqləndirmək olardı. Onların belində dəri ciblərdə çaxmaq daşından bıçaqlar asılmışdı, bəzilərinin isə sapandları və daşla dolu kiçik çantaları var idi.

Hamı fikrini bildirdikdən sonra Or dedi: “Yaxşı, biz razılaşdıq. Onda belə də edərik. Dan, Va və Arun çay boyunca aşağı enəcəklər, amma onlar beş gündən artıq yol getməməlidirlər. Əgər yaxşı bir mağara tapsalar və orada bir neçə gün yaşayacaqlar ki, oranı heç bir heyvan tutmasın. Əgər aslan və ya ayının yaşadığı bir mağara tapsalar, onda onlar geri qayıdacaqlar və biz mağaranı azad etmək üçün onların köməyinə on döyüşçü göndərəcəyik.”

Hamı bir-birindən maral dərisindən olan pərdələrlə ayrılmış mağarada ailələlərinin yanına gedəndə, artıq qadınlar və uşaqlar dərilərin üzərində rahat uzanmışdılar.

Böyük tonqalın yanında yalnız Or, arvadı Nua, Dan və Li qaldı. Va yaxınlıqda uzandı. Onun ailəsi yox idi və həmişə əsas tonqalın yanında yatırdı.

Va başqalarını narahat etməmək üçün sakitcə soruşdu:

— Or, sizə bir sual verə bilərəm?

— Əlbəttə. Gənclər nəyisə öyrənmək istəyəndə həmişə sevinirəm.

— Bir dəfə bizə demişdin ki, insanların çoxu şəhərlərdə və ya qəsəbələrdə yaşayır. Atamın qəbiləsi də qəsəbədə yaşayırdı. Niyə siz və bir çox başqa qəbilələr şəhərlərdə deyil, mağaralarda yaşayırsınız?

— Va, sən çox vacib bir məqama toxundun. Buna qısaca cavab verək çətindir, amma çalışacağam. Çox əvvəllər ilk insanları tanıyanlar hələ sağ olanda adamlar şəhərlər salmağa, əkin sahələrini şumlamağa, mal-qara saxlamağa başladılar. Lakin insanlar zəngin yaşayıb doyunca yemək yeyəndə onlar pis əməllərə əl atdılar. Öz əlləri ilə işləyib ailəsini dolandırmaq əvəzinə quldurluq etməyə başladılar. Bir şəhərdə yaşayanlar digərinə, bir qəbilə o birinə hücum etdi. Özlərini quldurlardan qorumaq üçün insanlar silahlar hazırladılar. Şəhərlərdə zorakılıq və pozğunluq hökm sürməyə başladı. İnsanlar Tanrını unudub öz əlləri ilə düzəltdiklərinə dua etməyə başladılar.

— Or, bağışlayın ki, sözünüzü kəsirəm. Amma bizim qəbiləmizdə belə insanlar var ki, sizin öyrətdiyiniz kimi ulu Tanrıya deyil, ovladığımız heyvanların ruhlarına sitayiş edirlər. Mən bu yaxınlarda gördüm ki, bir neçə döyüşçü maral və bizonların ruhlarına qurban gətirdilər.

Va bu sözləri deyərək divarda heyvanların və nizələrlə silahlanmış ovçuların təsvirlərinə işarə etdi.

— Bu, kifayət qədər biliyin olmamasından irəli gəlir. Ulu Tanrı böyükdür, əlçatmazdır, görünməzdir. Şəkillər isə insanlar üçün daha əlçatan görünür. Dəfələrlə demişəm ki, bunu etmə-

sinlər, amma qurbanlarının kömək etdiyini söyləyərək etiraz ediblər. Məsələn, son günlər çox uğurlu ov olub. Beləliklə, bəzi insanlar qurbanlarının onlara kömək etdiyini düşünürlər. Amma gəl sənin sualına qayıdaq.

— Bağışlayın Or, sözünüzü kəsdim.

Or Vaya tərəf əyilib dedi:

— Narahat olma. Belə ki, şəhərlərdə Tarıdan qorxan heç kim qalmayanda uzunömürlülər ailələri ilə meşədə yaşamaq üçün ora köçdülər. Onlar insanların vəhşiliklərini görüb hər şeyi tərk etdilər və əcdadlarımızın Cənnətdən* qovulmazdan əvvəl yaşadığı kimi həyat sürməyə başladılar.

— Buna görə dəridən paltar geyinirik? — Dan söhbətə qoşuldu.

— Bəli. Ulu Tanrı ilk insanlar üçün heyvan dərisindən paltar tikdiyi üçün bizim əcdadlarımız da belə paltar geyinməyə qərar verdi. Onlar şəhər salmaq deyil, ilk insanların yaşadığı kimi təbiətlə harmoniyada yaşamaq qərarına gəldilər.

Va Ora baxıb dedi:

— Ata bizə deyib ki, ilk insanlar heyvanlarla danışa bilirdi, heyvanlar da onlara tabe olurdu.

— Bəli, bir çox heyvanlar insanları, insanlar da onları başa düşürdü. Amma indi biz təbiətlə bu harmoniyanı itirmişik. İndi biz sadəcə olaraq heyvanların, quşların, balıqların vərdişlərini anlamağa çalışırıq — deyə Orun səsi kədərlə doldu.

Or tonqalın içinə bir neçə qalın budaq qoydu, qığılcımlar ətrafa yayılmağa başladı və tüstü mağaradakı yarıqlara doldu.

Va qəbiləyə yenicə gələndə, həqiqətən, tüstünün hara getdiyini və bir qədər kiçik mağaranın sonunda, qayaların arxasında nə gizləndiyini bilmək istəyirdi. O mağaraya dar bir dəlikdən girmək olardı. Amma oraya girməyin qadağan oldu-

---

**Bu, cənnət Eden bağına aiddir.*

ğunu Va hələ bilmirdi. Hamı hər şeyi uzunömürlülərin həll etdiyini bilsə də, o vaxt sağ olan qəbilə başçısı Elin atası onu yaxşıca danlanmışdı.

Onda qəbilə rəhbərinin oğlu Arun ilk dəfə Vanın tərəfini tutmuşdu. O vaxtdan bəri onlar dost oldular. Qəbilə ikinci, kiçik mağaradan lazımi əşyaların saxlanması üçün anbar kimi istifadə etmək qərarına gəldi və uşaqların oraya girməsi qadağan edildi.

Bir gecə Vanın yuxusu qaçmışdı. Dan öz otağına, Li uzaq bir küncdə yatmış qızının yanına getdi. Həmişə olduğu kimi böyük bir ovdan və ya vacib hadisədən əvvəl Va canavar dərisindən olan yatağında o tərəf bu tərəfə çevrildi və yata bilmədi. O, gözünün qarşısında peyda olan görüntülərdən yaxa qurtara bilmirdi. Gah o, ata-anasının və böyük qardaşının onu çağırdığını görürdü, gah da səhər şehindən islanmış otların arasında qaçaraq kürən saçlı, mavi gözlü at sahibini tutmağa çalışırdı. Bu görüntünü görəndə onun ürəyi döyünürdü və eyni zamanda bu, bütün qəlbinə bir sakitlik gətirirdi. O, qeyri-ixtiyari olaraq El və Linin yatdıqları mağaranın küncünə nəzər saldı. Amma ora qaranlıq və sakit idi. Yalnız qəbilənin kişi, qadın və uşaqlarının nəfəsləri eşidilirdi. Yanında uzanan it başını qaldırıb ona baxdı və yerindən qalxaraq mağaranın çıxışına tərəf getdi.

— Yəqin ki, qoca Hel ilə dostluq etmək qərarına gəlib — deyə Va düşündü.

O, adətən mağaranın qarşısındakı yamacda uzanırdı. Helin də Va kimi ailəsi yox idi. Uzun illər əvvəl o, hər gecə qəbilənin keçiyini çəkəcəyinə qərar verdi. Hər kəs günəşin çıxmasına və batmasına öyrəşdiyi kimi o da bu işə öyrəşmişdi.

“Sabah biz Heldən səyahət üçün yeni yay və oxlar istəməliyik” — deyə Va düşündü. Hel daşdan iti ox ucları düzəldə bilirdi və onun hazırladığı yay və oxlar yüngülliyi və möhkəmliyi ilə seçilirdi.

Bu fikirlərlə Va yuxuya getdi. Yuxusunda meşəni gördü. O, qədim palıd və şam ağacları ilə əhatə olunmuş böyük bir vadidə daxmalar və çadırlar gördü. Bir qrup adam kəndin ortasında dayanıb nəyisə müzakirə edirdi. Va onların dediklərini eşitməsə də, bilirdi ki, bu atasının qəbiləsidir. "Görəsən, ata-anam haradadır?" — deyə o, izdihamda valideynlərini görmək ümidilə düşündü.

Birdən qardaşı Anı gördü. O, sevincindən nə deyəcəyini bilmirdi. An dedi:

— Valideynlərimizi axtarırsan? Onlar burada yoxdur. Onlar səni Cənnətdə gözləyirlər.

— Ora necə getmək olar? — deyə Va qardaşından soruşdu.

Amma An uşaqlıqda olduğu kimi sadəcə güldü, yumruğu ilə onun böyrünə vuraraq qaçıb getdi. Va onun arxasınca qaçıb çiynindən tutdu, lakin ona tərəf çevrilən adam An deyildi. Qarərəngli bir insan Vaya baxırdı. Onun alnında dəyirmi ağ ləkə vardı. Va qışqırıb oyandı, iti onun üzünü yalayırdı. O, sadiq dostunu qucaqladı və bundan sonra möhkəm yuxuya getdi və mağaraya qayıdan Helin Ora dediklərini eşitmədi. Hel dedi:

— Deyəsən, yenə də Va yuxuda öz qəbiləsini gördü. Görən bu arzular onu nə vaxt tərk edəcək?

Or dedi:

— Bilmirəm. Bəs sən xəyallarında hara gedirsən? Niyə yatmırsan?

Hel ona mehribancasına dedi:

— Get yat, Or.

Qoca Hel yenidən eşiyə çıxdı.

O, Orun sualının mənasını bilirdi. Hel ova çıxarkən arvadını və uşaqlarını meşədə tək qoyaraq ailəsini itirmişdi. Onlar o zaman Tanrı və təbiətlə sülhdə yaşayan bir qəbilə axtarırdılar ki, ona qoşulsunlar. O, geri qayıdanda ailəsinin öldürüldüyünü gördü. İzlərdən görünürdü ki, onlar müqavimət göstərmişdilər,

amma qararənglilər sayca daha çox idi və daha yaxşı silahlanmışdılar.Yuxularında ailəsini qorumaq üçün o, ovdan tez qayıtmağa çalışırdı. Bu yuxu uzun illərdir ki, təkrarlanırdı və Or bunu bilirdi. Düzdür, son vaxtlar Hel bu yuxunu getdikcə daha az görürdü. Həmin hadisələrdən bir gün sonra Hel "Maral ovçuları" qəbiləsinin döyüşçülərinə rast gəlmişdi və onlara qoşulmuşdu. O, yenidən ailə həyatı qurmamışdı. Bu itkinin acısını bir daha yaşamaq istəmirdi.

# Yolda

— Heç nə unutmamısınız? — deyə Orun səsi onun həyəcanını göstərdi.

— Xeyr, biz dəfələrlə hər şeyi yoxlamışıq. Bizə xeyir-dua ver, ata — deyə Dan uzunömürlü kişini qucaqladı.

— Qoy Tanrı bu yolda sizinlə olsun, qarşınızda duran bu səfərdə sizə uğur versin. Sizi düşmənlərdən və vəhşi heyvanlardan, xarici və daxili şərdən qorusun və sağ-salamat geri qayıdasınız — deyə Or xeyir-dua verdi.

O, Danın çiyninə qoyduğu əlini aşağı saldı və gənclərə tərəf dönüb əlavə etdi:

— Va, ulu Tanrı sənin ürəyini görür. Sən Ona güvən. Arun, qoy siniz gücünüz və sədaqətiniz dostlarınıza sevinc bəxş etsin. Heç nədən və heç kimdən qorxmayın, çünki Tanrı sizinlədir.

Sonra Or mağaranın qarşısında toplaşan qəbiləyə üz tutub dedi:

“Biz bu ürəkli gənc ovçuları yola salırıq, çünki onlar çətin bir iş dalınca gedirlər. Amma biz onu da bilirik ki, bu vaxt

lazım olanları etməsək, dözülməz vaxtlar gələcək. Biz onları ulu Tanrının iradəsinə etibar edirik, qoy O, gənclərə yar olsun.

Or nitqini bitirəndə hamı Dan, Va və Arunun ətrafına toplaşaraq əllərini sıxıb onları qucaqlayaraq vidalaşdılar. Li Va, Arun və Danı qucaqlayanda gözləri yaşla doldu.

— Yenə görüşərik, dostlar! — deyə El ağlayaraq mağaraya qaçdı.

Üç dost çaya enməyə başladı. Dan qabaqda, onun ardınca Va, Arun isə ən arxada gedirdi. Hər birinin çiynində bir yay və oxlar asılmışdı, kəmərlərində bıçaq və sapand, əllərində isə maral vətərləri ilə çarpaz bağlanmış iri nizə var idi. Onların geyim tərzindən görünürdü ki, uzun yola hazırlaşıblar. Yumşaq dəridən hazırlanmış bel paltarından əlavə, hər birinin çiynində maral dərisindən bir örtük asılmışdı. Onlarla iki it də yola düşdü, onlardan biri Vanın sevimlisi idi, digəri isə başqa itlər kimi bütün qəbiləyə aid idi. Lakin Dan ova çıxanda həmişə onu özü ilə aparırdı.

— Biz çayı bir az aşağıdan axınla keçəcəyik. Ora bura kimi geniş deyil və axın bizi aparırsa, bu bizim xeyirmizədir — Dan dedi.

Çayı keçmək üçün cavanlar bütün paltarlarını, əşyalarını və silahlarını çıxarıb bizonun mədəsindən hazırlanmış torbalara yığıb bərk bağladılar. Hər biri çantasını belinə bağlayıb suya düşdü. Buradakı axın güclü idi və tez bir zamanda gəncləri öz axarı ilə aparmağa başladı. Lakin onlar mükəmməl üzə bilirdilər və çox vaxt keçmədi ki, əks tərəfə çıxa bildilər. Ətrafdakı səslər daha aydın eşidilməyə başladı. İtlər üçün çayı keçmək çox asan idi.

— Günün sonunda digər tərəfə çatanda gecələmək üçün bir yer axtarmalı olacağıq. O vaxta qədər ehtiyat yeməyimizə toxunmamaq üçün bir şey tapıb yeməliyik — Danın belə mehriban və şən səsi Va və Arun üçün qeyri-adi səsləndi.

Onlar bir-birlərinə baxdılar. Onların yola düşdüyü səyahət təhlükələrlə dolu idi. Səyahətin uğurlu keçməsi və təcrübəsiz dostlarının təhlükəsizliyi üçün Dan məsuliyyət daşıyırdı.

Sonra gənclər geyimlərini geyindilər, silah və əşyalarını götürüb cənuba doğru yola düşdülər. Çayın gur səsi getdikcə daha da güclənirdi və onlar danışmaq üçün səslərini ucaltmalı oldular.

Gənclər daima sürətli çayın sahili boyunca getmədilər. Buradakı sahil çoxdan tədqiq edilmişdi və orada heç bir mağara yox idi. Əgər onlar sahil boyunca getsəydilər, onda bir günlük səyahət üçün bu uzun bir yol olacaqdı. Bu nəhəng yarımadanın dar zolağı ucsuz-bucaqsız düzənlikdən yuxarı qalxırdı. O nəhəng şam və palıd ağacları ilə örtülmüş yüksək təpələrin kiçik bir silsiləsi ilə formalaşmışdı. Onlar daşların arasındakı yarıqlara diqqətlə baxaraq günün sonuna yaxın dar zolağın bir ucundan o biri ucuna kimi yol getdilər. Burada mağaralar ola bilərdi.

Günəş çayın o tayında dağların arxasında itməyə başlayanda gənclər təpələrindən birinin üstünə qalxdılar və burada ilk dayanacaqlarını etmək qərarına gəldilər.

— O böyük ağacın altında ocaq qalayın ki, uzaqdan görünməsin. Va, biz gecə yatmağa hazırlaşarkən itinlə kolluqlara gedərsən. Orada hündür ot və qalın kolların arasında yəqin ki, dovdaqlar və ya qırqovullar var — deyə Dan əmr etdi.

Arun nəhəng bir palıd ağacının budaqlarında gecələmək üçün yer düzəldərkən, Dan tonqal üçün yer hazırlayıb odun doğradı.

Birdən itin hürməsi eşidildi və qırqovullar yüksək səslə kolların arasından uçdu. Tezliklə Va iti ilə birgə ağacın yanında göründü. Onun əlində iki qırqovul var idi.

— Kolların arasında gizlənmək istəyən qırqovulun birini it tutdu, digərini isə sapandla vurdum — Va dedi və gülümsəyərək ovunu yanan alovun yanına qoydu. Köpək onun yanında uzandı.

Arun nəhəng ağacın budağından aşağı tullandı və Dana tərəf dönüb dedi:

— Budaqların dördüncü səviyyəsində iki yer hazırlamışam. Biri sənin üçün, ikincisi Va və mənim üçün. Dan, biz niyə yerdə yatmırıq? Yerdə yatsaydıq çox rahat olardı.

— Bizim qəbilədə qaydamız belədir. Yəqin ki, ilanlara və uzun dişlilərə görədir. Əvvəllər onların sayı indikindən daha çox idi, amma bu adət o vaxtdan qalıb.

Dan məharətlə qırqovulları kəsib təmizlədi və itlər sevincək onun atdığı bağırsağın üstünə tullandılar. Quşların dərisini və lələklərini çıxardıqdan sonra əti bıçaqla kəsdi və yastı bir daşın üstünə qoydu, çantasındakı ədviyyatdan üzərlərinə səpdi. Üzərində ət qalıqları olan sümükləri itlərə atdılar. Onlar da məmnunluqla mırıldanaraq kənarda uzanıb sümükləri gəmirdilər.

Ocaq közərəndə Dan yastı daşı onun üstünə qoydu və üzərinə xırda doğranmış ətləri düzdü. Va çantasından böyük bir kökə çıxarıb üç yerə bölərək daşın yanına qoydu.

— Ulu Ata, bizə qayğı göstərdiyin üçün Sənə təşəkkür edirik. Bütün günü yolda bizi qorudun, yeməyimizi vaxtında verdin. Bu gecə üçün Sənə güvənirik — Danın sözləri təntənəli və çox səmimi səsləndi.

Yemək yeyəndən sonra gənclər məharətlə ağaca dırmaşaraq hazırladıqları rahat yerlərinə girdilər. Paltarlarını budaqların üstünə qoyub gecələmək üçün rahatlandılar. Silah və əşyalarını əllərindəki budaqlardan asdılar. İtlər ağacın altında qaldılar, çünki onların vəzifəsi insanları qorumaq idi.

Günəş artıq qərbdəki uzaq dağların arxasında batdı, gecə yaxınlaşdı. Meşədən sirli səslər, gecə quşlarının və heyvanların səsləri gəlirdi.

Birdən Arun dedi:

— Eşidirsiniz, bu nərildəyən mağara aslanıdır. Onun nəriltisi çox uzaqdan eşidilir. Amma sanki çox yaxındadır.

— Yat, mağara aslanları insanlara hücum etmir. Yalnız insanlar onlara hücum edəndə, özlərini müdafiə edirlər — deyə Dan onun sözünü kəsdi.

Va yuxuya getdi və onun sakitcə xoruldadığını eşitmək olurdu.

4-cü fəsil

# Planların gözlənilməz dəyişməsi

Artıq üçüncü gün idi ki, gənclər yolda idilər və doğma mağaralarından kənarda gecələyirdilər. İndiyədək onların bütün axtarışları nəticəsiz idi. Həmin axşam onlar qayalıq yamacda kiçik bir mağaranın üzərində çadır yaradan böyük qayalı çıxıntının altında gecələməyə qərar verdilər. Əvvəlcə Arun oyandı. Hələ gecə idi.

— Dan, eşidirsən?

— Bəli, uzaqda bir itin hürdüyünü eşidirəm.

Sonra Va itin uzaqdan qəzəbli hürməsini eşitdi. O, daha təcrübəli ovçu olan Dandan soruşdu:

— Bəs bu nədir?

— Düşünürəm ki, bu istiqamətdə kimsə gecəni meşədə gecələyərkən heyvanların və ya daha təhlükəlisi qararənglilərin hücumuna məruz qalıb.

Arun dedi:

— Gəldiyimiz tərəfdən də itin hürməsi eşidildi. Bu kim ola bilər? Yalnız bizim qəbilənin adamları o istiqamətdə ov üçün

gedirlər. Qonşu qəbilənin ov yerlərinə çatmaq üçün hələ iki gün yol getməliyik.

Dan dedi:

— Düşünürəm ki, biz geri dönüb bunun nə olduğunu öyrənməliyik. Gecə getmək faydasızdır, çünki heç bir iz görünməyəcək. Gəlin səhərə yaxın gedək.

Səhərə qədər heç kim gözünü qırpıb yatmadı. İtlər gah sakitcə mırıldayır, gah da yavaşca hürürdülər.

Səhər hələ tam açılmamış və gecə şehinin tam keçmədiyi bir vaxtda gənclər əşyalarını yığıb geri qayıtmaq üçün yola düşdülər. İtlər irəli qaçdılar, lakin Dan sərt qışqıraraq onların uzağa qaçmasına imkan vermədi.

Onlar çox getmədilər. Hava yenicə işıqlanmağa başlamışdı ki, itlər heç kimə qulaq asmadan kolluğa girdilər və birdən ucadan, dəhşətli səslə hürdülər və uladılar. Gənclər onları böyük bir ağacın altında tapdılar. Söndürülmüş tonqalın yanında kəllə sümüyü sınmış böyük bir it uzanmışdı. Dan itin cəsədinə tərəf əyildi, sonra ayağa qalxdı, dərhal üzünün rəngi bozardı.

O, boğulmuş səslə dedi:

— Bu, Elin itidir. Onun pəncələri iti bir şeylə yaralanıb. Bu qararənglilərin işidir.

Bu dəhşətli hadisədən Vanın başı hərləndi və çətinliklə bu sözləri dedi:

— El buna görə bizə “əlvida, dostlar!” dedi. Sən demə bütün bu günlərdə El iti ilə birgə bizi izləyirmiş.

Dan tez ağaca dırmaşdı, orada kimsə gecələmək üçün bir yer düzəltdiyini güman edirdi. Bu, belə idi. Yer boş idi, orada kiminsə gecələdiyini göstərən heç bir əlamət yox idi. Dan aşağı endi, ağacın ətrafını diqqətlə axtarmağa başladı və axtardığını tapdı. Orada Helin düzəltdiyi daş ucluğu olan oxlara bənzər iki ox var idi.

— Bu oxları El üçün mən düzəltmişəm — o dedi və oxları Vaya uzatdı.

Va onları götürdü, amma heç nə deyə bilmədi. O, Dana baxdı və qəzəblə dedi:

— Biz onları tapıb öldürəcəyik!

— Biz, hətta onları Qatran dağlarına qədər təqib etməli olsaq belə, təqib edib Eli azad edəcəyik — Dan cavab verdi.

Bütün bu müddət ərzində tərpənmədən dayanan, yanaqlarından göz yaşları süzülən Vanı və Arunu qucaqladı.

— Ancaq bizim məqsədimiz qisas almaq deyil. Biz Eli azad etmək istəyirik. İntiqam hissi başa düşüləndir, lakin o, insanı kor edir və Tanrının köməyindən məhrum edir. Bizsə Tanrının köməyi olmadan bunu edə bilmərik.

— Niyə El bizə əvvəlcədən qoşulmadı? — deyə Arun soruşdu.

— Məncə o düşünüb ki, əgər mağaradan üç günlük yol qədər uzaqlaşsa, onda onu geri qaytarmayacağıq — Dan dedi.

Bu zaman itlər ağacın altında gəzişir və səbirsizliklə onlara baxırdılar. Dan bir daha çoxlu adam ayaqlarının tapdaladığı yaş otların arasından keçdi və axtardığını tapdı. O, əlində qana bulaşmış bir dəstə ot tutmuşdu.

— Burada kolların içində böyük qan gölməçəsi var. Hücum edənlər arasında bir yaralı var və vəziyyəti ağırdır. Deməli, onlar yavaş-yavaş gedəcəklər — deyə Dan fikrini bildirdi.

Dan itinin burnuna qanlı otu yaxınlaşdırdı və ona axtarış əmrini verdi. İtlər kolların arasından düz meşənin dərinliyinə qaçdılar. Tezliklə gənclər meşədəki heyvanların gecə su içmək üçün getdiyi yola çıxdılar.

— Dərhal aydın oldu ki, burada şəhər sakini olan qararənglilər olub. Onlar maral sürüsü kimi iz qoyurlar — Dan dedi.

— Dan, bəs onlar neçə nəfərdir? — deyə Va soruşdu.

— Mən onların təxminən on nəfər olduğunu düşünürəm — Dan cavab verdi.

— Qararənglilərin hamısı qısa boylu və cılızdır, biz onların öhdəsindən gələ bilərik! — Arun dedi.

Dan etiraz edərək davam etdi:

— Arun, onların tamamilə fərqli silahları var, biz isə yalnız üç nəfərik. Biz əvvəlcə onların izinə düşməliyik, sonra zorakılıq tətbiq etmədən Eli necə azad edəcəyimizi düşünməliyik. Onlar hər şeyə zorakılıqla qərar verirlər. Ona görə də meşədə yaşayırıq ki, onlar kimi davranmayaq. Gəlin ulu Tanrıya güvənək və əldə etdiyimiz üstünlüklərdən istifadə edək.

— Sən hansı üstünlükləri nəzərdə tutursan? — Va soruşdu.

— Onlar meşədə kor və kar kimidirlər. Onlar ayaq izlərini oxumağı bacarmırlar, meşədəki səsləri başa düşmürlər. Amma bizim üçün meşə öz evimizdir — Dan cavab verdi.

İtlərin izə düşdükləri aydın idi. Ovda olduğu kimi onlar ovu qorxutmamalı idilər və ona görə də hürmürdülər. Çox da sürətlə qaçmırdılar ki, gənclər onlarla ayaqlaşa bilsinlər. Cığır onları kiçik çayın sahilinə aparırdı, burada itlər hündür qamışlıqların arasında izi itirdilər. Dan onlara yanlarında qaçmağı əmr etdi, lakin itlər bunu çətinliklə yerinə yetirdilər.

Sahili nəzərdən keçirən gənclər qararənglilərin əks tərəfə keçdiyi yeri tapdılar. Bu yerdəki çay dayaz olduğundan onu asanlıqla keçmək olardı. Dan sonra nə edəcəyini müzakirə etmək üçün ağacların kölgəsinə qayıtmağı təklif edib dedi:

— Düşünürəm ki, çayın əks tərəfində onlar haradasa dayanacaqlar. İstirahət etmədən o qədər də yol gedə bilməzlər. Or deyirdi ki, qararənglilər hara gedirlərsə, gündə bir neçə dəfə istirahət edirlər. Onlar bizim kimi bütün günü qaçıb dincəlmədən gedə bilməzlər.

— Mən çayın axını ilə getməyi və oradan o biri sahilə keçməyi təklif edirəm. Sonra isə bu yerə, axın ilə aşağıya enək və yenidən onların izini götürək — Va dedi.

— Yaxşı təklifdir. Gəlin elə də edək — deyə Dan onunla razılaşdı.

— Mən burada qalıb onlar qayıdanda onları izləyə bilərəm. Siz əks tərəfdə olanda mən sizə qoşulacağam. Beləcə, yüngül əşyalarla yola çıxa bilərsiniz, siz o tərəfdə görünəndə isə mən çantaları ora keçirəcəyəm — deyə Arun təklif etdi.

— Yaxşı, Arun! — deyə Dan onu təriflədi, gəncin çilli üzü utancaqlıqdan qızardı.

Dan və Va itlərin müşayiəti ilə çay boyunca yuxarı qalxdılar. Dan qamışları ayıraraq suya girəndə orada kiminsə olduğunu hiss etdi və səssizcə əlini qaldırdı. Hamı, hətta itlər də dərhal dayandılar. Digər sahildən bərk xorultu səsi eşidildi. Dan əlini endirib yoluna davam edərək pıçıldadı:

— Bunlar bizonlardır. Yəni heç bir təhlükə yoxdur.

Dan qamışları ayırıb çaya girdi. O biri sahildə, axından bir az yuxarıda, geniş bir cığır var idi. Kiçik bir bizon sürüsü ona yaxınlaşdı. Bəziləri artıq suya girib su içirdilər, digərləri isə hələ də sahildə dayanıb sakitliyi pozanlara tərəf baxırdılar.

Birdən sahildə dayanan bizonlardan biri nəsə səs saldı və bütün sürü sürətlə meşəyə qaçdı.

Ağacların altında olan Dan və Va tez çayın aşağısına, o biri sahildə Arunu tərk etdikləri yerə getdilər. Arun dostlarını gördü və çantalarla yüklü halda çayı keçdi. Yükləri götürən Dan yenə də itlərin burunlarının önündə qanlı otu tutaraq onlara iz axtarmağı əmr etdi. İtlər dərhal bir az yuxarı, sonra aşağı qaçdılar və hər ikisi "ov" mənasını verən bir yerdə dayandılar.

— Biz silahlardan başqa hər şeyi burada qoyacağıq. Sonra bura qayıda bilərik, onsuz da biz qayıtmalıyıq — Dan dedi.

Arun və Va çanta və geyimlərini ağacın yuxarı budaqlarında gizlətdilər. Sonra onlar yüngül əşyalarla yola düşdülər, lakin itlərin qaçdığı cığırla getmədilər. Onlar çox asta-asta meşənin

içindən keçib getdilər. Ora şam ağacları ilə dolu idi və nadir hallarda nəhəng ağacların altında kollar bitiridi, burada qıjılarsa seyrək idi.

Bir müddət sonra itlər həyəcanla quyruqlarını yelləyərək Dana baxıb dayandılar. Onlar sanki deyirdilər: "Hücum üçün komandanı gözləyirik".

Dan onları sığalladı və sakitcə pıçıldadı:

— Siz burada gözləyin, mən isə kəşfiyyata gedəcəyəm. Bunu deyib o, bir göz qırpımında qıjıların arasında gözdən itdi. Va, Arun və itlər cığırdan çox da uzaq olmayan sıx çiçəklər, qıjılar və kiçik kolluqlarda gizləndilər. Onların üstünə həşərat sürüsü çıxdı.

Arun ağ çiçəklərlə və şirəli yarpaqlarla örtülmüş hündür otları göstərərək dedi:

— O bitkilərin şirəsini dərimizə sürtməliyik. Əks təqdirdə biz yerimizdə uzana bilməyəcəyik.

Beləliklə, onlar reyhan yarpağının şirəsini bədənlərinə sürtdülər. Hətta itlər narazı olsalar da, onlara da sürtməyə imkan verdilər.

Onlar uzun müddət gözləməli oldular. Kolların arasından Danın üzü görünəndə artıq hava qaralmışdı.

— Sakit! Onlar uzaqda deyil. Düşünürəm ki, onlar gecəni burada qalacaqlar. Onlar cəmi səkkiz nəfərdir, biri isə çiynindən ağır yaralanıb. Bu yeddi deməkdir — deyə Dan dilləndi.

— Bəs El haradadır? — deyə Va və Arun bir səslə soruşdular.

— Onun əl-ayağı bağlı olub. Bu o deməkdir ki, onlarla getməkdən imtina edib, amma onu özləri ilə aparıblar — Dan dedi.

— Bəs onun vəziyyəti necədir? — gənclər bir-birinə imkan vermədən soruşdular.

Dan acı yumorla dedi:

— O, başını tərpədir! Ağzı isə bağlıdır. Onunla hər şey qaydasındadır.

Birdən zəif bir tüstü qoxusu gəldi.

— Qararənglilər gecə yatmağa hazırlaşırlar. Onlar mərkəzində kiçik bir ağac olan düzəngahda gecələyirlər. Eli böyük bir ağaca bağlayıblar. Düzəngahın içindən heyvanların ayaq izləri olan çığır keçir. Onların niyə orada gecələdiklərini başa düşmürəm, axı heyvanlar gecə bu çığır ilə su içməyə gedəcəklər. Onlar bir az aralıda, düzəngahın ortasındakı daşlı yerdə tonqal yandırıblar. Düşünürəm ki, bu axşam Eli azad etmək şansımız olacaq — deyə Dan fikrini dostlarına bildirdi.

# Müttəfiq

Amma nə həmin, nə də növbəti gecə qararənglilərə yaxınlaşmaq mümkün olmadı. Tonqal bütün gecəni gur yanırdı və qararənglilərdən biri həmişə üzü Elə, arxası alova tərəf otururdu. Ocağın o biri tərəfində başqa bir mühafizəçi var idi. Hamının dincəlməsi üçün gecə vaxtı onlar bir neçə dəfə bir-birini əvəz edirdilər. Onların iti yox idi. Kimsə demişdi ki, qararənglilər itləri yemək üçün saxlayırlar.

Qararənglilərin yoldaşları yaxşılaşana qədər gözləmək istəyirdilər. Elin dostları düzəngahı əhatə edən meşədə rahat yerləşmişdilər və aşkar olunmaqdan qorxmadan gecə-gündüz qararəngliləri seyr edə bilirdilər.

Üçüncü günün axşamı onlar vəziyyəti müzakirə etmək və gələcək tədbirlər haqqında qərar vermək üçün düzəngahdan uzaqlaşaraq təhlükəsiz bir yerə getdilər.

— Gecə yarısı onlara hücum etməkdən başqa çarəmiz yoxdur. Biz üstünlüklərimizdən istifadə edəcəyik və biz onlardan güclüyük, gözlənilmədən onlara hücum edəcəyik — deyə Va təklif etdi.

— Meşədən çıxmadan onların hamısını öldürə bilərik. Meşənin istənilən yerindən məsafə bizim oxlarımız üçün əlverişlidir. Biz üç tərəfdən ox atmaq üçün ətrafda yerləşə bilərik — deyə Arun təklif etdi.

— Mən sizi yaxşı başa düşürəm, dostlar. Bəs bundan sonra biz kim olacağıq? Biz də üzümüzü qara rənglə boyayıb alnımıza işarə çəkməli olacağıq — Dan etiraz etdi.

— Axı nəsə etmək lazımdır! — deyə Va və Arun kəskin tərzdə ona fikirlərini bildirdilər.

— Gözləməliyik. Biz ulu Tanrıya güvənirik. Gəlin Onun bizə kömək etməsini gözləyək. Bilirəm ki, gözləmək həmişə çətindir, amma indi başqa seçimimiz yoxdur. Yoxsa siz ürəyinizdə qaranlığa yer vermək istəyirsiniz?

Cavanların Dana tabe olduqları, lakin onun sözləri ilə razılaşmadıqları aydın idi. O uzun sükutdan sonra sözünə davam etdi:

— "Or" adının mənasının nə demək olduğunu xatırlayırsınız?

Gənc oğlanlar qaşqabaqlı halda Dana baxıb başlarını buladılar. Sonra Dan dedi:

— "Or" sözü işıq deməkdir.

— Mən elə bilirdim ki, "Or" adını ona tamamilə ağ olmasına görə veriblər — Va dedi.

Dan yenidən etiraz edərək dedi:

— Xeyr, o, adını uşaq ikən alıb. Ulu Tanrı sülh içində yaşamağımızı, qəlbimizdə sülh və nur olmasını istəyir.

Sonra o birdən pıçıldadı:

— Şşş! Kimsə cığırla gəlir.

İtlərin qulaqları dik dayandı, onlar dişlərini qıcadılar. Davranışlarından məlum idi ki, bu, su içməyə gedən heyvan deyildi. İndi yolun kənarından addımlar aydın eşidilirdi. Demək olar ki, gənclərin gizləndiyi kolluqlarla üzbəüz, cığırla gedən bir kişi dayanıb öskürməyə başladı.

Dan hər kəsə olduqları yerdə qalmağı işarə etdi və özü də hündür qıjıların arasında məharətlə gözdən itdi. O, səssizcə yolda dayanan kişiyə yaxınlaşdı. O kişi bütün qararənglilər kimi geyinmişdi, üzü qara rəngə boyanmışdı, alnında ağ boya ləkəsi parıldayırdı. Bu cavan oğlanın sağ çiynində sarğı var idi, qolunu isə sapanda dayamışdı. O, sadəcə orada dayanıb nəyisə gözləyirdi. Bir az sonra yenə bərkdən öskürdü. Onun bunu bilərəkdən etdiyi nəzərə çarpırdı. Sonra sakitcə ətrafa baxaraq dedi:

— Bilirəm, yaxınlıqdasınız. Özünüzü göstərin. Mən dostam.

Dan özünü necə aparacağını bilmirdi. O, məəttəl qaldı. Yolda onun qarşısında dayanmış, təxminən öz yaşında olan şəxs — enli çiyinli, əzələli, qalın qara saçlı, çiyinlərinə kimi dalğalı saçları olan cavan oğlan idi. Yumşaq axşam işığı onun üzünü tamamilə işıqlandırdı. Onun kəmərində qararənglilərin silahı olan qılınc asılmışdı. O, yolun ortasında dayanıb gözlədi.

Dan qərar verdi. O, nizənin sapını əlində tutaraq ağacın arxasından çıxdı və qararəngli adamla üz-üzə gəldi.

— Siz kimsiniz? — deyə Dan soruşdu.

— Mən artıq dedim, dostam — deyə yaralı sakit səslə cavab verdi.

Bunun belə olduğuna şübhə yox idi.

— Bəs, niyə burdasınız?

— Çoxdan görmüşük ki, kimsə bizi izləyir. Amma sizin kim və ya neçə nəfər olduğunuzu bilmirdik. Buna görə də qararənglilər kömək üçün bir döyüşçü göndərdilər. O, bu axşam və ya sabah günorta gəlməlidir.

— Bəs siz özünüz qararəngli deyilsiniz? — deyə Dan soruşdu.

Yad adamın gözləri parıldadı və dedi:

— Xeyr! Uzun illərdir ki, mən onların əsiriyəm. İnanırlar ki, mən də onlardan biri olmuşam. Amma bu heç vaxt olmayacaq. Ulu Tanrı və təbiətlə sülh içində yaşayanları tapmaq üçün onlarla birlikdə yürüşə çıxdım.

Dan sakitcə dedi:

— Mən sizə inanıram.

— Bəs siz kimsiniz?— yaralı öz növbəsində soruşdu.

— Biz “Maral ovçuları” qəbiləsindənik. Uzunömürlülər bizi səfərə göndərdilər. Amma bir neçə gün bundan əvvəl anladıq ki, bizim qəbilədən bir qızı qararənglilər əsir götürüb. O vaxtdan sizi izləyirik. Biz də sizinlə eyni vaxtda üç gündür ki, bu yerdəyik.

— Bəs niyə bizə hücum etmədiniz?

— Biz Tanrı və təbiətlə sülhdə yaşayırıq.

— Siz qararəngli olmaq istəmədiniz? — yaralı həyəcanla onun sözünü kəsdi.

— Xeyr! — deyə Dan cavab verdi.

O, həmsöhbətinin gözlərinin yaşla dolduğunu gördü.

Yaralı dedi:

— Mən əsiri sizə qaytaracağam. Ay o ağacın üstündən keçəndə məni burada gözləyin. Ancaq bircə xahişim var.

— Nə xahişdir?

— Məni özünüzlə apara bilərsiniz?

— Əsiri gətirsəniz, bizim dostumuzsunuz. Siz azad insansınız, istənilən yerə gedə bilərsiniz.

— Bəs sizinlə getmək olarmı?

— Biz bunu şərəf hesab edəcəyik — deyə Dan cavab verdi.

— Mən getməliyəm, əks halda məni axtarmağa başlayacaqlar.

Dan yenidən ağacların arasında gözdən itdi və yaralı adam dönüb cığırla düzəngaha doğru getdi.

## 6-cı fəsil

# Qurtuluş

Meşədəki heyvanlar çox insanın olduğunu hiss edib həmin cığırla getməyəcəkdilər. Düzəngahdan tüstü və tanış olmayan qoxu gəlirdi. Bu, qararənglilərin hazırladığı axşam yeməyinin ətri idi.

Arun dedi:

— Mən onların nə yediklərini, belə qəribə qoxunun nə olduğunu bilmək istərdim.

Dan pıçıldayaraq dedi:

— Sən də fikirləşməyə şey tapdın! Biz bu gün öz ehtiyat yeməklərimizdən yeməmişik.

— Sakit olun! Görürsünüz, ay artıq yaralı adamın dediyi yerə yaxınlaşır.

— Əgər o adam gəlməsə, onda necə olacaq? — deyə Va soruşdu.

Gələcək və Eli də özü ilə gətirəcək! — deyə Dan əminliklə cavab verdi.

— Sən də onun sözlərinə inanırsan?

— Bəli. O, sadəcə etibar edə biləcəyim bir insana bənzəyir.

— Görək də. Məncə qərarənglilərə etibar etmək olmaz — Va dedi.

— Axı o, qərarəngli deyil, yalnız onlar kimi geyinib və adətlərinə uyğun üzünü rəngləyib. O da mənim kimi yetkin bir insandır və bəlkə də məndən güclüdür.

Arun və Va bir-birlərinə baxdılar. Onlar Dandan bunu eşidəcəklərini gözləmirdilər. Onlar Dandan daha güclü bir adamın olduğuna inanmırdılar. Hətta şənliklərdə qonşu qəbilələrdən qonaq gələnlər arasında qaçıb nizə atmaqda Danla yarışa bilən bir adam yox idi.

— Sakit olun! — Dan narahat görünən itlərə əmr edib onları sığalladı.

Gənclər yolun kənarından yüksək səslə danışan bir insanın səsini eşitdilər.

— Əgər sakitləşməsən, sənin ağzını yenidən dəsmal ilə bağlayacağam.

— Sən kimsən və məni hara aparırsan? — Elin səsi qəzəblə dolu idi.

— Bir az səbr et, hər şeyi biləcəksən — yaralı adam sakitcə cavab verdi. Dan bu sözləri deyən insanı dərhal tanıdı.

— Onlardır! — o, pıçıltı ilə dedi.

— Niyə onlar belə səs-küy salıblar? — Arun da səsini qaldırmadan təəccübləndi.

Təyin olunmuş yerə yaxınlaşan yaralı adam qəsdən yüksək səslə öskürdü. Sol əli ilə müqavimət göstərən Eli tutmuşdu, lakin sağ əlində həm nizəsini, həm də Elin yayını tutmuşdu.

Dan və dostları gizləndikləri yerdən çıxdılar. İtlər məəttəl qalmış Elin üstünə qaçdılar və onun üzünü, ayaqlarına yalamağa başladılar. Dan, Va və Arun yaxınlaşıb Eli qucaqladılar, ondan yaxşı olub-olmadığını, qərarənglilərin ona zərər verib-vermədiyini soruşdular.

Va Eli qucaqladığına görə həyatında ən böyük sevinci yaşayırdı.

— Düşünürəm ki, biz getməliyik — yaralı adam dedi. Sanki hamı bunu tamamilə unutmuşdu.

Qəribə bir sükut çökdü. Ağacın arxasından çıxan ayın zəif işığı ətrafı işıqlandırdı. Hamı üzü qara boyanmış, alnında ağ ləkə olan qararəngliyə baxdı. O, hətta Dandan bir qədər hündür idi.

— Düzdür, biz tələsməliyik, əks halda qararənglilər sizi axtaracaqlar — Dan dedi.

— Onlar məni belə tez axtarmayacaqlar. Bəlkə sabah günorta axtaracaqlar. Amma bütün gecəni meşənin ortasında durmaq da ağılsızlıqdır.

— Günorta dedikdə siz nəyi nəzərdə tutursunuz? — Dan soruşdu.

— Mən qararənglilərin yaralılara ağrıkəsici kimi verdiyi tozu şorbalarına əlavə etdim. O tozu çox qəbul edəndə, yuxudan oyanmaq olmur. Sabah köməyə gələn qararəngli dəstə onları ayıldanda özlərinə gələcəklər.

Dan dedi:

— Düşünürəm ki, gecəyə baxmayaraq, əşyalarımızı qoyduğumuz çaya çata biləcəyik. Orada biz iz qoymamağa çalışacağıq, onlar bizi təqib etmək qərarına gələcəklər və bundan sonra biz nə edəcəyimizə qərar verəcəyik. Mən itimlə qabaqda gedəcəyəm.

Onun sakit, amma əminliklə dediyi sözlər hamıda hökm sürən həyəcana müəyyən bir rahatlıq gətirdi.

— Arxamca El, onun ardınca Arun və sonra sən gələrsən. Va, sən isə itinlə hamıdan arxırda gedəcəksən. Gecə meşədə səyahət etmək yaxşı vaxt deyil, buna görə xüsusilə diqqətli olun.

Səyyahların kiçik sırası çox sürətlə hərəkət etdi. Ay yolun böyük bir hissəsini işıqlandıranda, onlar hətta qaçırdılar. Va iti ilə arxada gəlirdi. Hərdən qarşısında gedən qararəngli ətrafa baxıb onu təkcə yad və düşmən görkəmi ilə deyil, həm də Vanın onunla hardasa rastlaşdığına dair qəribə bir hiss oyatması ilə qorxudurdu. Sonra yuxusunu xatırladı. O, yuxuda gördüyü meşəni, düzəngahı, insanları və qara rənglənmiş üzləri xatırladı.

Or deyirdi ki, yuxulara diqqət vermək lazım deyil, çünki onlar gəlib gedir. Yuxular həyatda gördüklərimizdən və yaşadıqlarımızdan ibarət yaddaşımızda qalan parçalardır. Onların mağarasının divarındakı rəsmlər kimi canlı olmadığını söylədi.

Gecənin qalan hissəsi əngəlsiz keçdi. Çaya çatanda şeh düşən vaxt idi. Hamı islanmamaq üçün əşyalarını gizlətdikləri qalın bir ağacın altına toplaşdı.

— Yaxşı ki, biz bura şeh düşməzdən əvvəl gəlib çatdıq, islanmadıq və heç bir izlərimiz də görünməyəcək — Dan dedi.

Günəş görünmürdü və meşənin hündür ağaclarının arxasında gizlənmişdi, lakin onun isti şüaları artıq səhər dumanını dağıtmışdı və *şeh** artıq düşmürdü. Bir müddətdən sonra torpaq həmişəki kimi nəmişliyi özünə çəkdi; qıjılar, otlar və çiçəklər doyunca islandılar və yeni gözəl günü qarşılamağa hazırlaşdılar. Səyyahların ürəkləri isə o qədər də sevinmirdi. Onlar yollarını hansı istiqamətə yönəltmək, izlərini təqibçilərdən necə gizlətmək barədə danışırdılar. Yalnız Va və El yaxınlıqdakı ağacın altında oturub çox vacib bir şey haqqında danışırdılar. Vanın hərəkətlərindən görünürdü ki, söhbət yaxşı istiqamətdə gedirdi. O, sevgilisinin əlindən tutdu və bütün yer üzündəki şehi dərhal quruda biləcək bir baxışla onun gözlərinə baxdı.

Dan hamını dinlədikdən sonra dedi:

— Onda belə də edərik. El və Va, bura gəlin.

Onlar qrupa qoşulduqda Dan davam etdi:

— Biz çayın axını ilə aşağı düşəcəyik, o, hardansa bizim çaya və ya hansısa gölə axmalıdır. Bizi çox uzağa apardığını görsək, heç bir iz qoymadan sahilə çıxmaq üçün münasib yer tapacağıq. Gücümüzü saxlamaq üçün təchizat çantalarımızdan istifadə edə-

---

**Daşqından əvvəlki günlərdə yağış yağmırdı, hər səhər yer üzü bol şehlə sulanırdı.*

cəyik. Bu yolla biz bütün günü, lazım gələrsə, daha uzun müddət üzə bilərik. İndi yemək yeməliyik. Arun, bizim ərzaq təchizatımızdan hamıya yemək hazırla.

Hamı üzməyə hazırlaşmağa başladı. Dan qararənglidən soruşdu:

— Üzməyi bacarırsan?

— Bəli — deyə o, qısaca cavab verdi və sonra çaya gedib üzünün boyasını yumağa başladı.

O, silahını ağacın altında qoymuşdu. Va qısa, parlaq iti ucu olan nizəni götürdü, onun əlində yoxladı və sonra yerinə qoydu. Yaralı adamın qılıncını götürüb qınından çıxartdı. Ortası bir növ ornamentlə bəzədilmiş qılınc çox yüngül və iti idi. Onu otların arasında yelləyərək, ətrafındakı bütün otları və çiçəklərin təpəsini bir zərbə ilə vurub yerə saldı. Sonra o, qılıncı qınına salıb yerinə qoydu.

Yaralı adam sahildən onlara tərəf gəlirdi. O, sarğısını çıxardı, Elin atdığı oxun yarası artıq sağalmışdı. Onun əynində nədənsə hazırlanmış geyim var idi. Yeriyəndə bütün əzələləri tərpənirdi, qara qıvrım saçları çiyininə tökülmüşdü. O, üzünü gizlətməyə çalışdırdı, səyyahların dayandığı ağaca tərəf addımlayırdı. Ora yaxınlaşanda onların heyrətdən ağızları açıq qaldı. Yaralı düşmən yaraşıqlı, parıldayan qəhvəyi gözləri olan bir şəxsə çevrilmişdi.

— Sən, sən... — Va nəsə deməyə çalışdı və atılıb onu qucaqladı.

— Bəli, mənəm. Sən necədə anamıza oxşayırsan. Mən səni dərhal tanıdım, amma deməyə cəsarət etmədim — deyə yaralı adam dilləndi.

— Deməli, sən Vanın qardaşı Ansan? — Dan onun sözünü kəsdi.

Hər kəsi böyük həyəcan bürüdü. Bu sevinc hissi itlərə də təsir etdi, onlar bir-birini qucaqlayan, eyni anda gülüb ağlayan insanların ətrafında hürərək fırlanmağa başladılar.

Arun bütün bu həyəcanlı anları öz sözləri ilə dayandırdı və əli ilə qurumuş kökə parçalarına, hisə verilmiş ət dilimlərinə və meyvələrə işarə edərək dedi:

— Mən yemək hazırladım. Xahiş edirəm. Buyurun!

— Bəli, artıq vaxtdır. Mən Tanrıya təşəkkür etmək istəyirəm — Dan dedi.

Hamı süfrə ətrafında oturub başını aşağı saldı. Yalnız An bütün bunlara təəccüblə baxdı.

— Böyük Ata, xahişimizi eşitdiyin üçün Sənə təşəkkür edirik. Bizə insan qanı töküb qəlbimizdə qaranlığa imkan vermədin. İstədiyimiz kimi bizə Eli qaytardın və bundan da artığını etdin. Sən Ana azadlıq, Vaya isə qardaşını verdin. Sən böyük və anlaşılmazsan, yalnız Sənə qurban kəsmək və ibadət etmək istəyirik. Sənə yemək üçün təşəkkür edirik. Xahiş edirik, bizi düşmənlərimizdən və qəlbimizdəki zülmətdən xilas et!

Hamı üzmək üçün yarıya kimi soyundu, əşyalarını şişirdilə bilən torbalara yerləşdirəndə Vanın yanında dayanan An əlindəki qılıncı qəfildən çayın ortasına atdı. Hamı dərindən nəfəs aldı.

An təmkinlə dedi:

— Siz dediniz ki, mən sizinlə qala bilərəm. Sizə qılınc lazım deyil. Mənə də. Onlar insanları öldürmək üçün hazırlanıb, mənsə qararəngli olmaq istəmirəm.

O, bir az tərəddüd etdi, sonra döyüş nizəsinin ucunu daşla qoparıb çaya atdı.

— İndi sən bizə qoşula bilərsən. Çantamda ehtiyat nizə ucluğum var. Növbəti dayanacaqda sənin üçün əsl ov nizəsi düzəldəcəyik — Dan dedi.

# 7-ci fəsil

# Qaçış

Onlar səhər tezdən sahilə çıxmadan üzürdülər. Kiçik çaylar və bulaqlar çaya tökülürdü. Çay getdikcə dərinləşir və axın sürətlənirdi. Onlar əvvəlkindən daha sürətli üzürdülər. "Maral ovçuları" bütün günü, səhərdən axşama kimi dayanmadan qaça bilərdi. Axının ümumi istiqamətinə təsir etməyən bir neçə döngədən sonra çay sürətlə, geniş axınla cənuba doğru axırdı.

Onlar bir-birinə yaxın üzürdülər. Dan çantasının yanında tək üzürdü, Va və An çantadan tutaraq yan-yana üzürdülər. Arun bacısı ilə birlikdə torbalardan yapışaraq üzürdülər və beləcə, onlar güclərini çox sərf etmirdilər.

Bəzən onlar su içməyə gələn maral sürüsünü qorxudurdular. Yaxud sinələrinə qədər suda dayanıb təəccüblə onların arxasınca baxan böyük bir sığın ailəsinin yanından keçirdilər. Meşə daha seyrəkləşdi və çay yalnız meşəli adalardan, tək-tək böyük ağaclardan ibarət geniş bir düzənlikdən keçdi. Meşə sağda bütün üfüq boyu bir zolaq kimi görünürdü, sol-

da isə nəhəng antilop, bizon və at sürülərinin otladığı sonsuz düzənlik uzanırdı.

Sonra Dan dedi:

— Bizim sahilə çıxmağımız üçün yer tapmaq vaxtıdır. İtlər artıq yorulublar.

— Hansı tərəfdəki sahiə çıxaq, sağa, yoxsa sola? — deyə An soruşdu.

— Səncə, qərarənglilər bizi hansı sahildə axtaracaqlar? — Dan ondan soruşdu.

— Məncə, sizi sağdan axtaracaqlar. Eli azad edəndə onu tapmaq üçün heç bir iz qoymadım. Düşünə bilərlər ki, mən əsiri oğurlamışam. Sizin izlərinizə rast gəlməsələr, baş verənlərə və sağ qaldıqlarına görə tək mənim günahkar olduğumu hesab edəcəklər.

Dan dedi:

— Yaxşı, onda heç bir iz qoymamaq üçün sol sahildə qayalıq yer axtaracağıq.

Tezliklə belə bir yer tapıldı. Onlar daşların arasındakı qumda ayaq izlərini qoymamaq üçün çox ehtiyatla sahilə çıxdı. Daşdan daşa tullanaraq, bütün qrup sahildən kifayət qədər uzaqlaşdı və tənha bir palıd ağacının kölgəsində dincəlmək üçün dayandılar. Onun altındakı yer quru yarpaqlarla örtülmüşdü, qabanlar qoza axtarmaq üçün yeri qazmışdılar.

İtlər böyük həvəslə suyu özlərindən silkələdilər və yerdə uzanıb dərhal yuxuya getdilər.

— Niyə siz ayaqqabı geyinmirsiniz? — deyə ayağında yumşaq dəridən məharətlə tikilmiş ayaqqabı geyinən An soruşdu.

— Biz ancaq dağlarda ova çıxanda ayaqqabı geyinirik, çünki orada iti daşlar çoxdur və ayaqlarımızı zədələmək təhlükəsi var. Ayaqyalın gəzmək, qaçmaq və üzmək üçün daha asandır — deyə Dan hamı üçün cavab verdi.

O, Anın islanmış ayaqqabılarını ayaqlarından çıxarmasına baxdı.

— Bəli, qardaş, belə ayaqlarla uzağa getməyəcəksən, ayaqların körpənin dərisi kimi incədir — Va gülümsəyərək dedi.

An ayaqqabılarını budağa asıb dedi:

— Biz sahilə bu qədər yaxın dayanmayacağıq. Birdən qarənglilər bu sahildə çaydan çıxdığımızı başa düşsələr, o zaman asanlıqla izimizə düşə bilərlər. Bir az dincələcəyik, itlərə də dincəlmək imkanı verəcəyik və sonra yola düşəcəyik — Dan əmr etdi və sonra otların üstündə uzandı.

Bir müddət sonra ağacın altında hamı sakitləşdi. Gecə-gündüz yuxusuzluqdan əziyyət çəkən səyyahlar yorğun halda yuxuya getdilər. Hər kəsi qorumağı An boynuna götürdü, dostlarını inandırdı ki, son günlərdə çox yatıb. Dan ondan günəşi üfüqdə görəndə onları oyatmasını xahiş etdi.

— Mən indicə gözlərimi yumdum və artıq ayağa qalxmağın vaxtı gəldi — deyə Arun mızıldandı, amma hamının yola çıxmağa hazır olduğunu görəndə ayağa qalxdı.

— Bundan sonra gecə gəldiyimiz yolla gedəcəyik. Mən nizam-intizamı pozmağı mənasız görmürəm — Dan dedi və əlavə izahat vermədən, çaydan uzaqlaşaraq, tapdalanmış cığırla getdi.

O, əlində bir kaman, iki ox tutdu, nizəsini arxada kəmərinə qoydu. Beləliklə, günəş qərbdəki üfüqdəki qara meşə zolağına toxunana qədər yol getdilər. Birdən Dan əli ilə hamıya dayanmaq işarəsi verdi. İtlər də bu işarəni başa düşdülər. Hamı donub qaldı. Dan bir az da irəli, çöllərə səpələnmiş hündür otların və kolların arxasında gizlənərək əyilib yeridi. Sonra yaya bir ox qoyub nişan aldı və yayı çəkdi. Az sonra o, əlində bir cüyürlə qayıtdı. Ox onun düz ürəyinə dəymişdi.

— Qanın üstünü örtün — deyə Dan Vadan xahiş etdi.

Oxu dartıb çıxaran Dan, qalan qanın yerə tökülməsinə imkan verdi və qanın cığıra damcılanmaması üçün yaranı bir dəstə otla bağladı.

Bir müddət getdikdən sonra onlar yolun kənarında, budaqlarında rahat otura biləcəkləri böyük bir ağac gördülər.

Artıq tamamilə qaranlıq idi, ocağın kömürləri üzərində nazik budaqlarda ləzzətli ət qovrularkən tonqalın ətrafında oturanların üzlərində maraqlı bir ifadə var idi. Hamı susurdu. Dan duanı təzəcə bitirmişdi. O, əldə etdiyi qəniməti Tanrıya həsr etdi və xahiş etdi ki, bu tökülən qanı ürəklərindəki qaranlığın bağışlanması, Elin sağ-salamat azad olması, azadlıq tapan An üçün minnətdarlıq əlaməti olaraq qəbul etsin.

Vadinin üzərində gecə səsləri — yırtıcıların nəriltisi, bizonların uğultusu və kaftarların gülüşü, onların üstündə uçan gecə quşlarının qanadlarının xışıltısı və gənc səyahətçilərə tanış olmayan bəzi başqa səslər var idi.

An itlərlə ağacın altında, qalanları isə ağacın budaqlarında qurduqları yerlərdə yatdılar. Tonqalın üstünə su töküb yarpaqlar səpdilər. Gecələr yanan ocağın yanında oturmaq daha yaxşı olardı, amma ocağı uzaqdan görmək çox asan idi. Çəmən tərəfdəki kolluqdan bir neçə cüt gözün onlara baxdığını heç kim hiss etmədi, hətta itlər də bunu duymadı.

## 8-ci fəsil

# *Mamont ovçuları*

Birdən hamı itlərin qəzəbli hürməsinə oyandı. Onların belə səslə hürmələri təhlükənin heyvanlardan deyil, insandan olduğunu bildirirdi. Şeh vaxtı hələ başlamamışdı və bütün dərəni ay işıqlandırırdı. Yad adamların hamısı iri nizə və güclü gürzlərlə silahlanmışdılar.

— Aranızda rəhbər kimdir? Mənim yanıma gəlsin! — deyə onlardan birinin səsi ətrafa yayıldı və o, qurduqları dairədən bir az kənara çıxdı.

— Rəhbər mənəm — Dan dedi və ağacdan aşağı tullandı. Onun əlində heç nə yox idi.

— Niyə tonqal yandırmamısınız? Vadidə çoxlu yırtıcı heyvanlar var.

— Çünki qararənglilərin bizi tapmasını istəmədik — deyə Dan cavab verdi.

— Onlar bura gəlməzlər. Çünki biz çoxuq və onlar bizdən qorxurlar. Siz tonqal qalaya bilərsiniz. Siz hansı qəbilədənsiniz? — deyə naməlum adamların rəhbəri soruşdu.

— Biz “Maral ovçuları” qəbiləsindənik — deyə Dan cavab verdi.

Dan rəhbərlə söhbət edəndə qalan yad adamlar qəfildən sakitləşdilər, danışmağa başladılar və gənc səyyahların olduğu ağacın altına toplaşdılar. Va çantasından götürdüyü çaxmaq daşı və mamırdan istifadə edərək tez bir zamanda tonqal qaladı.

— Biz də elə düşünürdük, amma əmin deyildik. Sizlərdən biriniz çox qəribə geyinib. Yalnız qararənglilər belə geyinirlər. Elə buna görə də kəşfiyyatçılarımız axşamdan gizlincə sizi izləyirlər və hər ehtimala qarşı bizi çağırdılar — rəhbər dedi.

— Mənim adım Dan, bunların adı Va və Andır. Oxşamasalar da, onlar qardaşdırlar. Bu da Arun və onun bacısı Eldir. Bəs siz kimsiniz?

Rəhbər özünü təqdim edərək dedi:

— Mənim adım Rexavdır və bunlar mənimlə gələn ovçulardır. Biz köçəri qəbilədənik. Gördüyünüz kimi, biz Tanrı və təbiətlə sülhdə yaşayırıq. Biz mamontları ovlayırıq. Onlar bu vadidə bir neçə ay qalacaqlar, ona görə də biz burada uzun müddət qalırıq. Siz istəsəniz, yaxınlıqda yaşadığımız məkana baş çəkə bilərsiniz. Sizin üçün bir bələdçi qoyacağıq və özümüz evə gedəcəyik. Düşünürəm ki, şeh düşməzdəm əvvəl evdə olacağıq. Siz bir az dincələ bilərsiniz, səhər dan yeri söküləndən sonra bizim qəbiləyə baş çəkə bilərsiniz. Bizim qəbilə sizi qonaq kimi qəbul edəcək.

Ovçular ayağa qalxıb, qalın oxlu və iri daş ucluqlu nizələrini, daşdan düzəldilmiş gürzlərini götürüb getdilər. Onlar çox hündür idi, əzələli olduqlarına görə kök görünürdülər. Onların uzun tüklü camış dərisindən geyimləri var idi, bu da onlara qorxunc bir görünüş verirdi. Yəqin ki, buna görə qararənglilər onlardan qorxurdular.

Ovçular yaşca ən kiçiyi onlarla qoyub qaranlıqda gözdən itəndə hamı sakitləşib alovun ətrafında oturdu. Yalnız Arun və El ağaca dırmaşaraq orada düzəldikləri yerdə yatdılar.

— Dan, səndən bir şey soruşa bilərəm? — An dedi.

— Bəli, əlbəttə.

— Sən qurbanı Tanrıya həsr edəndə sənə baxdım. Amma sən üzünü cənuba çevirmişdin. Bunun səbəbi nədir?

— Çünki o tərəfdə Eden bağı var. Orada ilk əcdadlarımız Tanrı ilə üz-üzə danışa bilirdilər.

— Bəs nə üçün ulu Tanrı əcdadlarımızı Cənnətdən qovdu?

— Çünki onlar Tanrıya tabe olmadılar.

— O bağı tapmaq olar?

— Məncə yox. Əgər tapmaq mümkün olsaydı, artıq onu tapardılar.

— Əgər o bağ mövcuddursa və harada olduğunu biliriksə, niyə onu tapmaq mümkün deyil?

— Ulu Tanrı ilk insanlar üçün bir sədd çəkdi və mələklər Cənnəti insanlardan qoruyur. Niyə səni bunlar belə maraqlandırır?

— Atam deyirdi ki, biz öldükdən sonra Cənnətə gedəcəyik. Orada bizdən əvvəl gedənlərlə görüşəcəyik — An dedi. Onun səsində kədər və ümid hiss olunurdu.

— An, Nora bacımız haradadır? — deyə ocağın o biri tərəfindən Vanın səsi eşidildi.

— O bizi Cənnətdə gözləyir.

— Bu necə baş verdi?

— Qararənglilər yaşayış yerimizi ələ keçirib bütün böyükləri öldürəndə Noranı, məni və bütün uşaqları uzun ipə bağlayıb öz şəhərlərinə apardılar. Bir gecə biz güclü bir səs eşitdik. Məlum oldu ki, bir neçə qız ipləri qıraraq qaçıblar. Onlar üç nəfər idi. Nora da onların arasında idi. Onların arxasınca düşərkən Nora yaralandı və yolda öldü. Qararənglilər adətimizə uyğun olaraq onu dəfn etməyə icazə verdilər.

— Mənə qararənglilərin şəhəri haqqında bir az danış — Dan dedi.

— Bunu həqiqətən bilmək istəyirsən? — o, təəccüblə soruşdu.

— Bəli, bilmək istərdim ki, onlar necə yaşayırlar.

— Onların cənubda və şərqdə çoxlu şəhərləri var. Yaşadığım şəhər şimalda idi və onun divarları boyunca yarım gün yol get-

mək olardı. Şəhərin ortasında və onun əsas qapılarında böyük daş məbədlər var. Onlar o qədər böyükdür ki, təkcə yuxarıdan bütün şəhəri deyil, həm də şimalda meşəni, qərbdə dənizi görmək olur. Biz indi o dənizin şimalında yerləşirik.

— İnsanlar orda nə işlə məşğul olurlar?

— Onlar əsasən kənd təsərrüfatı və ticarətlə məşğul olurlar. Şəhərdən kənarda çobanlar var, amma sürülər onlara deyil, şəhərin zəngin sakinlərinə məxsusdur. Orada parçalar qoyun yunundan hazırlanır. Zənginlərin və güclülərin bir neçə arvadı var və nə qədər çox uşaqları olarsa, qəbilə bir o qədər güclü hesab olunur. Məbədlərdə özlərini tanrılara həsr edən qadınlar və kişilər yaşayır. Bunlar rahiblər və rahibələrdir. Oradakı tanrıya qurban gətirmək istəyənlər ora gedir. Tanrılarına hədiyyələr gətirirlər. Onların arasında uzunömürlülərin də olduğunu deyirlər. Amma mən ora getməmişəm və bu barədə çox bilmirəm.

— Hel mənə dedi ki, buna görə də onların çoxlu xəstə və az uşaqları var — Dan söhbətə qarışdı.

— Orada küçələr çirklidir, çirkab suları birbaşa evlərin yaxınlığındakı arxlara axır. Şəhərdə çoxlu milçək var. Mən meşə, təbiət, sadə insanlarla ünsiyyət üçün çox darıxmışam — An söhbətini davam etdirdi.

— Şorba nədir? — Arun soruşdu.

— Qararənglilər adətən əti qaynadırlar, qızartmırlar. Onlar əti və suyu qazana töküb odun üstünə qoyurlar. Xörəyə müxtəlif tərəvəzlər və ədviyyatlar tökürlər. Buna onlar şorba deyirlər.

— İndi sən öz adamlarının yanındasan, öz xalqının arasındasan. Gəl bir az yataq — deyə Va qardaşının çiyninə vurdu.

# Köçərilərə qonaq getmək

Qısa, sürətli addımlardan sonra Dan və onun yoldaşları hündür otla örtülmüş təpələrə rast gəldilər. Onlara Mur adlı gənc rəhbərlik edirdi. Yaxındakı təpəyə qalxanda onların önündə gözəl bir mənzərə açıldı: dar vadinin ortasında bir neçə təpənin arasında yerləşən gölə bir çay axırdı.

Bu gölün sahilində və çay boyu mamont, bizon dəriləri ilə örtülmüş ona yaxın kiçik daxmalar var idi. Daxmaların qarşısında tonqallar yanırdı, qadınlar nəsə iş görür, uşaqlar qaçıb gülüşür və itlər hürürdü. Havadan tüstü, təzə çörək və qovrulmuş ət yeməyinin qoxusu gəlirdi.

Birdən bir sürü it bərkdən hürərək onlara tərəf qaçdı. Lakin Muru görəndə onların hədələyici hürməyi dayandı və itlər sevincək quyruqlarını bulamağa başladılar. Bəziləri Murun yanına qaçdılar, bəziləri isə qonaqlara yaxınlaşıb sonra geriyə qayıtdılar.

Qəbilənin yaşlı adamları qonaqları qarşılamağa çıxdılar. Hamını qucaqlayıb təntənəli salamladılar və sonra onları gölün

sahilinə apardılar. Oradakı böyük daxmanın qarşısında ocaq yanırdı və onun üzərində şişlərdə ət parçaları qızardılırdı. Qonaqların oturduğu daxmanın qarşısında yerə bizon dəriləri sərilmişdi. Aydın idi ki, qonaqların gəlişi bütün qəbilə üçün böyük hadisə idi, onların ətrafında kişi, qadın və uşaqlardan ibarət izdiham yaranmışdı. Bir neçə uzunömürlü və Rexav qonaqlarla yerə oturdular və daxmanın girişində dayanan iki gənc döyüşçüyə işarə verdilər. Gənc oğlanlar daxmanın girişini örtən pərdəni yuxarı qaldırdılar və gənc qızlar ortaya çıxdılar. Onlarin hər biri qollarında səliqə ilə otların üzərinə düzülmüş kökələr daşıyırdılar. Bu çox təntənəli və gözəl görünürdü. Qızlar kökələri qonaqların qarşısına qoyub camaatın arasında gözdən itdilər.

Xor adlı yaşlı rəhbər təntənəli şəkildə dedi: “Bizə ürəyimizcə əziz qonaqlar göndərən Tanrı, Sən xeyir-dualı və əbədisən. Bizim bir-birimizlə ünsiyyətimizə və bizə bəxş etdiyin ruzilərə xeyir-dua ver”.

Uzunömürlülər kökələri bölüb hər qonaq üçün süfrəyə qoydular. Yaşlı qadınlardan biri ocağın üzərində qovrulan ətdən xırda tikələr kəsib qonaqlara payladı. Aydın idi ki, bu qəbilənin özünəməxsus, çox aydın şəkildə qurulmuş qonaqpərvərlik qaydaları var idi.

— Bizim məkanımıza necə gəldiyinizi barədə danışa bilərsinizmi?

Dan lap əvvəldən başladı və nəyisə qısaltmaq istəyəndə yaşlı adamlar nəzakətlə hər şeyi danışmağı xahiş etdilər. Dan danışarkən onlara taxta qablarda ət və içkilər verildi.

Onlar yovşan, səməni dadı olan içkini heyvan dərisindən hazırlanmış tuluqlarda saxlayırdılar.

— Sizin qəbiləniz harada yaşayır? — yaşlı adamlardan biri soruşdu.

— Orada, meşənin arxasında. Buradan bizim qəbiləyə kimi dörd günlük yoldur. Biz çayın üstündə, böyük bir mağarada yaşayırıq — Dan dedi.

— Qəbiləniz böyükdür?
— Məncə, sizin qəbilənin yarısı qədər olar.
— Sizdə uzunömürlülər var?
— Bəli, bizdə yaşlı adamlar çoxdur.
— Sizin qəbiləyə kim rəhbərlik edir? Qərarları kim verir? — deyə Xor soruşdu.
— Qərarları bütün uzunömürlülərin və ağsaqqalların şurası verir.
— Bəs sizin rəhbəriniz kimdir?
— Rəhbərimiz Arun və Elin atası idi.
— Deməli indi sizsiniz? — Xor gülümsəyərək soruşdu.
— Bəlkə, mən hələ gəncəm. Amma qəbilənin adamları mənə güvənir — Dan utancaq halda dedi.
— Tanrı ilə sülh içində yaşayırsınız?
— Bəli, demək olar ki, qəbilənin bütün ailələri Tanrıya pərəstiş edir. Bizə adam öldürmək qadağandır, əks halda qararəngli olacağıq. Uzunömürlülər və Or bizə belə öyrədiblər.
— Or?
— Bəli, o bizim ən hörmətli uzunömürlüdür.
— Mən Oru tanıyıram. Onunla çox-çox illər əvvəl təbiətlə dinc yaşamaq istəyənlər yeni həyat tərzini öyrənərkən Böyük dənizin sahilində görüşmüşdük. Ataları qararənglilərin şəhər və qəsəbələrini tərk etmiş qəbilə ağsaqqalları oraya toplaşmışdılar. Mənim adım onunla eyni olduğu üçün bu adı xatırladım. Yalnız bizim qəbilədə mənim adım Xor kimi tələffüz olunur. Bu bizim Orla ortaq əcdadımızın adı idi və adlarımız oradan yaranıb. Ulu babamız qararəngililərin şəhərini tərk edən ilk adam olub, ona görə də onun nəsli bu adı daşıyır.
Or — ürəkdə günəş işığı mənasını verir. Qararənglilər ov yerlərimizin sərhədlərinə yaxınlaşdılar. Yaxşı ki, onlar üzməyi bacarmırlar, ona görə də biz hələ də təhlükəsizik — Dan əlavə etdi.

Amma onlar indi qayıqlar düzəldiblər — deyə An söhbətə qoşulmağa cəsarət etdi.

— O nədir? — deyə Xor öz sualı ilə Anın söhbətdə iştirak edə biləcəyini göstərərək soruşdu.

— Qayıqlar iyirmiyə yaxın döyüşçünün yerləşəcəyi və hətta dənizin o tayına üzə bilən taxta tikililərdir. Bir, iki və ya üç nəfərlik kiçik qayıqların necə düzəldildiyini sizə göstərəcəyəm — deyə An həmsöhbətlərinin heyrət içində olan üzlərini görəndə susdu.

— Bu o deməkdir ki… — deyə Dan sözə başladı.

— Çay qararənglilər üçün maneə deyil. Deməli, qəbiləniz təhlükədədir — An əlavə etdi.

Hamı susdu. Qonaqlarla ünsiyyətin sevinci bir anda yoxa çıxdı. Hamı bir müddət fikrə daldı. Sonra Rexav dedi:

— Mənimlə gəlin, sizə istirahət edəcəyiniz daxmaları göstərim. Çox yorulmamısınızsa və istəyirsinizsə, bizimlə ovda iştirak edə bilərsiniz. Axşam saatlarından sonra ova çıxacağıq.

— Bu nə ovudur? — Dan ayağa qalxaraq soruşdu.

— Kəşfiyyatçılarımız sizinlə qarşılaşdıqları istiqamətdə kiçik bir mamont sürüsü tapıblar. İndi onlar üçün keçid vaxtı deyil, ona görə də kifayət qədər uzağa getməli olacaqlar. Biz mamontları ətəyində dərin qayalıq olan o dağlara qovacağıq. Əgər ulu Tanrı istəsə, onlardan biri ora düşəcək və bizə qismət olacaq. Biz mamontları axşam şərqdən qovmağa başlayırıq ki, günəş onların gözlərinə düşsün və qaranlıqda uçuruma yuvarlansınlar.

— Biz məmnuniyyətlə sizinlə gedəcəyik. Silah götürməliyik? — Dan qəbilə yoldaşlarının heyranedici üzlərinə baxaraq dedi.

— Əlbəttə! Xüsusilə sabah ehtiyacınız ola bilər. Biz mamontları qovanda bir çox vəhşi heyvanlar da ovdan qazanc əldə etmək istəyir. Mamont ovuna iyirmi və ya otuz adam gedir. Çox ovçunun getməsi təhlükəlidir, bir-birinizi itirə bilərsiniz

və mamontlarla zarafat etmək olmaz. El evdə qadınlarla qalsa, daha yaxşıdır.

— Mən hər hansı bir döyüşçüdən heç də pis qaçmıram və məharətlə kamandan ox atıram! — El bir az əsəbi halda dedi.

Rexav təbəssümlə cavab verdi:

— Mənim heç bir şübhəm yoxdur. Ancaq biz qadınlarımızın qayğısına qalırıq. Onlar olmasa, biz nə edərik? Ovdan sonra qadınların ən azından iki gün işləri olacaq.

— Əlbəttə, biz sizin qəbilənizin adət-ənənələrinə hörmət edirik və El qadınlarla qalacaq. Bizim qadınlarımız kişilərlə bərabər ovda iştirak edirlər — Dan dedi və sərt şəkildə Elə baxdı.

El başını bir az aşağı salıb, razılaşaraq yüngülcə başını tərpətdi. Rexav onları mavi şəffaf suyu olan gölün sahilindəki daxmalara apardı və dedi:

— Budur, gəlib çatdıq. Təpələrin ətəyində yerdən bir neçə bulaq axır. Onlardan ikisindən soyuq, birindənsə isti su çıxır. İsti su mavidir, buna görə göl bu rəngdə görünür. Göldə çoxlu balıqlar var və bizim qadınlar onları tuturlar. Biz inanırıq ki, bu göldə üzənlər heç vaxt xəstələnmirlər.

Va, Arun və El bu sözlərə görə bir-birlərinə və sonra Dana baxdılar. Sadəcə gülüşdülər.

# Mamont ovu

Daxmalar alçaq və dar idi. Oraya yalnız beş nəfərdən çox adam əyilərək yerləşə bilərdi. Daxmalar mamont dişlərindən və müəyyən formada qurudulmuş budaqlardan hazırlanmışdı, üzərləri dəri ilə örtülmüşdü. Hər daxmanın torpaq döşəməsində nəhəng bizonun dərisi sərilmişdi.

Qonaqlar uzun müddət dincələ bilmədilər, çünki itlərin hürməsi, böyüklərin və uşaqların səsi ətrafı bürümüşdü və hamı mərkəzdə toplaşmışdı.

Məlum oldu ki, onlar elə mərkəzdə, camaatın toplaşdığı kiçik meydanın yanında yerləşirdilər. Ova gedənləri dərhal ayırd etmək olurdu, çünki onların geyimləri beldən aşağı idi və əllərində daş ucları olan nizələr tutmuşdular. Onların yanında böyük ov itləri var idi.

Qonaqlar da nizələrlə silahlanaraq hamının qarşısına çıxdılar. Lakin ova rəhbərlik edən Rexav gənclərə daha möhkəm nizələr verib dedi:

— Nizələriniz mamont dərisi üçün çox yüngüldür, ona görə də bunları götürün. İtlərinizi isə burada, Elin yanın-

da qoyun, çünki onlar mamont ovuna öyrəşməyiblər, ovda ölə bilərlər.

Xor yüksək səslə əllərini yuxarı qaldırıb dedi:

— İndi isə Tanrıdan bizə xeyir-dua verməsini xahiş edək. Ey Əbədi və ulu Tanrı, biz Sənə ibadət edirik, köməyimiz və mühafizəmiz Səndəndir. Bizi bağışla və bizə rəhm et, ovda bizə kömək et və bizi qoru. Arvadlarımıza, övladlarımıza ərzaq, əllərimizə güc, ayağımıza çeviklik ver.

O, bir neçə dəfə bəzi xahişləri təkrarlayaraq, ovçular bir dairədə dayandılar. Onlar ritmik olaraq, onun sözləri ilə nizələrini qaldırmağa və ayaqlarını yavaş-yavaş yerə vurmağa başladılar. Xor daha sürətli danışmağa başladı və dairədəki kişilər daha tez ayaqlarını yerə vurdular və sonra onlar günəş istiqamətində hərəkət etdilər. Ovçuların sözləri, ritmi və dairəvi rəqsi ətrafdakıların hamısına xoş təsir edirdi. Sonra Xor susdu, hamı dayandı və bir müddət heyranlıq içində qaldılar. Maral ovçuları əvvəllər belə bir şey görməmişdilər. Amma onlar da baş verənlərin təsiri altında idilər.

Rexavın əmri ilə ovçular yola düşdülər, əvvəlcə nizamsız tərzdə sonra isə tezliklə hamı sıraya düzülüb eyni sürətlə addımlamağa başladılar. Əzələli, saqqallı kişilər və cavanlar səhər səyyahların gəldiyi çığırla yola düşdülər.

Qonaqlar müşahidə etdilər ki, bəzi ovçuların yanında iki it, digərlərinin isə yanında bir it qaçaraq həmişə sahiblərinin yanında gedirlər. Onlar başa düşdülər ki, köçəri qəbilədə itlər hər ovçuya aiddir və yalnız onun əmrlərinə tabe olurlar.

Hamı cənuba doğru qaçırdı, bir müddət sonra qərbə dönüb qüruba enən günəşin işığı altında qaçdılar. Alçaq dağlar lap yaxın görünürdü. Sonra Rexav dayandı və dedi:

— Külək qərbdən əsir, mamontlar bizim burda olduğumuzu hələ hiss etməyiblər. Onlar o bağın arxasında otlayırlar. Bizim adamlardan hamımız kimin nə etməli olduğunu bilir, ona görə

də bunu yalnız qonaqlarımız üçün izah edirəm. İndi itlərə əmr verəcəyik, mamontların diqqətini bizə çəkmək üçün hürəcəklər. Amma biz onların birdən hürkməsinə yol verməməliyik. Mamontların başçısında narahatlıq yaratmaq lazımdır ki, qaçmaq əmrini versin. Hərəkət edəndə biz onları yarım halqa ilə əhatə edib səs-küyü artıracağıq, sonra onlar qaçacaqlar və biz onları təqib edəcəyik. Mamontlar insanlar kimi sürətlə qaçsalar da, lakin uzun müddət qaça bilmirlər. Bizlərdən qabaqda qaçanlar sağda, arxada qaçanlar isə solda mövqe tutacaqlar. Gəlin yerimizi tutaq! Mamontun ürəyi maralın ürəyi ilə eyni yerdə yerləşir. Bunu hər ehtimala qarşı deyirəm. Ümid edirəm ki, hər şey planlaşdırıldığı kimi gedəcək.

Ovçular yarımdairə şəklində cərgəyə düzüldülər, sol və sağ cinahlar arasındakı məsafə kifayət qədər böyük idi. Birdən Rexavın işarəsi ilə bütün itlər qəzəblə hürməyə başladılar və ovçular yavaş-yavaş ağacların arasındakı bağa doğru irəlilədilər. Ovçular sol tərəfdəki bağı tərk edərək, onun əks tərəfindəki düzənliyə çıxdılar və yavaş-yavaş alçaq dağlara qalxdılar. Mamont sürüsü sakit sürətlə ora doğru gedirdi. Onların sayı ona yaxın idi, iki erkək, üç dişi və dişləri hələ böyüməmiş bir neçə bala mamont sürünün mərkəzində gedirdilər. Ovçular ritmlə oxumağa başladılar: “Uh-ha, uh-ha”. Onlar ayaqlarını mamontların addımları ilə eyni zamanda yerə vururdular. Sonra ritmi bir az sürətləndirdilər, mamontlar ritmə tabe oldular, sonra ritm daha da sürətləndi və ovçuların bir qədər tükürpədəci nidaları ilə təhrik edilən sürü dağlara tərəf qaçırdı. Onlar xortumlarını yuxarı qaldırıb səs salırdılar.

İndi mamontların ritminə, səs-küyünə və xortumları ilə çıxardıqları səslərinə valeh olan qonaqlar bunun köçəri tayfa üçün nə demək olduğunu başa düşdülər. Hündür otların arasında uzun müddət qaçmaq çətin idi. Qonaqlar tez əldən düşdülər, yerli ovçular isə yorulmadılar.

Bir müddət sonra ovçular yarımdairəni daraldıb qaçmağı sürətləndirdilər. İtlər artıq qaçan mamontların düz ayaqlarının yaxınlığında hürürdülər, lakin onlara hücum etmirdilər. Onlara hücumu gücləndirməklə, hər şey tam əksinə olardı: mamontlar dönüb müdafiə mövqelərini tuta bilərdilər. Onda insanlar hər şeyi yenidən, yalnız başqa bir gündə və başqa yerdə mamontlara hücum etməli idilər. Lakin ov itləri onlardan nə gözlənildiyini bilirdilər və işlərini məharətlə yerinə yetirirdilər.

Birdən qarşıda bir çaşqınlıq yarandı və mamontlar sola, düz yarımdairənin sol cinahında qaçan bir neçə ovçuya tərəf qaçdılar.

— Biri qaçır! Biri düşdü! — deyə sağ tərəfdə qaçan ovçu qışqırdı.

Dərhal sol tərəfdə qaçanlar arxaya dönüb bütün sağ cinahın ovçularının artıq dayanıb aşağı uçuruma baxdıqlarını gördülər. Mamontlar gözdən itənə qədər uçuruma doğru qaçmağa davam etdilər. Bu vaxt günəş artıq dağların arxasında batmışdı və dərin daşlıq qayalıqda demək olar ki, tamamilə qaranlıq idi. Yalnız boz qayalardan bir qədər fərqli olan nəhəng tüklü mamontlar artıq uzaqda görünürdü.

— Hamımız dərəyə enirik. Oraya enmək üçün solda əlverişli yer var. Dərədə ocaq üçün odun hazırlamışdıq. Gecəni burada qalacağıq. Üç nəfər kəndə qaçıb uğurlu ov haqqında məlumat verəcək— Rexav əmr etdi və dərəyə enməyə başladı.

Dərənin kiçik bir kanyon olduğu ortaya çıxdı. Rahat bir cığır, əyri yollarla aşağı enirdi, qaranlıqda gurultu ilə axan çayın yaxınlığında bitirdi. Cığırın yanında dişləri göyə yönəlmiş nəhəng tüklü mamont cəsədi uzanmışdı.

Rexav yıxılan nəhəngə yaxınlaşıb var gücü ilə nizəsini mamontun sol qabaq ayağına vurdu. Nizəni çıxaranda yaradan qan axdı. Rexav və onu əhatə edən ovçular əllərini göyə qaldırdılar və Rexav dua etməyə başladı:

— Əbədi Tanrı, Sənə təşəkkür edirik! Dualarımızı eşitdin və ovda bizə uğur verdin. Qurbanımızı, yerdəki mamontun qanını Sənə həsr edirik, qəlblərimizin qaranlığını bağışla, bizə nurda yaşamağa kömək et.

Sonra Rexav bir neçə ət parçasını kəsib itlərə yedizdirdi. Onlar buna layiqdirlər və dərhal mükafatlarını almalıdırlar.

Bir neçə ovçu od qalayıb gecələmək üçün yer hazırladı. Amma heç kim yatmaq istəmirdi, hamı həddən artıq həyəcanlı idi. Alovun ətrafında hamı oturub susdu. Yalnız ovdan layiq olduqları payı yeyən itlərin mırıltısı və gecə quşlarının nəğməsi eşidilirdi. Ay kanyonun kənarından çıxdı və onun zəif işığı dərənin dibinə düşdü.

Va arxası üstə uzanaraq əllərini başının arxasına qoyub aya baxırdı. O, həmişə ayda qaranlıq ləkələrin olması ilə maraqlanırdı, lakin heç kim ona bunu izah edə bilmirdi. Va düşünürdü ki, dünyada hələ bilmədiyi maraqlı şeylər çoxdur. O, yuxuya getdi, yuxuda meşəni və qardaşını gördü.

— Oyan, nə qədər yatacaqsan! Qadınlar artıq aşağı düşürlər — qardaşı onu yan tərəfə itələdi.

Va Eli gördü. Qızın saçları başının arxasına toplanmışdı, at quyruğuna bənzəyirdi və qız yeridikdə saçları ora-bura yellənirdi.

# Qayıq

Vurulmuş mamontun ətini doğramaq üçün bütün ertəsi gün və daha yarım gün çəkdi. İşin çoxunu qadınlar edirdi. Kişilər əsasən sadəcə bişmiş əti yaşayış məskəninə aparırdılar. Qadınlar iri ət tikələrini qızardıb dəri torbalara yığırdılar və sonra üstünə ərinmiş yağ tökürdülər. Belə bişmiş ətlərlə dolu çoxlu tuluqlar var idi.

— Ət kifayət qədər uzun müddət, xüsusən ərimiş yağa duz və sarımsaq əlavə etməklə saxlanıla bilər. Bizdə həmişə duz olmur. Bir neçə ay əvvəl bizi ziyarət edən qonaqlarımız bizim üçün hədiyyə olaraq bir torba duz qoyub getdilər. Onlar duzu cənubun hansısa bir yerindən özləri üçün aparırdılar. Beləcə, Əbədi Olan bizə bol xeyir-dua verdi — deyə Rexav Dan və Vaya izah etdi.

— Sizinlə görüşməyimizə, ovda iştirak etməyimizə və təcrübə qazanmağımıza görə çox şadıq. Çox sağ olun! Ancaq sabah səhər, şehdən dərhal sonra yolumuza davam etməliyik. Artıq çox vaxt itirmişik — Dan dedi.

Onlar qonaq daxmalarının yanında dayandılar.

— Yaxşı. Biz sizi yolunuzdan saxlaya bilmərik. İndi isə səyahətə hazırlaşmalısınız, uzun səfərdən əvvəl yaxşıca dincəlməlisiniz. İstədiyiniz və daşıya biləcəyiniz qədər ləvazimat götürün — onlara yaxınlaşan Xor dedi.

Dan etiraz etməyə çalışdı, lakin Xor əlini sərt şəkildə qaldıraraq davam etdi:

— Siz təkcə bizim qonağımız deyilsiniz, qənimətin bir hissəsinə də haqqınız var. Sizinlə olan qız isə nəinki faydalı bir şey öyrəndi, həm də qadınlara yaxşı kömək etdi.

Yatmazdan əvvəl səyahətçilər növbəti planlarını müzakirə etmək üçün bir daha toplandılar.

— Biz çaya çatanda bundan sonra hansı yolla gedəcəyimizə qərar verməliyik. Bizə tapşırıldı ki, axın ilə beş gün aşağı məsafə qət etməkdənsə çaydan yarım günlük məsafədən çox da uzaq olmayan bir mağara tapaq — Dan dedi.

— Mən bu çayın aşağı axını ilə aşağı getməyi təklif edirəm, bax buranı deyirəm. Rexav və Xorun dediyinə görə, buradan mağaramıza təxminən beş günlük yoldur. Buradan çay boyu yuxarı qalxaraq qararənglilərin arxasınca meşəyə döndüyümüz yerə gedək — Va əlinə bir budaq götürdü və yerdə çəkməyə başladı.

— Təklif çox ağlabatandır — deyə Arun dostunu dəstəklədi.

— Əgər biz qərar versək... — deyə An başladı, amma hamının necə gülümsədiyini görüb susdu.

— Davam et, davam et! Biz sadəcə “biz” dediyin üçün şadıq — deyə Dan utandığından qızarmış Anı həvəsləndirdi.

— Beləliklə, çayın aşağı axınına getməyi qərara alsaq, bir qayıq düzəltməyi təklif edirəm. Bunun nə olduğunu artıq söylədim. Axın istiqamətilə aşağıya üzsək, bu həm səyahətimizi sürətləndirəcək, həm də asanlaşdıracaq — An dedi.

— Yaxşı. Yalnız bu dəfə belə edərik. Qoy qəbilə ağsaqqallarının şurası qərar versin ki, biz qararənglilərin qayıqları kimi

qayıqlar düzəldək, yoxsa yox. Bunun üçün bizə nə lazımdır? — Dan qərar verdi.

— Köçərilərdən nazik xam dəri kəmərlər istəyin. Onlarda bu kəmərlərdən çoxdur — An dedi.

— Başqa hansı təkliflər olacaq? — Dan soruşdu və daha heç kimin sualının olmadığını görüb gecəyə hazırlaşmağı xahiş etdi.

— Bu dəridən olan yuvada yatmaq çox çətindir. Mənə elə gəlir ki, yuxuya gedəndə mağaranın tavanı üstümə düşür — deyə Arun gileyləndi.

— Bir az səbirli ol. Tezliklə biz rahat və geniş mağarada gecələyəcəyik — El qardaşını əmin etdi.

Səhər tezdən günəş təpələrin zirvələrini təzəcə işıqlandırıb səmanı qızılı işıqla dolduranda səyahətçilər artıq qonaqları yola salmağa toplaşan ovçuların, qadınların və uzunömürlülərin qarşısında dayanmışdılar.

— Qoy Tanrı hər gün sizinlə olsun! Bizdən Ora salam deyin! Gördüyünüzü və eşitdiyinizi, onun gözəl övladları ilə tanışlığa görə çox şad olduğumu ona deyin — Xor Eldən başlayaraq Danla bitən cərgədə hər birini qucaqlayaraq onlara xoş sözlər arzuladı.

Sonra o, qonaqların təəccüblü üzlərini görərək əlavə etdi və izah etdi:

— Uşaqlar təkcə nəslindən olan övladlar deyil, həm də ruhən övladlardır. Mən əmin oldum ki, siz onun ruhunun övladlarısınız.

Səyyahlar qonaqpərvərliyə görə təşəkkür edərək, kürəklərinə kaman və oxlar olan çantaları bağlayıb nizələrini əllərinə aldılar. Bu günlərdə artıq bir neçə dəfə keçdikləri təpələr arasındakı çuxur boyunca nizamlı addımlarla irəlilədilər. Sonra qonaqpərvər mamont ovçuları ilə vidalaşdılar. Yalnız An Rexavın ona verdiyi iri nizəni iki əli ilə qaldırdı və buna görə ona bir daha təşəkkür etdi. O, indi köçəri qəbilənin ovçusu

kimi geyinmişdi. O, dizlərinə qədər, sol çiynini örtən və sağ çiynini açıq saxlayan tüklü dəri geyinmişdi. Geniş kəmərdəki qında bir daş bıçaq və ocaq qalamaq üçün əşyalar olan bir çanta asılmışdı. Bütün bunları Rexav təşkil etmişdi.

Qonaqpərvər insanların yaşadığı dərəyə son dəfə baxıb onlar düzənliyə enməyə başladılar. Səyyahlar heç bir əmr olmadan adi cərgədə düzülüb sürətlə addımladılar. Belə sürətlə onlar gecə-gündüz, istirahət etmədən yeriyə bilirdilər. Amma bu gün o qədər də uzağa getməyə ehtiyac yox idi. Günortadan sonra onlar artıq çayın sahilində, köçəri qəbiləsinə tərəf döndükləri yerdən xeyli aşağı yerdə idilər.

— O qamışlıqları görürsünüz? Dibində barmaq kimi qalın olan ən hündür, ən qədim gövdələri kəsib bura gətirin. Sizə kifayət qədər çox qamış lazımdır. Sən isə, Dan, ucları haçalanmış belə budaqlar axtara bilərsən. Haçalanmış budaqları kəsib yonsan, şorbanı qarışdırmaq üçün böyük bir qaşıq əldə edərik — deyə An göstəriş verdi.

O, şorba və ya qaşığın nə olduğunu bilməyən Danın təəccüblü üzünü görüb əlini göstərdi:

— Avar çəkməyə ehtiyacımız olacaq, amma bunu əlimizlə deyil, avarla edəcəyik. Bu, böyük bir əl kimidir, yalnız ucu daha uzun və genişdir.

— Başa düşdüm. Sən deyən kimi edərəm — Dan dedi.

Dan dörd avar düzəltməklə məşğul olarkən, An və El geniş bir sahəni ot və kollardan təmizlədilər, Va və Arun yığılmış qamışları bir yerə topladılar.

— El, qamışları yarpaqlardan təmizləyib bura yerləşdirmək lazımdır. Bu arada, mən nazik ağaclardan dörd eninə və dörd uzununa dirəklər hazırlayacağam ki, qamışları bağlayaq — An dedi.

Avarlar, dirəklər və qamışlar hazır olduqdan sonra An qamışları dörd yığına düzdü: ilk ikisində — nazik ucları olan-

lar bir istiqamətdə, ikinci yığında — nazik ucları olanlar əks istiqamətdə idi. Bundan sonra qamışın gövdəsi qalınlığından asılı olaraq altı və ya on hissədən ibarət dəstələrə bağlandı.

Hər şey eninə və uzununa dirəklərə bağlanmağa başlananda, qamış yığını müəyyən bir forma aldı. Qayığın burnu əyilmiş, arxa tərəfi isə enli və həm də yuxarı qalxmışdı.

Hər kəs öz əl işinə heyran olmaq üçün bir az kənara çəkiləndə kifayət qədər böyük bir tikili gördülər. Onun uzunluğu on beş qulac, eni isə beş qulac idi. Hündürlüyü isə üç qulac idi. Eninə və uzununa dirəklərin üstünə daha iki dəstə qamış bağlanaraq yan hissələri düzəltdilər.

— Bu qayıqdır. Hətta onun üzərində dənizi keçə bilərik — An məmnun təbəssümlə dedi.

Hamı təəccüblə onun sözlərinə qulaq asdı və qayığın ətrafında gəzərək onu hər tərəfdən gözdən keçirdi.

Qararənglilər qamışdan belə qayıqlar düzəldirlər, lakin onların qayıqları bundan beş dəfə böyükdür. Amma vuruşmaq üçün onlar özlərinə mişarlanmış taxtalardan qayıqlar düzəldirdilər. Biz artıq yola düşə bilərik — An izah etdi.

— Gecə burada qalaq, yoxsa Anın sənət əsərinə etibar edək? — Dan hamının fikrini bilmək istəyirdi.

— Mən qardaşıma güvənirəm — deyə ilk cavab verən Va oldu.

— Mən getməyin tərəfdarıyam. Qararənglilərin harada olduğunu bilmirik. Çayda olmaq daha təhlükəsizdir — deyə El onu dəstəklədi.

— Mən də bunun tərəfdarıyam. Qayığı özümüz düzəltdik — deyə Arun dostlarına qoşuldu.

— Onda vaxt itirmək lazım deyil. Günəş artıq üfüqə enir — Dan qərara gəldi.

Onlar qayığın burnuna uzun qayış bağladılar və qayığı suya itələməyə başladılar. Qayıq tamamilə suya girəndə, suyun səthində hava ilə doldurulmuş bir çanta kimi dayandı. Bütün

çantalar, silahlar sonra itlər qayığa köçürülənə qədər An onu tutub saxladı, bunu etmək o qədər də asan deyildi. Sonra Andan başqa hamı oraya dırmaşdı, o, axırıncı mindi və qayığın axına yönəlməsi üçün avarla sükanı sahildən uzaqlaşdırdı.

— İndi elə oturmaq lazımdır ki, ikisi solda, ikisi sağda avar çəkə bilsin — An dedi.

An və Dan qabaqda, Va və Arun isə onların arxasında oturdular.

— Əlimizlə suyu itələdiyimiz kimi avarları suya batırın, eyni qaydada sakitcə avar çəkin. Avarı yüksəyə qaldırmağa ehtiyac yoxdur. Kiminsə daha az və ya daha tez avar çəkməsi lazım olsa, mən deyəcəyəm. Beləliklə, biz qayığı çayın ortasında saxlaya bilərik və ya istədiyimiz yerə yönəldə bilərik — An sakitcə izah etdi, hər şeyi əllərinin və ya avarın hərəkətləri ilə nümayiş etdirdi.

Səyyahların buna alışması çox vaxt çəkmədi və qayıq əminliklə çayın aşağısına doğru irəlilədi.

# 12-ci fəsil

# İzləmə

Axşam düşdü və qaranlıq oldu. Yüngül qayıq ay işığında su üzərində səssizcə üzürdü. An arxa tərəfdə oturdu və avarla qayığı idarə etdi. Qalanları paltarlarını geyinib çantalarından ləvazimat götürdülər. Onlar həqiqətən ac idilər. İtlər dərhal hərəkət etməyə başladılar, lakin bundan əvvəl onlar qayığın ortasında, Va və Dan arasında sakitcə uzanmışdılar. Yeyib-içəndən sonra hamı dincəlmək üçün uzandı. Va qardaşına yaxınlaşdı.

— Mənə şəhər haqqında danış — Va dedi.

— Bunun üçün hələ çox vaxtımız olacaq. Bu barədə sənə sonra danışa bilərəmmi? — An cavab verdi.

— Yaxşı. Anladım — Va bildirdi.

— Yaxşı olar ki, sən özün haqqında mənə danışasan — An əlavə etdi.

— Mən kəndə qayıdanda bütün sakinlərin və valideynlərimizin öldürüldüyünü görəndə çox kədərləndim. Əvvəl ağladım, sonra hirsləndim. Kəndimizi tapan ovçular məni öz qəbilələrinə qəbul etdilər. Onlar da bizim tayfamız kimi təbiətlə

və Tanır ilə sülhdə yaşayırlar. Amma onların, daha doğrusu, indi bizim hamıya rəhbərlik edən və mühüm qərarlar qəbul edən uzunömürlü insanları var. Or məni himayəyə götürdü, o bizim başçımızdır...

El qardaşların söhbətinə qulaq asdı, ürəyi ılıq bir sevgi ilə doldu. O, həqiqətən də Vanı qucaqlamaq və heç vaxt buraxmaq istəmirdi. Vanın səsinə qulaq asaraq, onların birlikdə ova necə gedəcəklərini, Orun onlara xeyir-dua verəcəyini, mağarada necə yer alacaqlarını təsəvvür edirdi. Bu fikirlərlə o, yuxuya getdi.

El ürəyində narahatlıqla yuxudan oyandı. Eşitdiyi ilk şey itlərin sakit hürməsi oldu. Qayıq sol sahilə yan almışdı, qardaşlar bir-birinə tərəf başlarını əyərək sakitcə söhbət edirdilər.

Sonra An və Va örtüklərini kənara qoyub sakitcə suya düşdülər. Bir az sonra onlar artıq gözdən itdilər.

— Qarşıda, çayın bu sahilində alov gördük. İndi An orada kimin olduğunu öyrənəcək. Əgər onlar qararənglilər olsalar, vəziyyəti daha yaxşı öyrənəcə biləcək. Va hər ehtimala qarşı onunla getdi — deyə Arun bacısına pıçıltı ilə izah etdi.

Vaxt çox üzücü keçirdi. Ay artıq səmanın ikinici yarım qövsünü keçmişdi ki, irəlidə bir səs-küy yarandı, alovun işığı daha da parlaqlaşdı və bir neçə məşəl çay sahilinə doğru hərəkət etdi.

Qısa müddətdən sonra qayığın yanındakı sudan iki qara baş çıxdı. Hamı rahat nəfəs aldı. An qayığa minmədən pıçıltı ilə xəbər verdi:

— Biz öyrəndik ki, onlar mənimlə birgə olan həmin qararənglilər dəstəsidir. Amma onların sayı iki dəfə çoxdur. Hələ də bizi axtarırlar. Söhbətlərini eşitdim. Mənə elə gəlir ki, kiminsə onları izlədiyini düşünürlər!

— Nə edək? — Va Dandan soruşdu.

— Qayığa min. Ancaq sakit ol — Dan dedi.

— Mümkün qədər sağ sahilə doğru hərəkət etsək, onların yanından gizlicə keçə bilərik — An dedi.

Dan şübhə ilə başını tərpətdi. Amma bundan yaxşı təklif yox idi.

— Biz bunu edəcəyik. Ancaq onlar sakitləşənə qədər bir az gözləyəcəyik — An və Va yüksək səslə cırıltılı qayığa minib avarları götürəndə Dan dedi.

— Onlar sahil boyu bizim istiqamətimizdə getsələr, onda bizi mütləq görəcəklər — deyə An yenidən etiraz etdi.

— Yaxşı, onda gəlin hərəkət edək — Dan razılaşdı, tam sükut əlaməti olaraq itlərin ağızlarını yüngülcə sıxdı, avarını əlinə alıb avar çəkməyə başladı. Qayıq çox rahat hərəkət etdi və bir neçə dəfə avar çəkdikdən sonra az qala çox sıx bitən qamışlıq koluna çırpılacaqdı. Qayıq artıq demək olar ki, tonqal ilə üzbəüz idi. Tonqal qayıqla qararənglilər arasında olan nəhəng, səpələnmiş söyüdlərin arxasındakı kiçik dərədə yanırdı.

Gənclər avar çəkməyi dayandırdılar. Yalnız An arxadan yavaşca suya endirdiyi avarıyla qayığa istiqamət verdi. Hamı qayığın içində uzanıb gərgin halda gözləyir və düşünürdü: “Görəsən, qararənglilər bizi görəcəklər, ya yox”.

Qarşı sahilə qədər olan məsafə təhlükəsiz deyildi. Nizə atmaq üçün çox uzaq idi, lakin təcrübəli ovçu və ya döyüşçünün əlindəki yay üçün onlar asan ov ola bilərdi.

Qayıqda olan hər kəsə elə gəlirdi ki, vaxt dayanıb, ona görə də sahildəki alov yavaş-yavaş onlardan uzaqlaşdı, ətrafda bir neçə nəfərin siluetlərini gördülər. Onların yalnız bir neçəsinin olması arxayınçılıq yaradırdı ki, bu da qalanların yatdıqlarını bildirirdi. Bu vaxt qayıq səssizcə təhlükəli yerdən keçdi. Yaxınlaşanda gördülər ki, buradakı çay iki qola bölünüb. Onların düşünməyə vaxtı yox idi, An qayığı sağa sürdü. Bu qol olduqca dar idi və getdikcə daraldı. Beləliklə, qayığın yanları az qala burada da çox qalın bitən qamışlara toxundu. Onlar

narahat oldular. Sanki tələyə düşmüşdülər. Qayıq qısa qamışların üstündən keçdi, hündür qamışları əydi və qayıq tamamilə kollara ilişdi.

— Sübhə qədər burada qalacağıq. Hamı, istirahət etsin. Növbə ilə keşik çəkəcəyik. Arun birinci oyaq qalan keşikçi olacaq — deyə Dan qərar verdi.

Onlar səslərdən oyandılar. Artıq səhər idi. Va bu vaxt növbədə idi. O, barmağını dodaqlarına basaraq, tam sükutun qorunub saxlanılması lazım olduğunu göstərirdi. Sonra yenə əllərini itlərin boynuna qoydu. Hər iki sahildən səslər eşidildi.

— Gecə yanımızdan keçsəydilər, ya onları görərdik, ya da onlar çayda olardılar. Onlar haradasa burada olmalıdırlar — xırıltılı bir boğuq səs eşidildi.

— Əgər onlar burada olsaydılar, biz onları artıq tapardıq. Hər iki sahili gəzdik — deyə ikinci daha gənc bir şəxsin səsi eşidildi.

— Onlar buradadırlar! Axına doğru yuxarıda onların izləri tamamilə aydın idi. Kəşfiyyatçılarımız tikilən qayığın izlərini görüblər — birincisi əminliklə dedi.

— Axı bu vəhşilər qayıq tikməyi bilmirlər! — gənc yenə etiraz etdi.

— Hesab edirəm ki, An onlarladır…

— Ola bilməz…

Səslər yavaş-yavaş uzaqlaşdı. Birdən o istiqamətdə vəhşi heyvanın pəncəsinə düşmüş adamın qulaqbatırıcı qışqırığı və ürək parçalayan fəryadı eşidildi. Bir neçə nəfər sahilboyu o tərəfə qaçaraq həyəcanla dəstəni səsləyərək qışqırdı, bunu çətinliklə ayırd etmək olardı.

Nərilti bir daha təkrarlandı, sonra hədələyici uğultuya çevrildi. Bu nərilti ovçulara tanış idi.

— Uzundişli! Hazırda onlar ov edirlər. Sakit! Mənə elə gəlir ki, qararənglilər qayıdırlar — deyə Dan pıçıldadı.

— Mən dedim ki, geri qayıtmağın vaxtıdır. İndi biz daha iki nəfəri itirdik — o səs yenidən eşidildi, onlar bu səsi gənc adamın səsi kimi müəyyən etdilər.

— Kəs səsini! Amma düz deyirsən, geri qayıtmağımızın vaxtıdır — hökmlü bir səs onun sözünü kobud şəkildə kəsdi.

Səslər kəsiləndə qayıqda olanlar sol sahilə doğru irəliləyən avarların səs saldığını eşitdilər.

— Onlar da qayıq düzəltdilər. Amma bizimki qədər böyük deyil, yalnız iki avarın səsi eşidilirdi — An dedi.

— Uzundişlinin hücum etdiyini saymasaq, onlar təxminən beş nəfər idi — Va bildirdi.

— Hökmlü səsi olan bizim rəhbərimiz idi, yaşca kiçik olan gənc isə mənim kimi, ilk dəfədir ki, yürüşə çıxır. Amma öldürməkdən həzz alır. Ən azından ilk qurbanını səbirsizliklə gözləyirdi. El ilə hər şey sadə idi — An dedi.

— An, məni öldürmədiyin üçün təşəkkür edirəm — Elin səsində istehza deyil, amma onun həqiqətən minnətdar olduğunu hiss olunurdu.

— Bu nə deməkdir? — Arun və Va bir səslə soruşdular və bir-birlərinə belə baxmadılar. Adətən eyni fikirlərə sahib olduqda və ya bir şeyi eyni anda söylədikdə bu baş verirdi.

— Gecə hücuma məruz qalanda mən oxumla kamanımı götürməyə fürsət tapdım və qararənglilər itimlə döyüşərkən ağacdan tullanıb kolluğa qaçdım. Amma mən qararənglilərin gəldiyi yola düşdüm. An yolun üstündən əlində bir nizə dayanmışdı. O, çox böyük və qorxulu görünürdü. Amma bir az tərəddüd etdi və mənə nizə atmadı. Mənsə yayımı çəkib atdım. Bu zaman məni arxadan tutub əl-ayağımı və ağzımı bağladılar — El dedi.

— Nə baş vermişdi? — Va qardaşından soruşdu.

— Bütün dəstəmiz tək adama hücum edəndə mən bu işdə iştirak etmək istəmədim və qəsdən geri qaldım. Sonra dağınıq

saçlı belə cəsarətli bir qızın hücumuna məruz qaldım. Ürəyimə nişan alsa belə, ona nizə ata bilməzdim.

— Əgər ürəyi nişan alsaydım, onu vurardım! Haranı nişan aldımsa, oraya da dəqiq vurdum. Biz insanları öldürmürük! — El etirazla dedi.

— Sən az qala qardaşımı öldürəcəkdin! — Va zarafatyana dedi.

— Ancaq o özünü mənə təqdim etmədi — deyə El eyni tonda cavab verdi.

— Hər şey aydındır! Qararənglilərin gedib-getmədiyini görməliyik. Görəsən, biz qararənglilərin tələsində deyilik. Qayıqda qalmağımız bundan asılıdır — Dan onların söhbətinə müdaxilə etdi.

— Mən onların harada olduğunu yaxşı bilirəm və söyüdlər tərəfdən üzərək onlara yaxınlaşa bilərəm. Ancaq deməliyəm ki, bu tələ deyil, etibarlı sığınacaqdır. Əgər sahilə yaxın olsaydıq, onların kəşfiyyatçıları bizi tapardılar, əgər çayın sol qoluna keçsəydik, onlardan yan ötərdik, lakin onlar axtarışa çıxanda bizi yaxalayardılar. Beləliklə, Tanrı ən təhlükəsiz sığınacaq tapmağımıza kömək oldu — Va dedi.

— Sən haqlısan. O bizə kömək etmək üçün uzundişli heyvanı da göndərdi. Yaxşı. Va, sən get öyrən. Biz gözləyəcəyik — Dan dedi.

Va dayaz suya girdi, ancaq palçıq və lili qarışdırmamaq üçün suyun dibi ilə getmədi, ancaq qamışları diqqətlə ayıraraq üzdü.

Va tezliklə qayıtdı. Onun məmnun üz ifadəsi var idi və qayığa minib yüksək səslə elan etdi:

— Qararənglilərin qayığı tonqallarında yanırdı. Onlar çıxıb gedəndə qayığı tonqala atdılar. Mən sahilə çıxdım və onların uzun bir cərgədə cənub-şərqə doğru getdiklərini gördüm.

— Onların şəhəri oradadır. Onlar evə qayıtdılar — An dedi.

# Qamış dənizi

— Bax, irəlidə çay bir neçə adaya axır və çox genişlənir! — Arun təəccüblə səyahətçilərə açılan mənzərəyə baxdı.

— Gəlin sağ sahilə enək. Ora çox hündür qayalıqdır, görək yuxarıda nə var — Dan dedi.

Qayıq suyun səthi ilə asanlıqla üzdü və sakitcə sahilə tərəf döndü. Hamı sahilə düşüb qayığı bağlayanda itlər qumlu sahildə qaçmağa başladılar. Dar bir qum zolağından kənarda sahil sıldırım qayalarla əhatə olunmuşdu və orda çiçəkli kollar var idi.

Bütün dəstə silah və itləri götürərək dik yamaca dırmaşmağa başladı. Onlar hərdən yasəmən, yemişan kollarından yapışıb özlərini yuxarı dartmalı olurdular. Yüksək zirvəyə birinci itlər dırmaşdılar. Digərləri ora çatanda qarşılarında min addım enində geniş yayla açıldı. Arxasında geniş çay görünürdü və uzaqda qüdrətli çayın sağ sahilini təşkil edən alçaq mavi dağlar var idi. Yayla çayların qovşağına qədər aşağı enirdi, əsl qamışlıq başa çatırdı. Bu məkan bir-birindən kanallarla ayrılmış bir çox adalara bölünmüşdü. Sağ tərəfdə yayla genişlənirdi və dağ silsiləsinə qalxırdı.

— Biz çayın qovuşduğu yerə gəldik və həmin çayla buraya üzdük. Çay böyük dənizə açılır. Or bunun haqqında bizə danışırdı. Xor da o barədə xatırladı. Bu dağlarda, əminəm ki, biz bir mağara tapa bilərik. Mağaranı dağların o tərəfində tapsaq, tayfamızdan cənuba üç-dörd günlük yol olacaq — Dan dedi.

— Artıq axşam düşür. Mən sizə burada dayanmağı təklif edirəm. Gecəni qayıqda keçirə bilərsiniz. Bu, həm daha rahat, həm də daha təhlükəsizdir. Sabah isə dağlara doğru gedəcəyik — An təklif etdi.

— Biz qayığı yarısı suda olan söyüd ağacına bağlayacağıq. Artıq nahar üçün təzə bir şey bişirməyin vaxtıdır, əks halda yemək tədarükümüzdən istifadə edəcəyik — Dan dedi.

— Bəlkə balıq tutaq? — Arun təklif etdi. Yanımda balıq tutmaq üçün hər şey var, balıqlar isə çayda ora-bura tullanırlar.

Çayın üstündə ora-bura tullanan balıqların sıçrayışları eşidilirdi. Sahilə yaxın iri sazanlar və çəki balıqları üzürdü. Çayda həqiqətən çoxlu balıq var idi.

Arun çantasından nazik, gərilmiş və qurudulmuş iplərdən hazırlanmış bir kələf çıxardı. Ucunda möhkəm sümükdən oyulmuş, dişcikli böyük bir qarmaq bağlanmışdı və bir az yuxarıda ortasında deşik olan kiçik bir daş var idi. O, bambukdan özünə çubuq kəsərək, ona ip bağladı. Sonra suya girdi və qamışlıqda nəsə axtarmağa başladı. Sahilə bir neçə balıqqulağı çıxaran Arun onlardan birinə ət qoyub qarmağa keçirdi və qayığın arxa tərəfində oturaraq tilovunu suya atdı.

Arun çox gözləməli olmadı. Qısa müddətdən sonra o, dirsək uzunluğunda bir sazan balığı tutdu. Sonra sudan bir başqasını da çıxardı. Sahildə ocaq alovlanırdı və söyüd budaqları hazırlanırdı. O, ləzzəti yeməyi səbirsizliklə gözləyən dosları üçün balıq tutdu.

El balığı məharətlə təmizlədi, duz sürtüb içinə göyərti və bir az kökümsov bitki, sarımsaq doldurdu və onu söyüd budaqlarına keçirtdi.

İtlər təzə balıqları göyərtisiz və kökümsovsuz xoşlayırdılar. İtlər bir balığı yeyərək orada uzanıb dincəlirdilər.

Axşam yeməyi bitəndə və hamı qayığa minəndə artıq tamamilə qaranlıq idi. Sönməkdə olan alovun yanında sahildə yalnız uzanmış itlər qalmışdı. Səyyahlar qarovul növbəsində dayanaraq, gecə qayıqdan alovu uzaqda saxlamaq qərarına gəldilər. Həmişə olduğu kimi, yatmazdan əvvəl Əbədi Olandan onları qorumasını istədilər və gündüzlər onları qoruduğuna görə Ona təşəkkür etdilər, Cənnətə tərəf əyilib səcdə etdilər.

— Gəl, söhbətimizlə başqalarını narahat etməmək üçün ocağın yanında oturaq. Əvvəlcə mən, sonra sən növbətçi olacaqsan — Va dedi.

Qardaşlar silahlarını götürüb suya düşdü, sahildən bir neçə addım irəli addımladılar. Ocağın yanında oturub söhbətlərini davam etdirdilər, onların danışacaqları çox şey var idi.

Balıqların hələ də sıçradığı çayın sakit suyunu işıqlandıran ay çıxdı. Bir müddət sonra itlər narahat oldu. Onlar səs salaraq sahiblərinə yaxınlaşdılar. Va əvvəllər itlərdə belə hərəkətlər görməmişdi.

Birdən çay istiqamətində qəribə bir səs eşidildi, sanki bir nəhəng suyda yeriyirdi. Nəhəngin* bədəninin yarısı suda gizlənmişdi, onun uzun boynu var idi.

Müqəddəs Kitabda onların müxtəlif növləri qeyd edilib.

Sonra yaxınlıqda ikinci nəhəng heyvan göründü, bu o birisindən kiçik idi. Onlar qamış kollarının yanında göründülər. Heyvanlar alova və onun yanında oturanlara fikir verməyərək çayı üzüb yuxarı qalxırdılar. Onların yaratdığı dalğalar qayığı tərpətdi, hamı yuxudan ayıldı. Uzanmış ağac kimi nəhəng quy-

---

**Dinozavrlar barədə Müqəddəs Kitada rast gəlinir. Əyub 40-cı fəsilə baxın.*

ruqları arxalarında suyu köpükləndirirdi. Nəhənglərin boyunları və başları böyük ilanlara bənzəyirdi.

— Mən əvvəllər belə nəhəng heyvanlar görməmişdim — Va səsi titrəyərək dedi.

— Onlar zərərsizdirlər. Ot, qamış və ağac yarpaqları ilə qidalanırlar. Onlar o qədər böyükdürlər ki, demək olar ki, yaşadıqları suları və bataqlıqları tərk etmirlər — deyə An cavab verdi.

— Sən başqalarını da görmüsən?

— Bir dəfə. Biri şəhərimizdən çox da uzaq olmayan sahilə gəlmişdi. O, timsah kimi görünürdü, amma daha böyük idi. Bütün şəhər onu görməyə getdi. O, yaralanmışdı və sonra öldü. Quşlar və vəhşi heyvanlar onu yeyənə qədər ərazidəki üfunət qoxusu dəhşətli idi. Qayıqla dənizə çıxanlar isə dənizdə belələrinin çox olduğunu deyirlər. Onlar balıq, delfin və onlardan kiçik olan digər canlılarla qidalanırlar.

— Bu nə idi? — qayıqdan Arunun səsi eşidildi.

— Böyük heyvanlardır. Ancaq onlara toxunmasanız, zərərsizdirlər — An cavab verdi.

— Bizim uzunömürlülərimiz deyirlər ki, Qatran dağlarının hündürlüyündə quşlar kimi uça bilən böyük heyvanlar var. Onlar quşlara bənzəyir, lakin lələk əvəzinə qalın dəriyə malikdirlər və dimdik yerinə nəhəng, dişli ağızları var — Dan dedi.

— Qorxuncdur! Gör həyatda nələr var! — Va qışqırdı.

— Düşünürəm ki, buralar bizim gördüyümüz qamışlıq və adalar deyil, heyvanların gəzdikləri və ya üzdükləri yerlərdir — An dedi.

— Burada belə heyvanlar yaşayırsa, deməli burada insanlar yaşamır. Məncə, bura uzun müddət məskunlaşmaq, sadəcə mağara tapmaq üçün yaxşı yerdir — deyə Va razılaşdı.

— Görək dağlara səyahətimiz bizə nə göstərəcək.

— Ah, təbiətlə və Tanrı ilə sülhdə yaşamaq necə də yaxşıdır! — Va ocağın yanında uzanaraq dedi.

İtlər sakitləşdi, başlarını pəncələrinə qoyub gözlərini yumdular.

— Mən bütün bu illər ərzində əsirlikdə olduğumu xəyal etdim. Ürəkdə nurun olmasından daha yaxşı bir şey yoxdur — deyə An cavab verdi.

— Sən ürəyini qararənglilər şəhərində itirmədin?

— İtiridim. Amma o hissi xatırlayıram və nəyi itirdiyimi bildiyim üçün şadam. Beləliklə, mən qararənglilərin şəhərini tərk etdim, təbiətlə və Tanrı ilə sülhdə yaşayanları axtardım. O mənə təkcə azadlıq deyil, sizi də bəxş etdi — An dedi və onun səsində həm itkinin acısı, həm də qazancın sevinci var idi.

— Onunla ünsiyyət qurmağı unutmusan?

— Bəli. Şəhərdə həyat tərzi elədir ki, hər şey insanın tələbatını ödəmək üçündür. Orada hər şey var və insanı hər şeyə həvəsləndirilir. Mən belə yaşadım, amma yalnız iki şey etməmişəm: heç kəsi öldürməmişəm və ruhlara sitayiş etməmişəm. Düzdür, bu iki şeydən özümü saxlasam da, ürəyimdə artıq işıq yox idi.

— Onu yenidən necə tapmaq olar?

— Bilmirəm, Va. Bilmirəm.

— Məncə, Or sənə kömək edər. O belə şeyləri çox yaxşı bilir.

— Hamınız onun haqqında böyük hörmətlə danışırsınız. Onun haqqında hətta Xor da bilir.

— O, olduqca müdrik, çox yaşlı və həddən artıq güclüdür. Həm də çox mehribandır.

— Siz ona çox hörmət edirsiniz — An "çox" sözünü vurğulayaraq dedi.

— Bəli. O mənim üçün atamı əvəz edir. Or və "Maral ovçuları" tayfası olmasaydı, harda olacağımı bilmirəm.

— Bir az yat, Va. Mən keşik çəkərəm. Sonra məni əvəz edərsəm — An səmimi bir nəvazişlə dedi.

O, hiss etdi ki, evinə gəlib çıxıb və ürəyində işıq tapacağına ümid var.

## 14-cü fəsil

# Səfərin təyinat yerində

Ocaqda balıq bişirdi, səhər tezdən sonuncu növbətçi Arun idi. El bir neçə sarımsaq, soğanı və uzun bir səməni kökünü qazıb çıxardı, yudu və onu beş hissəyə böldü. Balıqlardan yeyib gümrahlanan gənclər qayığı sahilə çıxarıb, qurumuş böyük bir ağacın yanında sahildəki qamışlıqda gizlətdilər. Sonra əşyalarını yığıb düzənliyə çıxdılar və uzaqda görünən dağlara tərəf getdilər. Dağlar sanki düzənliyin qarşısını kəsirdi.

Onlar həmişəki kimi cərgə ilə, sakitcə yeriyir, yol boyu acı-şirin kökümsovlardan yeyirdilər.

Qısa otlarla və çoxlu çiçəklərlə örtülmüş düzənlikdə çoxlu sünbülqıran və sincab yuvaları var idi. Onların üstündə səmada bir neçə iri qartal və şahinlər fırlanırdı. Hava quşların səsi, ağcaqanadların və digər həşəratların vızıltısı ilə dolu idi. Dünən burada üzdükləri çay artıq görünmürdü.

Dağlar ilk baxışda göründüyündən daha uzaqda göründü. Bir müddət sonra Dan tez yeridi, sonra isə qaçmağa başladı.

Deyəsən, itlər buna çox sevinirdilər və hürərək qabağa qaçırdılar. Onlar yaxınlaşanda sincablar və sünbülqıranlar ildırım sürəti ilə qaçıb öz yuvalarında gizlənirdilər. Qısa otların arasından qaçmaq asan idi, buna görə də səyyahların getdiyi dağlara qədər olan məsafə qısaldı.

Onlar ilk alçaq təpələri artıq aşmışdılar. Dan cəld yeriməyə başladı, sonra isə asta yeridi. Aşırımı görən Dan dostlarını sıldırım qayalara qalxan dağ keçilərinin düzəltdiyi cığırla apardı. Şübhə yox idi ki, bu, dağ keçilərinin yolu idi. Orada peyin olduğundan yerimək üçün ayaqlarının altı yumşaq idi.

— Bax, burada keçilər də var — Dan dedi və yaxınlıqda otlayan sürüyə işarə etdi.

Keçilərdən biri, açıq-aydın görünürdü ki, başçı idi, diqqətlə yeriyən adamlara baxdı və yenidən otlamağa başladı.

— Onlar qorxmurlar. Yəqin insanlar burada ov etmirlər. Bu yaxşı əlamətdir — El dedi.

— Bu həm də insanların burada ov etdiyinə işarə ola bilər. Ehtiyatlı olun. Va və Arun, siz sola, El və An, siz isə sağa baxın. Mənsə qabağa baxacağam — Dan dedi.

Nəhayət, iki qayalı zirvənin arasında uzanan bir aşırıma çatdılar. Üstünə çıxıb dərhal dayandılar. Onların gözləri önündə gözəl bir mənzərə canlandı. Onların qarşısında böyük bir vadi uzanırdı. O, şimaldan dağların ətəyindən başlayırdı. Vadidə qaranlıq bir zolaq görünürdü və bu, meşə idi. Orada mənbəyi dağların ətəyindən başlayan bir çay ayırırdı. Burada ceyran və at sürüləri, bizon və zürafələr otlayırdı.

Vadi çoxlu çiçəklərlə rənglənmiş, qalın otlardan ibarət sanki yaşıl bir xalça ilə örtülmüşdü. Orada alçaq ağaclıqlar görünürdü və onların kölgəsində bir neçə aslan ailəsi uzanmışdı. Çayın yaxınlığına bir neçə heyvan sürüsü su içməyə gəlmişdi. Məsafə çox olduğundan onların hansı heyvan növü olduğunu müəyyən etmək mümkün olmurdu.

— Or Bağ haqqında danışanda onu belə təsəvvür etdim! Bax, orada, sağda, şəlalə var — El həvəslə qışqırdı.

— Bura nə gözəldir! Gəlin şəlaləyə enək — Va qışqırdı.

— Gedək. Mən əvvəllər heç belə bir gözəllik görməmişəm — Dan dedi.

— An, gedək! — Va qardaşını çağırdı.

Onlar cığırla getməyə başlayanda o, heç kim eşitməsin deyə sakitcə qarşısından keçən Andan soruşdu:

— Nə olub?

— Bu yəqin ki, sevincdəndir — deyə An gizli şəkildə gözlərinin yaşını silərək cavab verdi.

Şəlalə kiçik, suyu isə şəffaf və soyuq idi.

— Kimsə üzmək istəyir? — Va artıq çantasını və papağını çıxarıb əşyalarının üzərinə silahlarını qoyaraq soruşdu.

— Bu yerlər bizə tanış deyil, ona görə də buraları yoxlamaq lazımdır. Buranı mən yoxlayacağam — deyə Dan cavab verdi.

Va suyun axdığı kiçik bir gölə baş vurdu.

— Ahh, necə də gözəldir! Su insanı çox təravətləndirir — Va sudan başını çıxarıb dərindən nəfəs aldı.

Bir-birinin ardınca An, Arun və El də suya atıldı. Va suyun altı ilə şəlalənin arxasına üzdü və orada gizləndi. Tökülən su şəlaləsinin arasından Arun və digər üzgüçülərin onu axtardığını gördü, lakin onu görmədilər. Sonra dönüb gördü ki, su gölə təkcə yuxarıdan deyil, həm də şəlalənin arxasındakı alçaq mağaradan tökülür. Amma oraya üzməyə cəsarət etmədi. O, yenidən suya baş verdu və ona görə artıq narahat olmağa başlayan Arunun yanına sudan başını çıxartdı.

— Dan, sənə bir şey göstərmək istərdim — Va həyəcanla dedi.

Dan tez üst geyimini çıxarıb silahını üstünə qoydu. O, Ana keşik çəkməyi tapşırdı və özü sürətlə suya girdi. An sahilə çıxdı və nizəsini əlinə alaraq həm dostlarını, həm də gölün bütün ətrafını görmək üçün yamacdan bir qədər yuxarı qalxdı.

Bu zaman dördü də şəlalənin arxasına üzüb oradakı mağaraya baxdılar. Su oradan geniş və sürətli bir axınla axırdı.

— Gəlib çıxdıq! — Dan dedi və balaca girişi olan mağaraya doğru üzdü.

Onlar böyük bir mağara tapmışdılar və onun bütün ərazisi böyük bir göl idi. Mağarada olan zəif işıq dar girişdən düşürdü. Mağaranın uzaq kənarında su burulğanı var idi.

Dan və dostları sonra sahilə çıxdılar.

— Va, sən mənimlə gəl. Siz ikiniz isə burada gözləyəcəksiniz — Dan dedi və mağaranın divarı boyunca getdi.

— Hara gedirsən? — Va onu izləyərək soruşdu.

— Hava axınını hiss etmirsən?

— Bəli, indi sən dedikdən sonra hiss edirəm. Hava axını aşağıdan yuxarı cərəyan edir.

— Bu o deməkdir ki, mağaranın ikinci çıxışı var.

Dostların gözləri yavaş-yavaş qaranlığa öyrəşdi və getdikcə daha yüksəklərə qalxdıqları qayaların və daşların kənarlarını ayırd etdilər.

— Hər şey qaydasındadır? — Arunun səsi aşağıdan əks-səda verdi.

— Bəli, bəli, hər şey yaxşıdır — deyə Dan cavab verdi və yuxarı dırmaşdı.

Onlar birdən hündür divara rast gəldilər. Va Danın arxasınca getdi. Sonra onlar bir döngədə düz divarları və hündür tavanı olan nəhəng bir mağaraya girdilər. Mağara qayalarla üç hissəyə bölünürdü: ikisi böyük və biri daha kiçik. Günəş işığı mağaranın ön və yuxarı hissəsindən nüfuz etdiyi üçün onu asanlıqla görmək olurdu. Mağaranın eni təqribən yüz, uzunluğu isə iki yüz addımdan daha çox idi.

— Burada yalnız yarasalar yaşayır — Dan dedi.

Gənclər enli daşlardan ibarət təbii pilləkənlərlə çıxışa qalxdılar. Ora o qədər dar idi ki, onlar çox çətinliklə keçdilər və

sonra şaquli şəkildə dayanan iki hündür qayanın arasında dayandılar. Qayalardan biri girişi çardaq kimi örtürdü, digəri dərənin mənzərəsini bağlayırdı. Qayanın arxasından çıxanda az qala onlara nizə atmağa hazırlaşan Anla qarşılaşdılar. O, gənclərin göründüyü qayaya söykənərək gölün arxasından baxırdı.

— Mən elə düşünürdüm ki, oradan şir və ya bəbir çıxacaq — An rahat bir nəfəs aldı.

— Biz axtardığımızı tapdıq. Gəlin aşağı enək — Dan təntənəli surətdə dedi və sevincindən Va və Anı qucaqladı.

Aşağı enən Va yenidən şəlalənin arxasına üzüb Arun və Eli çağırdı. O, uşaq kimi sevinirdi. Hamı yığışıb geyinəndən sonra Dan üzünü cənuba çevirib diz çökdü. Hamı onun kimi diz çökdü və əllərini göyə qaldırıb Allaha üz tutdu.

Dan dedi:

— Ey ulu və əbədi olan Tanrı, övladlarına mərhəmət etdin, onlara yeni ev verdin. Sən bizim üçün heyvan sürülərinin otladığı, təmiz suların axdığı, düşmənlərimizdən təhlükəsiz yaşaya biləcəyimiz belə gözəl bir yer seçdin. Sənə minnətdarıq.

Dan əyilib səcdə etdi və hamı onunla birlikdə Tanrı qarşısında baş əydi.

15-ci fəsil

# Mağaranın hazırlanması

Hələ axşama çox qalmışdı, amma onlar gecəni yeni mağarada keçirməyə qərar verdilər. Bura əlbəttə ki, onlar üçün çox böyük idi, amma hər halda ağacda və ya qayıqda gecələməkdən daha yaxşı idi. Orada kimsə qalmalı idi.

Va və El ova getdilər, qalanları isə mağarada şərait yaratmaq üçün lazımi işləri görməyə başladılar. İlk öncə tüstünün hara getdiyini yoxlamaq üçün ocaq yandırdılar. Tüstü qalxdı və mağaranın sonuna qədər getdi, çox güman ki, buradan başqa çıxış yolu var idi. Bunu tapmaq o qədər də çətin olmadığı ortaya çıxdı: yaşıl yarpaqlı budaqları odun içinə atdılar və tüstü ətrafa yayıldı. İndi onun haradan çıxdığını görmək çox asan idi.

O, ən yaxın dağın zirvəsinə yaxın olan nəhəng qayaların arasından çıxdı. Ancaq çıxışı tapmaq mümkün deyildi, çünki qayalar çox böyük idi və aralarındakı boşluqlar çox dar idi. Bu o demək idi ki, mağaradakı ocaq mağaranın ən böyük hissəsinin sonunda idi.

Məlum oldu ki, uzaqdakı böyük mağarada yarasalar yaşayırmış. Bu, yerdəki qalın peyin qatından aydın görünürdü. Cavanlar qərara gəldilər ki, burada məskunlaşdıqdan sonra yarasaları qovmaq daha asan olacaq. Bəlkə də insanlar məskunlaşandan sonra siçanlar özləri buranı tərk edəcəkdilər. Gənclər mağaraya yaxın yerdə çör-çöp və odun tapıb oraya daşıdılar. Ertəsi gün yarasaları oradan qovmaq üçün gənclər böyük tonqallar qalamağa qərar verdilər.

Dan, Arun və An bütün bunları edərkən Va və El ovdan qayıtdılar.

— El bir oxla antilopu yaraladı. Antilop qaça bilmədiyinə görə onu tutmaq asan oldu — Va dedi.

Onlar mağaranın qarşısında gözləyən dostlarına yaxınlaşdılar.

El utanaraq dedi:

— Burada uşaq belə ov ovlaya bilər, çünki heyvanlar adamdan qorxmurlar. Amma insanlar burada məskunlaşandan sonra vəziyyət dəyişəcək.

Günəş dağın zirvəsinə çatanda ovçular tonqal qaladılar və dağın kölgəsi sakit vadinin üzərində düşdü. Hamı tonqalın ətrafında oturub fikirləşirdi, onlar səyahətlərinin məqsədinə çatmışdılar. İndi qəbilə burada kimin məskunlaşacağına qərar verəcəkdi.

— Düşünürəm ki, mağara o qədər böyükdür ki, bütün qəbilə orada yaşaya bilər və hələ də çox yer qalacaq — Dan dedi, bununla da ümumi sükutu pozdu.

Heç kim qəbilədən ayrılmaq istəmirdi, onlar artıq ailələri və dostları üçün darıxırdılar.

— Biz mağaradan, çaydan və Eden bağı kimi bu gözəl vadidən danışanda uzunömürlülər razılaşacaqlar — Va əminliklə dedi.

— Bilmirəm. Onlar adətən fərqli düşünürlər və çox nadir hallarda səhv edirlər — deyə Dan etiraz etdi.

— Bu gələcəyin işidir — həmişə olduğu kimi Arun onlarla razılaşaraq dedi.

— Görəsən, niyə mağarada heç bir heyvan yaşamır? — deyə An soruşdu.

— Mağaranın girişi təhlükəli yerdə olduğuna görə heyvanlar orada yaşamırlar. Hər halda mağarada aslanın və ya ayının gecələməsi ilə bağlı heç bir əlamət tapmadıq. Şirlər yuvalarını adətən tikanlı kolluqlarda və ya hündür otlar olan yerlərdə qururlar. Məncə, ayı belə böyük mağarada yaşamaz. O, daha kiçik bir mağarada başqa heyvanlardan gizlənə bilər — Dan dedi.

— Bu vadidə çoxlu heyvan var və qəbiləmizin ov axtarması üçün harasa getməsinə ehtiyac qalmayacaq. Mağaradan bir az kənarda ov edə bilərik — El dedi.

— Hə, bu şərait bizi tənbəl edəcək — deyə Arun zarafat etdi.

— Bəs sizin qəbiləniz taxıl əkmir? — deyə An soruşdu.

— Xeyr, biz taxılı bilərəkdən yetişdirmirik, amma ondan istifadə edirik. İndi yaşadığımız yerdə çoxlu buğda və qarğıdalı yetişir, çayın yaxınlığında isə kifayət qədər qamış* var. Biz kökümsovlu bitkiləri qurudub onlardan dadlı un əldə edirik. Mənə elə gəlir ki, bu vadidə belə bitkilər çoxdur — deyə Dan cavab verdi.

— Buğdanı və qarğıdalını yetişdirəndə daha əlverişli olur, çünki istədiyin qədər istifadə edə bilirsən — An gülümsəyərək dedi.

— Əlbəttə, taxıl yetişdirmək daha yaxşı olardı, amma atalarımız və biz təbiətlə sülhdə yaşamaq qərarına gəlmişik.

— Mənsə düşünürəm ki, atalarımız təkcə buna görə deyil, həm də "İşarə" qəbiləsinin ilk qərarəngli əcdadı əkinçi oldu-

**Bəzi qamış növlərinin köklərindən un hazırlana bilər.*

ğuna görə belə bir qərar verib. Mən uşaq olanda Or bu haqda mənə danışmışdı — deyə Va söhbətə qoşuldu.

— Bəs onda yaxşı ilə pis arasında sərhəd haradadır? — An fikirli şəkildə soruşdu.

— Düşünürəm ki, bu sual hər bir insanın fikrindən keçir. İnsanın ürəyində işıq varsa, onda hər şey yaxşıdır, əgər qaranlıq varsa, hər şey pisdir — Dan dedi.

Hiss olunurdu ki, onun bu barədə kifayət qədər məlumatı var idi.

— Bəs bunu necə bilirsən?

— Əbədi Olan ilk insanları yaradıb onları Cənnətdə yerləşdirən zaman onlara yalnız bir şeyi qadağan etmişdi ki, xeyirlə şəri bilmə ağacının meyvələrindən yeməsinlər. Amma bizim ilk atalarımız Tanrıya itaət etmədilər və o ağacın meyvələrindən yedilər. İndi insanlar Tanrının kamil iradəsinə uyğun yaşamaq əvəzinə, nəyin yaxşı və nəyin pis olduğunu anlamağa çalışırlar. Buna görə də atalarımız təbiətlə və Əbədi Olanla sülh içində yaşamağa çalışmaq qərarına gəldilər. Bu o deməkdir ki, biz Onun iradəsinə uyğun hərəkət etməyə çalışırıq.

— Bəs Onun iradəsini necə öyrənə bilərik? — An tələsik sual verdi.

Aydın idi ki, bu suallar onu çoxdan narahat edirdi və onlara cavab tapmağa can atırdı.

— Or hesab edir ki, Tanrının iradəsini axtaran hər bir adam həmişə onu ayırd edə bilir. Or kimi böyük təcrübəyə malik olmasam da, mən də belə düşünürəm. Axşamlar Or tonqalın ətrafında yaradılışdan, Cənnətdən, oradakı həyatdan və insanların oradan qovulmasından sonrakı həyatdan danışanda qəlbimizdə Yaradanımız Ata Allahın iradəsi ilə yaşamaq üçün böyük bir istək yaranır.

— Hər gün belə hekayələri dinləmək darıxdırıcı deyil və uşaqlıqdan anam bu cür hekayələri bizə danışırdı. O, yaradılışın

ilk günləri, ilk insanlar və ilk günah — qara adlandırdığımız şey — və ilk qətl haqqında danışırdı. Uzunömürlülər o dövrlər haqqında saatlarla danışa bilərlər. Or bu barədə bizə çox danışıb. Anam mənə həm də bu hekayələri mahnı kimi oxumağı öyrədib — El dedi.

— Birini bizim üçün oxuya bilərsənmi? — deyə Arun və Va bir səslə dilləndilər.

— Sonra oxuyaram, indi yanımda dəf yoxdur. Dəf çalaraq mahnı oxumaq daha asandır. Mən onu özümlə götürməmişəm, axı istirahətə deyil, səfərə çıxırdım — deyə El cavab verdi.

— Ürəyimdə qaranlıq var və ona görə də siz deyənləri hiss etmirəm. Bununla nə edəcəyimi bilmirəm — An kədərlə dedi.

— Sən Orla danışsan, yüngülləşəcəksən — Va əminliklə dedi və əlini qardaşının çiyninə qoydu.

Nahar bu barədə olan söhbətlə keçdi. Hamı yatmağa gedəndə keşikçi növbələri təyin olundu, tonqalın alovunun gurluğu artıq azalırdı. Hamı tez yuxuya getdi — gənclik, yorğunluq və mağaranın tanış ab-havası öz işini gördü. Girişdə birinci növbədə oyaq qalmaq üçün könüllü olan An və Vanın iti oturmuşdu. İt Va ilə An arasındakı münasibəti görəndə onu ailənin üzvü kimi tanıdı. An bunu hiss edəndə ürəyi yenidən xoşbəxtlik hissi ilə doldu.

Bu ərazidə ilk günün səhəri gözəl idi. Gənclər şəlaləyə doğru qaçdılar və soyuq suda doyunca üzdülər. Hətta itlər də onlara qoşuldular, onlar sahiblərinin üstünə tullanaraq oynadılar. İtlər üzüb sahilə çıxandan sonra özlərini silkələyərək tüklərini qurutdular.

Bu gün gənclər mağaranın girişini bir az genişləndirməyi qərara aldılar. Girişi düzbucaqlı etmək üçün əlavə daşlardan istifadə etdilər. Girişi bizon dərilərindən ibarət bir örtük ilə örtmək olardı. Onlar mağaranın hər iki girişini tikərkən axşam çalı ağacından tonqallar yandırdılar. Yarasalar səs-küylə mağaranı

tərk edərək qonşu dağ zirvələrinə doğru uçdular. İlanlar yəqin ki, belə tonqalların yandığı mağarada qalmazdılar.

Bütün gün üçün kifayət qədər iş var idi. Axşama yaxın hamı çox yorğun və ac idi. Xoşbəxtlikdən, dünənki ovdan hələ də kifayət qədər ət qalmışdı. Arun və El çaydan aşağı endilər və kökələr üçün bir neçə iri qamış kolunu kökündən çıxarıb gətirdilər. Nahara dadlı yemək var idi.

Bəlkə çox yorulduqlarından, dünən eşitdiklərini, söylədiklərini hələ də düşündüklərindən dostlar bu axşam çox danışmadılar.

Ertəsi gün dağların ətəyi ilə silsilənin qərb ucuna getməyi və oranı görməyi qərara aldılar. Məlum oldu ki, dağ silsiləsi çayın yüksək sahilini təşkil edir. Burada kifayət qədər dərin bir kanal var idi. Dağ silsiləsi yavaş-yavaş suya enən yerdə sahil hələ də çox hündür, qayalı və əlçatmaz görünürdü. Səyyahlar ətrafı araşdırdıqdan sonra öz mağaralarına qayıtdılar.

Ertəsi gün hamı çimdikdən, ibadət etdikdən və səhər yeməyindən sonra dağ silsiləsinin başqa, daha uzaq kənarına getdilər. Vadiyə enərək əvvəlcə çayın kənarı ilə getdilər, sonra şərqə dönüb dərəni bürümüş hündür və qalın otların arasından keçdilər. Onlar antilopları, xırda gəmiriciləri qorxutdular və şir ailəsinə rast gəldilər. Ovçular həmişə olduğu kimi, bir-birinin ardınca sürətlə addımlayırdılar. Qabaqda gedən Dan qəfildən dayanıb arxasınca gələnlərə tələsməməyi, danışmamağı işarə etdi. Onlar günəşdə qızınan şirlərin yanından elə keçdilər ki, onlarda nə qəzəb, nə də maraq oyatmadılar. Yalnız itlər çox narahat idi.

Silsilənin kənarına çatan səyyahlar bu tərəfdə silsilənin çaya bitişik olduğunu gördülər. Bu günün səyahəti onlara heç bir təhlükə gətirmədi. Geri qayıdarkən Dan, ovçuların getdiyi yolda iki quşu oxla vurdu. Beləliklə, həmin gün də şam yeməyi təmin edildi.

— Səhər qayıtmaq üçün yola çıxacağıq. Ona görə də gəlin tez yatıb dincələk. Sabah səhər üzməyib yola düşəcəyik ki, vaxt itirməyək — deyə Dan nahardan sonra xahiş etdi.

— Birinci mən keşik çəkəcəyəm, gecənin yarısı növbəni dəyişə bilərik. Məncə, bir gecə üçün üç nəfər kifayət edər — An dedi.

— Bu, yaxşı təklifdir — deyə Dan razılaşdı.

An mağaradan çıxdı və itlər yenidən onun arxasınca getdi. O, yenicə çıxmış, bütün dərəni işıqlandıran aya baxdı və əllərini göyə qaldıraraq dedi:

— Əbədi və ulu Tanrı, An Sənin qarşındadır. Qəlbimdəki işıq bu vadidəki ay kimi zəifdir. Mənim qəlbimə günəş kimi parlaq nur, Səninlə və təbiətlə barışıq göndər.

# Ölümcül döyüş

Şeh keçən kimi sonuncu növbə çəkən Dan hamını oyatdı. Yemək tədarüklərindən tez yedikdən sonra səyyahlar mağaradan çıxdılar, üzü cənuba doğru dayanıb həmişəki səhər ibadətləri ilə Əbədi Olana səcdə etdilər. Arun səhər duasını etdi. Əllərini göyə qaldıraraq dedi:

— Əbədi və ulu Atamız, bu yeni günü Sənin əlindən qəbul edirik. Sən günəşə əmr etdin ki, gecənin qaranlığını qoyub səmaya qalxsın. Biz yalnız Sənə ibadət edirik və Səndən istəyirik ki, bu gündə bizi ətrafdakı şərdən, qəlbimizdəki zülmətdən qoruyasan.

— Gəlin hazırlaşaq. Biz çay boyunca gedəcəyik. Çay təxminən getməli olduğumuz istiqamətdə axır. Amma çayın sağa döndüyü yerdə düz meşəyə tərəf dönəcəyik — deyə Dan əmr verdi.

Hazırlıq işi qısa bir zamanda baş verdi: axşam hər şey artıq yığılıb çantalarda yerləşdirilmişdi. Yayı və oxdanlı torbaları çiyinlərinə atıb əllərinə nizə götürüb yola düşdülər. Dağdan enən səyyahlar çayın sahilinə gəldilər. Bir müddət sonra on-

lar yürüşə başladılar və tezliklə onların evinə çevrilmiş yerdən sürətlə uzaqlaşdılar.

Günorta çayın sağa döndüyü yerə çatdılar. Şimaldakı qaranlıq zolağın həqiqətən də meşə olduğu artıq aydın görünürdü. Səyyahlar ona tərəf getdilər. Çayın niyə burada dönüş etdiyi aydın oldu, çünki dərə burada hündürləşirdi.

— Maraqlıdır. Niyə meşə zolağı bu qədər uzaqda yerləşir? Bütün vadi böyük, amma onun kənarları su zanbağının uzunsov yarpağına bənzəyir — Dan dedi.

— Görəsən, bu meşə nə qədər uzunluqdadır? Mən meşəni sevirəm — Arun heç kimə müraciət etmədən soruşdu.

— Düşünürəm ki, çayın sahilinə çatmaq üçün bir az sola getmək və sonra sahillə yuxarı qalxmaq ağıllı fikir olardı — Va dedi.

Onlar belə də etdilər. Nəhayət, səyahətçilər çaydan su içən vadinin bütün eni boyunca qaranlıq zolaq kimi görünən meşəyə tərəf getdilər.

Meşəyə tez çatmadıqlarını görən Dan addımlarını sürətləndirdi və tezliklə qaçmağa başladı. Böyük bir bizon sürüsünün otladığı meşənin kənarına çatana qədər bir müddət onlar belə qaçdılar. Ovçular yaxınlaşdıqca bizonlar narahat oldular və meşənin dərinliyinə girdilər. Nəhəng heyvanlar sürətlə yoxa çıxdılar.

Dan meşəyə çatdıqları yerdən sola gedən yolu seçdi və sürətlə qaçaraq dostlarını bu yolla apardı. Xoşbəxtlikdən meşə şam ağaclarından ibarət idi və çox sıx deyildi. Cığır çılpaq qayalardan ibarət geniş ərazilərdən keçirdi, onların arasında şam ağacları da böyüyürdü. Şam ağaclarındakı qatranın ətri ətrafı bürümüşdü. Sanki meşənin bütün quşları öz nəgmələri ilə yeni gələnləri qarşılamaq üçün cığırın ətrafına toplaşmışdılar.

Bir müddət sonra Dan sürəti azaltdı. Əlini qaldırıb ətrafa nəzər saldı. İtlər qulaqlarını şəkləyib bərkdən hürməyə başladılar.

— Orda ayı var. Başqa yola keçməliyik — Dan sakitcə dedi.

Aşağı əyilərək getdikləri yola baxmağa başladı.

El əli ilə şam ağaclarının arasında görünən qəhvəyi fiqurları göstərib ucadan dedi:

— Ora baxın!

Bu fiqurlardan biri onlara doğru hərəkət edirdi.

— Qaçmaq artıq gecdir! Biz hərəkətsiz dayanmalıyıq, bəlkə yanımızdan keçib gedəcək. Ağacın yanına gəlin — Dan dedi.

Bütün dəstə böyük bir ağacın altına toplandı, dırmaşmağın mənası yox idi, çünki ayılar ağaclara çox asanlıqla dırmaşırlar. Torbalarını yerə atdılar və nizələrini əllərində bərk tutdular. İtlər onların qarşısında dayanıb bərkdən hürdülər. Dan onlara susmağı işarə etdi. Ayı nəhəng başını sağa-sola yelləyərək yavaş-yavaş onlara tərəf gəlirdi. Dörd ayaq üstə dayanaraq ayı Andan hündür idi. Bu, ovçuları qorxutmayan sadə ayı deyildi. Bu mağara ayısı idi və o, yüksək səslə böyürdü.

Gəlin aşağı oturaq. Bəlkə bunu hörmət və təslim olmaq əlaməti kimi qəbul edər — deyə Dan əmr etdi.

Hamının əzələləri olduqca gərgin vəziyyətdə olsa da, hamı dizüstə oturmuşdu. Ayı onlara yaxınlaşdı, onun nəfəsi aydın eşidilirdi və ağzından pis qoxu gəlirdi. Onların düz qabağında dayandı, sanki bundan sonra nə edəcəyini qərara alırdı.

Dan bu şəraitdə mümkün qədər sakit və təmkinlə dedi:

— Biz sizə pislik etmək istəmirik və ərazinizdə qalmayacağıq, sadəcə meşədən keçib gedəcəyik.

İnsan səsini eşidəndə ayı başını tərpətməyi dayandırdı və birdən qorxulu şəkildə nərildədi. Onun səsi o qədər güclü idi ki, sanki uzaq dağlarda eşidildi. Ayı yenə nərildədi və arxa ayaqları üstə qalxdı.

— O, ya sözlərimizi başa düşmədi, ya da qəbul etmədi — Dan yüksək səslə dedi.

— Mən onun gözündən vuracağam — kənarda dayanan El dedi.

Cavab gözləmədən El qabağında tutduğu nizəsini atdı və cəld yayını çıxarıb oxu hazır etdi.

Ayı onlara tərəf hərəkət etdi. El ox atıb onun sağ gözündən vurdu. O, ikinci bir ox atdı, amma sonra dəhşətli nərildəyən ayı bir neçə addım atdı və sağ pəncəsi ilə Eli vurdu. El oradan on addım aralıda olan qonşu ağaca dəydi və böyük daşların arasına düşdü. Ayı hərəkətsiz uzanmış Elə tərəf döndü. Ayının sol gözündə ox asılmışdı və onu pəncəsi ilə itələyib kənara atdı. Sonra bütün gənclər onun üstünə qaçdılar. Onu nizə ilə vurdular, kimi yandan, kimi boynundan. Ancaq bunu etməklə ən çox əldə etdikləri şey dərisini deşməkdən başqa bir şey deyildi. İtlər də ayının üstünə qaçdılar, amma ayı onlara fikir vermədi. Ayı onlara tərəf dönmədi, Elə tərəf daha bir neçə addım atdı.

An, iki sürətli sıçrayışla ayının qarşısına çıxdı və onun qarşısında dik durub onu Eldən yayındırmağa çalışdı. Ayı nəhəng bir qaya kimi Anın qarşısında durmuşdu. Ayı hər iki pəncəsini qaldıranda hamıya elə gəldi ki, əl çalıb Anı ağcaqanad kimi əllərində əzmək istəyir. Bu zaman itlər tez marallarla etdikləri kimi, ayının dabanlarının bir az yuxarısından qapdılar ki, heyvanı yerə yıxa bilsinlər. Ayı yəqin ki, bu təhlükəni hiss etdi, çünki dördayaq üstə çöküb, altında qalan An ilə Elin üstünü örtdü. Aşağı çökən ayı birdən nərə çəkdi və yerə oturdu. Bu zaman kürəyindən qalın bir nizə ucu çıxdı. An ayının pəncələrinə tərəf əyildiyini görüb nizəni sinəsinin qarşısında tutmuşdu və ayı daha dayana bilməyib bütün ağırlığı ilə onun üstünə çökdü.

Va, Dan və Arun ayının öldüyünə əmin olaraq, onun altında qalmış dostlarını azad etmək üçün onu çevirməyə tələsdilər. Amma bu o qədər də asan deyildi. Əvvəlcə ayını böyrü üstə çevirməli oldular, bu çox güc tələb edirdi, sonra isə o biri tərəfə çevirdilər. Nizə ayının sinəsində, ürəyinin yanından batmışdı və demək olar ki, tamamilə cəsədi dəlib keçmişdi. Lakin gənclər bu nəhəngə baxmağa vaxt tapmadılar, onlar cəld El və Ana baxdılar. El yıxıldığı yerdə, ağacın köklərindəki iki kiçik daş arasın-

da uzanmışdı. Nə tərpənirdi, nə də gözlərini açırdı. Va qulağını onun sinəsinə qoydu. Va Elin ürəyinin zəif döyüntülərini eşitdi.

— O, sağdır! — deyə qışqırdı.

Bu zaman onlar Ana tərəf əyildilər. O, Elin yanında idi, qolu əyri şəkildə burulmuşdu və qan içində idi. Dan əlini onun biləyinə qoydu.

O, Anın bütün bədənini yuxarıdan aşağıya qədər yoxladı və dedi:

— O da sağdır! Qolu sınıb, çiyni yerindən çıxıb, qalan sümükləri, ən azı üzdən, hamısı salamatdır.

Ayının cəsədi daşların üstündə qalmışdı, əks halda onları əzəcəkdi.

— Bəs El necədir?

— Hələ bilmirəm. Onun sol kürəyində yara var və üzü qan içindədir. Başqa hansı yerlərinin zədələndiyini söyləmək çətindir — Va cavab verdi.

— Arun, onları düz yerə qoymaqda mənə kömək et. Sən bu işləri məndən yaxşı edə bilirsən. Va, Anın əlinə şina qoymaq üçün cəld ağac qabığı gətir — Dan dedi.

Va gənc ağcaqayın ağacı axtarmaq üçün qaçdı. Tezliklə o, bir ağcaqayın ağacı tapdı. Daş bıçağı ilə ağacda lazım olan uzunluqda şaquli kəsib yuxarıdan və aşağıdan gövdənin bütün çevrəsi boyunca eninə kəsiklər etdi və bir qulacdan çox qabığı asanlıqla çıxardı. Əlində ağac qabığı ilə geri qayıtdı. Bu vaxt onun dostları hər iki yaralını bir yerdə yan-yana qoymuşdular.

— Va! Gəl bunu özün et. Or sizə əbəs yerə öyrətməyib — Dan dedi.

Va yaşca böyük dostunun səsindəki hörməti duyanda sevindi. O, belə bir vəziyyətdə bu cür şeylər haqqında eşidəndə utandı. Lakin o bunu biruzə vermədi və işə başladı.

— İndi özünə gəlməmişdən və çiyni şişməmişdən əvvəl onu düzəltmək yaxşıdır — Va dedi.

Əlini Anın qoltuğunun altına qoyan Va hər şeyin düzgün vəziyyətdə olduğunu bir daha yoxlayaraq, kəskin bir hərəkət etdi. Anın qolu xoşagəlməz bir şaqqıltı ilə yerindən tərpəndi və o inildədi.

— Yaxşı, indi qolun sümüklərini birləşdirək — Va öz-özünə dedi.

Arun və Danın köməyi ilə Elin yarasını sarıdı və kürəyinin sınıq sümüyünə toxunaraq onu yerinə qoydu.

— Arun, yenə sənin köməyinə ehtiyacım var. Əzələlər qırılan sümüyün düzgün vəziyyətdə qalmasına mane olur. Mən onu bükməli və eyni zamanda onun əlini ağcaqayın qabığına qoymalıyam.

Arunun köməyi ilə Va çətinliklə də olsa, bu işi görə bildi. Anın əlini ağacın qabığına qoyan Va qardaşının əzələlərinin sərtliyinə təəccübləndi. O, hətta kimin güclü olduğuna şübhə edirdi: “İndi qəbilədə güclü adam Dan, yoxsa An sayılır?” Amma o, dərhal bu düşüncələrdən uzaqlaşdı. Ağac qabığını onun qoluna bərk-bərk sarıdı, bağla onun qarnına bağlayandan sonra qardaşından ayrılıb Elə tərəf döndü. El də An kimi huşunu itirmişdi. Səyahət şəraitini nəzərə alaraq yara mükəmməl müalicə olundu. Kürəyin üstündəki cırılmış dərini yerinə qoydu, qanaxma dayandı. Va yaralara bağayarpağı və qurudulmuş göbələk tozu səpib mamırla örtdü, sonra üstündən nazik dəri qayışlarla bağladı. Elin sol qolunu bədəninə bağlamalı idi ki, hərəkət edən zaman yaranı açmasın.

Onlar əllərindən gələni etdilər və yalnız yaralıların daxilində hər hansı bir zədə olub-olmadığını öyrənmək üçün gözləməli oldular.

— Gecəni burada, yaxınlıqda keçirəcəyik — Dan dedi.

Yalnız indi Va və Arun havanın qaralmağa başladığını gördülər. Xoşbəxtlikdən, mağara ayıları tək yaşamağı sevirlər. Dişi ayı balası olan kimi ərini qovur.

— Düşünürəm ki, hava qaralmadan ayının dərisini soymağa vaxtımız olacaq. Əks halda başqa ovçular onun cəsədini yemək istəyəcəklər — deyə Arun fikrini bildirdi.

— Yaxşı, sən və Va dərini soyun və yaralılara baxın, mən isə kəşfiyyata gedəcəyəm. Mənə elə gəlir ki, ayı mağarası yaxınlıqda olmalıdır. Düşünürəm ki, biz onu yuvasına yaxın idik, buna görə də o, belə hirsli idi — Dan dedi.

Sonra o, itini çağırdı və onunla birlikdə ağacların arasında gözdən itdi.

Va və Arun ayının dərisini soymağa vaxt tapmazdan əvvəl Dan geri qayıtdı:

— Onun mağarası çox yaxındadır. İşinizi tez bitirin, hərəkət etmək vaxtıdır.

Cavanlar yaralıları qoyduqları ayı dərisini, Anın nizəsini, əşyalarını və ayı ətinin tikələrini mağaraya apararkən artıq hava tamamilə qaralmışdı. Mağara çox geniş idi, beş səyyah və itlər asanlıqla ora sığışdı. İtlər mağaradan kənarda yatmağı xoşlayırdılar. Mağaranın girişi iki qayanın arasında gizlənmişdi və sıx kollarla örtülmüş qayalı təpənin yamacında yerləşirdi. Mağaranın düz arxasında çayın səsinin eşidildiyi dərin bir çuxur var idi.

Bütün gecəni heç kim göz yummadı. Dan, Arun və Va mağaranın girişində qalanmış ocağın yanında oturub susdular. Onlar danışmaq istəmirdilər. Hər kəs ötən gün baş verənləri yenidən fikrində canlandırırdı. Va tez-tez yaralılara yaxınlaşır, onların alınlarına toxunur və sarğılarını yoxlayırdı. Gecə yarısı Elin qızdırması qalxdı. O, ayı dərisi üzərində uzanmışdı, üstünü örtüklə örtmüşdülər. An hələ də özünə gəlməmişdi. Arun çaya qaçdı və bir tuluq su gətirdi, Va nazik bir dəri parçasını isladıb Elin ayaqlarına və isti alnına sürtdü.

Ayı leşini qoyub getdikləri yerdən müftə ət üçün döyüşən tülkü və canavarların səsləri eşidilirdi. Sonra meşə sakitləşdi. Səhər açılanda səyyahlar məyus halda oturmuşdular. Günəş üfüqdə görünəndə Dan mağaradan tək çıxdı və əllərini göyə qaldırdı:

"Sənə şükür edirəm, ey Əbədi Tanrı! Dünən bir düşmən üzərində bizə qələbə bəxş etdin. Sən Öz gücünü göstərdin və bu möcüzəni yaratdın. Səndən xahiş edirəm, daha bir möcüzə et və dostlarımı sağalt. Qoy bu yeni gün kədərli deyil, sevincli bir gün olsun!"

Dan mağaraya qayıdanda gördü ki, Anın gözləri ona dikilib. O, Danın Tanrıya söylədiyi sözləri eşitmişdi.

— El necədir? — Dan xəstənin yanında oturan Vadan soruşdu.

Va da sadəcə kədərlə başını buladı.

— Hər şey yaxşı olacaq. Elə deyil, An? — Dan dedi.

Yalnız bundan sonra Va anladı ki, An özünə gəlib.

— Atamız deyirdi ki, Əbədi Tanrı həmişə nə etdiyini bilir — An gözünü Vadan ayırmadan cavab verdi.

# 17-ci fəsil

# *Ada*

Səhər dumanlı idi. Həmin gün çoxlu şeh düşmüşdü. Dostların qəlbləri dərin kədər içində idi. Dan ayının dərisini çıxarıb onu piy və ətdən təmizləməyi, sonra isə qəbilələrinin qadınları kimi emal etməyi dostlarına tapşırdı:

— Arun, qadınlarımız dəri emal etməkdə daha səriştəli olsalar da, biz bu xoşagəlməz işlə məşğul olmalıyıq.

Dan əlavə etdi:

— Va, biz səni narahat edəcəyik. Dərini xəstənin altından yavaş-yavaş çıxaracağıq. Sən xəstələrə baxacaqsan, mən də Arunla yemək üçün bütün işləri görəcəyik, sonra dərini emal edəcəyik ki, üstündə yata bilək. Düşünürəm ki, biz burada çox vaxt keçirməli olacağıq.

Dan və Arun dərini mağaranın yuxarısındakı düz bir yerə sərdilər və bıçaqları ilə onu qaşımağa başladılar. Sonra Dan dərini emal etmək üçün lazım olan kökləri axtarmağa getdi və Arun dünən bir-iki günə yeyə biləcəklərindən daha çox topladıqları ayı ətini hazırlamağa başladı. O, mağaranın düz qarşısında od qaladı,

orada kiçik bir ərazini təmizlədi, bir neçə kolun kökündən qopardı və bir neçə daş götürdü. Dan qayıdanda nahar artıq hazır idi.

— Çoxdan idi ki, getmişdin. Nəsə tapa bildin? — Arun soruşdu.

— Bəli, məncə, bu kifayət olmalıdır. Mən onları yuxarıda, dərinin yanında qoydum. Sən oraya alovdan soyudulmuş külləri aparmalısan. Ocağın üstünə su tökmə, bütün kül tam yanmalıdır. Xəstələrimiz necədir? — Dan dedi.

— An yatır. Va ona bir az müalicəvi tozdan verdi. El isə hələ özünə gəlməyib. Va yalnız bir dəfə işinə görə mağaradan çıxdı və bir dəfə də olsun Elin yatağından uzaqlaşmadı. Amma mənə elə gəlir ki, Elin qızdırması düşüb.

— El, indi özünə gəlməsə, daha yaxşıdır. Nə qədər ki, ona nə baş verdiyini bilmir, yaraları sağalacaq.

— Qorxuram ki, qızdırma daxili yaralardan ola bilər. Onun üzünün sol tərəfinə fikir vermisiniz? Tamamilə mavi və bənövşəyi rəngdədir. Ayı pəncəsi ilə qızın üzünə vurdu. Çiyninə dəymədən birbaşa vursaydı, başını əzəcəkdi.

Arun anası kimi bir az sakit və mülayim tərzdə danışırdı. O, Dana Lini xatırlatdı və ürəyi dərhal onu görmək, saçlarına toxunmaq, qoxusunu duymaq arzusu ilə sıxıldı. Lakin Dan dərhal bu düşüncələri başından qovdu və işə başladı. İndi sevdiklərini xatırlamaq vaxtı deyildi.

Axşam dəri emal edildi. İndi dəri qurumalı idi. Sonra qumla yuyulub yenidən qurudulmalı və əzilməlidir. Beləcə onların mağarasında qalın, yumşaq yataqları olacaqdı.

— Va, artıq axşam oldu. Sən bir az dincəlməlisən. Elin yanında uzan, mən sizin keşiyinizi çəkərəm — deyə Danın səsində qayğıkeşlik hiss olundu.

Va heç nə demədən Elin yanında yerə uzanıb gözlərini yumdu. Onun yuxuya gedib-getmədiyini Dan görə bilmədi. Va bütün günü yemədi və içmədi. Heç kim onu məcbur etmədi. Onların qəbiləsində yeyib içməkdə heç kim məcbur edilmirdi.

Ertəsi gün və ondan sonrakı gün Va nə yeməyə, nə də suya toxundu. O, yalnız soyuq suda isladılmış dəriləri Elin ayaqlarına və alnına sürtdü. Bəzən mağaradan çıxıb harasa gedirdi. Arun təsadüfən gördü ki, Va əllərini yuxarı qaldırıb böyük ağacların arasında Bağla üzbəüz dayanıb Tanrıya ürəkdən nəsə deyir.

— O, Tanrı ilə danışır — Arun Dana dedi.

— Yaxşıdır. Bu, ürəyi qaralmaqdan qoruyur — deyə Dan cavab verdi.

An, həmişəki kimi yatırdı. Sadəcə bir az su içib yemək yemişdi və yenidən yuxuya getmişdi.

Va qayıdanda Dan səssizcə ona bir tikə ət və sarımsaq uzatdı. Va da səssizcə onları götürüb mağaraya girdi. Orada qardaşı ilə Elin arasında oturdu, əllərini onların üstünə qoydu və susdu. Çiyinlərinin hərəkətlərindən ağladığı görünürdü. Dan Aruna işarə verdi, onlar silahları və itləri özlər ilə götürərək getdilər.

— Gəlin ətrafdakı ərazini araşdıraq — Dan sakitcə dedi.

Onlar ayını öldürdükləri yerə getdilər.

Onun cəsədindən heç nə qalmamışdı, yalnız ağacların arasına səpələnmiş iri sümüklər qalmışdı. İzlərdən aydın olurdu ki, burada əsasən canavarlar olmuşdular.

— Canavarların yaşadığı yerdə marallar da yaşayır. Bu o deməkdir ki, uzunömürlülər antilop və bizon ovuna icazə verməsələr, qəbiləmiz burada başqa heyvanları ovlamalı olacaq — deyə Arun Dana öz fikirlərini bildirdi.

Dan bir söz demədən Arunun çiyninə toxundu və birlikdə cığırla meşənin dərinliklərinə qaçdılar. Onlar birdən meşədəki boşluqda otlayan ilk maral sürüsü ilə qarşılaşdılar. Marallar yavaş-yavaş qaçaraq ağacların arasında gözdən itdilər.

— Necə də yaraşıqlıdırlar, görürsən? Biz qəbiləmiz üçün Bağ tapmışıq — Dan sürətini azaltmadan dedi.

Onlar qaçaraq sola döndülər və tezliklə meşədən aşağı dağların, hündür qayalı təpələrin ətəyindəki meşənin kənarına çatdılar.

Onlar qarşılarında geniş və su ilə dolu bir çay gördülər. Çayın axarı sağ tərəfə, hündür, qayalı sahillərdən keçərək, Dan və dostlarının dinozavrların yaşayış yeri adlandırdıqları Qamış dənizinə doğru gedirdi. Arun və Dan sola, çayın yuxarısına baxanda orada meşənin bitdiyini gördülər. Orada çay bir neçə qola ayrılırdı.

Dan dedi:

— Biz bir adadayıq. Sanki bu ada uzunsov bir qabdır, meşə adanın yalnız üçdə ikisidir. Mağaramızın yerləşdiyi dağlar isə sərhəddir. Dağların o tayında Qamış dənizində bir yamac var.

— Bu yer haqqında heç eşitmisiniz? — Arun soruşdu.

— Xeyr. Onun haqqında heç kimin xəbəri yoxdur. Lakin qayıtmağımızın vaxtıdır, biz Vanı uzun müddətdir ki, tək qoymuşuq.

Onlar çox cəld geri qayıtdılar. Mağaraya çatanda Va artıq səbirsizliklə onları gözləyirdi.

— Yaxşı ki, qayıtdınız. Ağlıma bir fikir gəlib. Baxın, El bir az əyri uzanıb — Vanın səsində azca ümid var idi. Elin üzərini örtən örtüyü götürdü və dostlarına baxdı. Amma onların heç nə hiss etmədiyini görüb əlavə etdi.

Nə Arunun, nə də Danın Elin vəziyyətində xüsusi bir şey görmədiyini görən Va səbirsizliklə dedi:

— Hər halda, köməyinizə ehtiyacım var. Arun, sən onun çiyinlərindən, sən isə Dan, ayaqlarından yapış. Hamımız birlikdə, amma çox diqqətlə onu qarnı üstə çevirək. Bax belə!

Eli üzü üstə çevirdikdə, Vanın nə demək istədiyi aydın oldu. Elin belindən yuxarıda böyük bir şiş görünürdü.

Va barmaqlarını Elin onurğası boyunca yuxarı-aşağı gəzdirərək dedi:

— Bunun yara ilə heç bir əlaqəsi yoxdur. Onun dörd və ya beş fəqərəsi yerindən çıxıb. Şişkinliyi aradan qaldırmaq üçün bitki mənşəli sarğı qoymalıyıq, bundan sonra yerindən çıxmış fəqərəni yerinə qoymaq olar.

Va sarğı hazırlamağa başladı. Yaranın üzərinə sarğını qoyduqdan sonra Elin üstünü örtdü və onun başının yanında əyləşdi.

Ertəsi gün səhər Va dostlarını Elin çarpayısının yanına çağırıb dedi:

— Arun, bacının yanında otur və onu bərk-bərk tut. Dan, sən onun başını dizlərinin arasına qoy və çiyinlərindən tut. Möhkəm tutun, ancaq yaranın açılmaması üçün diqqətli olun. Or bütün bunları mənə öyrədib, amma bu vaxta qədər heç kimin belindəki fəqərələri yerinə qoymamışam. Əvvəlcə Elin belini bir az masaj edəcəyəm ki, əzələləri yumşalsın. Diqqətli olun, onu ehmalla tutun!

Va izahatını köməkçilərindən daha çox özünə güvənmək üçün deyirdi.

Bir gün əvvəl şişkinlik olan yerə ovuclarını möhkəm basdı. Amma yuxarıdan aşağıya yox, soldan sağa basdı. Şaqqıltı səsi gəldi və El inildədi. Va əllərini bir neçə dəfə onurğa boyunca yuxarı-aşağı gəzdirdi və məyus halda dedi:

— Yenidən etməliyik. Diqqət! Hazır olun!

Yenə bir şaqqıtı səsi gəldi, amma bu dəfə səs o qədər də yüksək deyildi. El yenə inlədi. Bu işdən razı qalan Va köməkçilərindən Eli arxası üstə çevirməyi xahiş etdi.

— İndi bizə yalnız gözləmək gərəkdir — Va dedi və birdən Elin qalın kipriklərinin titrədiyini və gözlərini açdığını gördü.

O, hələ də dostlarını dumanlı görürdü, lakin sonra onları aydın görməyə başladı. El sakit səslə Vaya dedi:

— Va, sən nə edirsən?

Va dərhal əllərini çəkdi və göz yaşları yanaqlarından aşağı süzüldü.

— Niyə ağlayırsan? — El çətinliklə eşidilən pıçıltı ilə soruşdu.

— Sevincdən ağlayıram. Sən hərəkət etmə və danışma, sənə sakit uzanmaq lazımdır. Bir az döz — Va pıçıltı ilə cavab verdi.

O, kiçik bir qabda su gətirdi və onun yatağına əyildi.

— Mümkünsə bir az iç. Amma başını qaldırma, sənə kömək edəcəyəm. Bu, ağrını yüngülləşdirəcək və yuxuya gedəcəksən. Hər şey yaxşı olacaq — Va dedi.

— Mənə nə olub? — Vanın müalicəvi tozunun əlavə edildiyi suyu içdikdən sonra El sakitcə soruşdu.

— Səni ayı vurub. Amma sən oxla vurub onun gözünü çıxardın.

Elin gözlərində bir xatirə canlandı:

— Ayının axırı necə oldu?

— Sən onun dərisinin üstündə uzanmısan.

— Bəs siz onu necə öldürə bildiniz?

— Sənə sonra hər şeyi danışacağıq — deyə Va onu sakitləşdirməyə çalışdı.

— An onu öldürdü. O sənin yanında yatır, yaxşıdır, yalnız qolu sınıb. O sənin həyatını xilas etdi. O, mamont ovçularının ona verdiyi qalın nizə ilə ayını vurdu — Arun dedi.

— El dincəlməlidir. O, heç bir hərəkət etməməlidir — Va dostunun sözünü kəsdi.

Amma Elin gözləri artıq bağlanmağa başlamışdı. Sonra dərindən nəfəs alıb yuxuya getdi.

# Qayıdış

An və El sağalana kimi xeyli vaxt keçdi. Ay kiçildi və yenidən dairəvi oldu. Həmin axşam bir qrup gənc və bir qız mağaranın qarşısındakı tonqalın ətrafında oturmuşdular. İki it sakitcə quyruqlarını yelləyib sədaqətli gözlərlə sahiblərinə baxırdılar.

— El, evə qayıtmağa hazırsan? — Danın səsində şübhə var idi.

El cavab verdi:

— Artıq neçə dəfə demişəm ki, evə asanlıqla qayıda bilərəm.

— Məncə, bir az da gözləmək lazımdır. Heç olmasa başgicəllənmə dayanana qədər gözləməliyik. Bu zarafat edəcək bir şey deyil — deyə hamının təbib kimi tanıdığı Va etiraz etdi.

— Bəs başgicəllənmə heç vaxt dayanmasa? Biz burada qalacağıq? Yəqin ki, bizimkilər narahat olmağa başlayıblar.

Bu vaxt An səssizcə oturmuşdu və kiçik çaxmaqdaşı ilə mağara ayısının pəncəsinin caynağında bir dəlik açırdı. An sağaldıqdan sonra Dan hamının adından ona göstərdiyi qəhrəmanlığa görə təşəkkür etdi və ona ayının uzun, iti dırnaqlarını verdi.

Dan dedi:

— Bu sənin mükafatındır. Övladların və övladlarının övladları tonqalın ətrafında qələbəniz haqqında danışacaq və bu ayı dırnaqlarını onlara göstərərsən. Qızlar isə sənin şərəfinə mahnılar oxuyacaqlar.

— Mən heç nə etməmişəm. Ayı sadəcə nizəmin üstünə yıxıldı. Bu işdə mükafat yalnız Tanrıya məxsusdur — An utanaraq etiraz etdi.

— Ancaq sən ayının qarşısında dayanıb nizəni ürəyinə vurdun — Va dedi.

— Hər biriniz bunu edə bilərsiniz. Sadəcə möhkəm nizəm var idi və Elə ən yaxın dayanan adam mən idim.

— Bu mükafatlar sənindir — Dan sonra mübahisəni bitirdi.

An onları qəbul etdi və mağaradakı yerində başının altına qoydu.

Bu söhbət çoxdan olmuşdu. İndi An oturub ayı dırnağında deşik açırdı. Artıq hamı onun axşamlar bu işi görməsinə alışmışdı.

— Bizim bura gələrkən olduğundan daha çox yükümüz və həm də səyahətdə tamamilə sağlam olmayan iki yoldaşımız olacaq. Lakin Arun və Va yükləri daşısa, An və El yüngül əşyalarla gedərsə, üç günlük yolu altı və ya yeddi günə qət edə bilərik. Tələsməyə ehtiyac yoxdur. Elin halı pisləşsə, dayanıb sağalana qədər gözləyə bilərik — Dan dedi.

— Mən əşyalarımı özüm daşıya bilərəm — qız bir az kədərlə dedi. Üzünün hələ də sağlam olmayan tərəfində ağ ləkələr görünürdü.

— Bu, bacarıb-bacarmamağından asılı deyil, amma başgicəllənmənin olmaması üçündür. Buna görə də mümkün qədər ehtiyatlı olmalısan — Va yenidən etiraz etdi.

— Yaxşı. Daha mübahisə etməyəcəyik. Sabah səhər yola düşəcəyik. İndi istirahət edin. Heç kimin oyaq qalmasına ehtiyac yoxdur. Məncə, bir şey olarsa, itlər bizə xəbər verəcək.

Bu müddət ərzində gənclər bütün ətrafı gəzib nəzərdən keçirdilər, onlar meşənin enini- uzunluğunu gəzdilər və tam əminliklə müəyyən etdilər ki, çay və dənizin yaratdığı bir adadadırlar. Onları, xüsusilə də, mağaradan qaynaqlanan çayın haradan axdığını öyrənmək gəncləri maraqlandırırdı. Burada çay hündür şam ağacları, iri və qəribə formalı qayalarla əhatə olunmuş kifayət qədər böyük bir gölə axırdı. Gölün suyu təmiz və soyuq idi.

Meşədəki canavar və dərədəki şirlərdən başqa heç bir təhlükəli yırtıcıya rast gəlmədilər. Son iki gündə dostlar Eli Anın himayəsində qoyub qayığın arxasınca getdilər. Bir neçə ay əvvəl adaya düşdükləri yerdə qayığı tərk etmək istəyirdilər. Amma indi onu meşədən keçərək çayı keçməyi düşündükləri yerə köçürmək qərarına gəldilər. Onlara üç gün lazım idi. Əvvəlcə onlar bütün dərəni və artıq tanış olan dağları keçərək qayığa doğru getdilər. Sonra qayığı çayın qovuşduğu yerə və Elin azad edilməsindən və mamont ovundan sonra endikləri yerə qədər axına qarşı sürdülər. Sonra adanın ətrafında dolanan çayların qollarına tərəf dönüb əlverişli yerə üzdülər. Onlar qayığı gizlətdilər və meşədəki mağaraya qayıtdılar.

Qayığı götürmək üçün yolda böyük mağaraya baxdılar və orada heç bir dəyişiklik görmədilər.

İndi yola çıxmaq qərarına gələrək artıq tanış, rahat mağarada uzandılar və dərhal yuxuya getdilər. Uzaq səfərə çıxmaq nizam-intizam tələb edirdi. An hələ də ocağın yanında oturaraq əl işini bitirirdi. Dandan oyaq qalmaq əmrini alan itlər sönmüş ocağın yanında uzanmışdılar.

Səhər tezdən hamı artıq ayağa qalxıb əşyalarını yığmışdı. Ovçuların həyəcanı itlərə də keçmişdi. Onlar da həvəslə yola düşməyə hazır idilər.

Ayının dərisini büküb dirəkdən asdıqdan, silahları bir yerə topladıqdan və ocağı su ilə söndürdükdən sonra Dan hamını Cənnətə üz tutub Tanrıya səcdə etməyə dəvət etdi.

— Əbədi Ata, biz Sənin qarşısında baş əyib əllərimizi göyə qaldırırıq. Evə yola düşməyimiz, El və Anın sağalması üçün Sənə minnətdarıq. Bizi yolda vəhşi heyvanlardan və düşmənlərdən qorudun, qəlblərimizi zülmətdən hifz etdin.

Dan əllərini aşağı salmağa vaxt tapmamış hamı Anın səsini eşitdi. O dedi:

— Əbədi Ata, mən Səninlə necə ünsiyyət qurmağı unutmuşdum, amma bilirəm ki, Sən mənimləsən. Sənə hörmət edən və Səninlə sülhdə yaşayan insanlar tapdım. Mən qardaşımı tapdım və Sənin köməyinlə ayını məğlub etdim. Sənə minnətdaram.

Bunları söylədikdən sonra An davam etdi, lakin bu dəfə artıq o, yoldaşlarına müraciət etdi:

— Bu da sizin üçündür, dostlarım! Tanrının köməyi ilə biz birlikdə ayını məğlub etdik. Qoy bizim uşaqlarımız, uşaqlarımızın uşaqları bunu desinlər, qızlar da ocaqların ətrafında mahnı oxusunlar.

Sonra An onların hər birinə kiçik gözəl çay balıqqulaqları ilə bəzədilmiş nazik dəri qayışda iki ayı dırnağı verdi.

An belə təntənə ilə danışdığı üçün hədiyyədən imtina etməyə heç kim cürət etmədi. O, sözlərini bitirdikdən sonra Arun və Va dirəyi çiyinlərinə, nizələri əllərinə alaraq Dan və Elin arxasınca getdilər. Bu dəfə yürüşdə An ayı dişilə bəzədiyi nizə ilə silahlanaraq hamıdan arxada gəlirdi. Onlar birbaşa meşədən keçməyib, sağa, qayığın onları gözlədiyi yerə yollandılar və asta addımlarla getdiklərindən, səyahət demək olar ki, bütün günü çəkdi. Nəhayət, onlar çayın sahilinə, qayığı gizlətdikləri yerə gəlib çatdılar.

Qayığı tapmaq xeyli vaxt apardı. Bütün söyüdlər eyni görünürdü və çayla həmsərhəd olan meşə də heç bir şəkildə seçilmirdi. Nəhayət, Dan işarələdiyi hündür və qurumuş ağacı tapdı, ondan uzaqda bir qayıq var idi. Arun qayığı açıb suya girmədən hamının minə biləcəyi bir yerə çəkdi. Qayıqla onlar yola düşdülər və itlərsə qayığın arxasınca üzdülər.

Hündür təpələrdə olan o biri sahilə çatdıqdan sonra yüklərini boşaltdılar və irəli getdilər. Yuxarı qalxdıqdan sonra dağlıq bir düzənliyə çatdılar. Uzaqda solda getdikləri çay harasa axırdı, ada arxadan çay qolu ilə məhdudlaşırdı. Sağda isə onlardan şərqdə və uzaqda, üfüqdə kiçik bağlarla və təpələrlə örtülmüş düzənlik uzanırdı. Şimalda və şərqdə alçaq dağları görmək olurdu. Səyyahlar şimala doğru getməyə başladılar. Bağlara yaxınlaşdıqca onların fıstıq, palıd və ağcaqovaqdan ibarət kiçik meşələr olduğu məlum oldu. Bəzi yerlərdə cığırların olması burada kifayət qədər heyvanların yaşadığını sübut edirdi.

Gün axşama yaxınlaşırdı, gecələmək üçün yer seçmək vaxtı idi. Sürətlə addımlayan dəstə kiçik bir təpədə yerləşən şam meşəsinə yaxınlaşanda Dan qəfil dayandı. Qarşıdan qaçan it ona işarə verdi. Getdikləri yolun sağında kolların arxasından nəhəng bir mağara aslanının başı görünürdü. Hamı donub qaldı. Aslanın ağzı qanlı idi. O, güclü və xəbərdarlıq edən bir səslə nərildədi. Dan alçaq səslə bir neçə söz dedi, başını aşağı saldı və digərlərinə də eyni şeyi etməyi əmr etdi, sonra yavaş-yavaş yolun sol tərəfi ilə getdilər. Aslan artıq yanından keçən insanlara fikir verməyərək qarşısında ovladığı sığının cəsədini yeyirdi.

Səyyahlar daha bir neçə bağın yanından keçdilər. Nəhayət, məqsədlərinə uyğun bir bağ tapdıqda artıq hava qaralmışdı. Orada, digər ağaclar arasında, gecə üçün yuva qura bilən böyük palıd ağacları var idi. Onlar tez yerbəyer oldular. İtlər ağacın altında qaldı. Onlar açıq düzənlikdə ocaq yandırmamaq qərarına gəldilər. Yemək ehtiyatlarından yedilər, keşik çəkməyin növbəsini təyin edib yatmağa getdilər. Yorğunluq öz təsirini göstərdi. Xüsusilə El və An yorğun idilər, onlar bunu göstərməməyə çalışsalar da, budaqlarda qurduqları yerdə örtüklərinə bürünüb yuxuya getdilər.

Səhər səyyahlar ağacdan düşdülər, qəlyanaltı etdilər və itləri yedizdirdilər. Dan gecə əmin-amanlıq, aslandan müdafiə

olunduqları üçün Əbədi Tanrıya təşəkkür etdi. Tanrıdan onları sonrakı günlərdə qorumasını istədi.

Meşədən çıxıb kiçik bir təpəyə çıxanda məlum oldu ki, dünən gördükləri kiçik təpə silsiləsi artıq o qədər də uzaqda deyil. Təpələrin konturları onlara çox tanış görünürdü.

— Bax, qararənglilər Eli qaçıranda biz gecəni o təpədə keçirmişdik. Mən orada qırqovullar vurmuşdum — Va dedi.

— Başqa yerdə dayanmasaq, evə qayıtmaq üçün cəmi üç günümüz var — Dan dedi.

19-cu fəsil

# Yenə düşmənlər

Günəş doğanda səyyahlar yola düşməyə tam hazır idilər. Hər kəs yeməyə və su içməyə vaxt tapdı. İtlər də yeyib doydular və yola çıxmağa can atdılar.

Va həyəcanla Elə baxdı. Qız şən görünürdü və özünü əla hiss etdiyini söylədi, lakin yatdıqları ağacın budağından onun yerə tullanması Vanın diqqətli baxışlarından yayınmadı. O, məsafəni düzgün hesablaya bilmədi və tullandıqdan sonra çətinliklə ayaq üstə qala bildi. Kürəyindəki yara artıq sağalmışdı, amma üzünün sol tərəfinin dərisi sağlam görünmürdü. Va isə bu vəziyyətdə ona hansı otların kömək edəcəyini bilmirdi. Burada Orun məsləhəti çox faydalı olardı. Lakin o, Elin hərəkətlərinə baxanda hər şeyin yaxşı olacağına ümid bəsləyirdi.

An oxla yaralandıqdan sonra tez sağaldı. O, hələ sağ əli ilə ağır bir şey qaldıra bilmirdi, amma əlindən istifadə etmək daha ona ağrı vermirdi.

Dostlar bir aydan artıq gecələdikləri meşədə Anın yaralandığı, Elin əsir düşdüyü yerin yanından keçdilər.

— Nə yaxşı ki, həmin gün məni öldürmədin! Yoxsa mən səninlə heç vaxt tanış olmazdım — An gülümsəyərək Elə dedi.

El həmişə onu izləyən Vaya baxıb dedi:

— Tanrı həmişə nə etdiyini bilir. Elə deyilmi? Va, mənim üçün narahat olma. Hər şey yaxşı olacaq.

Va onun sözlərinə cavab vermədi.

Yolda onlar yalnız su içmək və yükləri daşıyan gənclərin bir az dincəlməsi üçün dayandılar. Uşaqlıqdan gənclər bələd olduqları meşədə çox gəzmişdilər. İki-üç günlük səyahət edib ov axtarmaq üçün mağaradan uzaqlaşmışdılar. Meşədəki səslər, qoxular onlara tanış idi. Onlar meşənin dərinliyinə getdikcə, Danın rahatlığı itlərə və bütün dostlarına da ötürülürdü. Onların gözləri artıq ətraflara o qədər də diqqətlə baxmırdı və qulaqları artıq hər xışıltıya o qədər də həssas reaksiya vermirdi.

— El, anamıza nə deyəcəyini artıq fikirləşmisən? — Arun bacısından soruşdu.

— Anam haraya getdiyimi bilir. Ona görə də narahat olmamalıdır.

— Ona demisən?

— Yox! Nə danışırsan?! O məni buraxmazdı. Amma mən yayı, oxlarımı və onun nizəsini götürdüm. Həm də mən ona bir işarə qoyub getdim...

— Hansı işarəni?

— Atamın sapandını yatdığım yerə qoydum.

— Bu nə deməkdir?

— Doğrudan başa düşmürsən?

— Yox, başa düşmürəm.

— Onda sənə kömək edə bilməyəcəyəm. Qadınlar bunu yaxşı başa düşürlər.

Bu zaman söhbət kəsildi. El daha Arunun suallarına cavab vermədi. Va, An və Arun sadəcə bir-birlərinə baxıb təəccüblə qaş-

larını çatdılar. Dan bir az qabaqda getdi, onların söhbətini eşitmədi və onlardan asta getmələrini xahiş etdi. O, həyəcanla dedi:

— Buradan üç gün əvvəl insanlar keçib. Budur, onların çəkməli ayaqlarının izləri. Düzdür, vaxtla bağlı yanıla bilərəm. Ola bilər ki, bizimkilərdən biri qəfildən ayaqqabı geyinməyə qərar verib, amma mən buna çox şübhə edirəm. Gəldiyimiz istiqamətdə dağlarda ayaqqabı ilə gəzmirlər.

An qeyri-ixtiyari ayaqqabılarına baxdı və qəti qərar verdi ki, qəbilənin mağarasına çatan kimi, artıq ayaqqabı geyinməyəcəkdi.

Onlar bu dəfə yenə bir ağacda gecələdilər. Ocaq yandırmadılar, amma Dan itlərə sakit olmaq üçün işarə verdi. Bir ağacın altında uzanıb bütün gecəni orada yatdılar. Dostlara elə gəlirdi ki, itlər bütün gecəni gözlərini qırpmadan yatmayıblar, onlar insanların əhval-ruhiyyəsini çox yaxşı hiss edirdilər və onların narahatlığı itlərə də keçmişdi.

Günəş doğmazdan xeyli əvvəl onlar yola düşdülər. Səyyahlar bunu yalnız müstəsna hallarda edirdilər, şehlə örtülmüş otların və kolların üzərində gəzmək nəinki xoşagəlməz idi, həm də qəbilələri tərəfindən təhlükəli hesab olunurdu. Soyuq suda üzmək və sonra günəşdə isinmək bir şey idi, amma yaş dəri geyimdə soyuq şehin içi ilə keçmək başqa bir şey idi. Həm də bu təhlükəli idi. Lakin dostlar səbirsizliklə meşəni tərk edib öz qəbilələrinə qayıtmaq istəyirdilər.

Dan səhər yola düşməyə hazırlaşarkən dedi:

— Düşünürəm ki, bu insanların hara getdiyini və burada nə iş gördüyünü izləmək vacib olardı. Amma təəssüf ki, indi buna vaxtımız yoxdur. Hələlik biz də onların getdiyi yolla gedirik.

— Biz addımları bir-birilə əlaqələndirə bilərik: ən azı qəbiləmiz istiqamətində hərəkət edənə qədər onların izlərini izləyə bilərik, sonra görək nə olur — Va təklif etdi və hamı onunla razılaşdı.

Buna görə də indi səyahətçilər yol gedir və ətrafdakı hər şeyi diqqətlə izləyirdilər. Nəyinsə iyini ilk olaraq itlər hiss edirdi.

İtlər qulaqlarını yuxarı qaldırıb sakitcə hürürdülər, bu o demək idi ki, yad adamların iyini hiss edirdilər.

— Burada qalın, tezliklə qayıdacağıq — Dan dedi və Aruna onun arxasınca getməsini işarə edərək, itinin dalınca gözdən itdi. Va öz itini yanında saxladı.

Bir az vaxt keçdi və kəşfiyyatçılar geri döndülər:

— Biz söndürülmüş bir ocaq gördük. İki-üç gün əvvəl qararənglilər orada gecələyiblər. Onlar çox deyillər, təxminən beş-altı nəfərdirlər — Danın səsi təşvişlə dolu idi.

— Altı. Qararənglilərin dəstəsində həmişə altı nəfər olur. Biz səkkiz idik, çünki özləri ilə iki yeni adam götürmüşdülər — An dedi.

— O tərəfdə yalnız Maral ovçuları tayfası yaşayır, orada başqa tayfalar yoxdur. Qararənglilərin dəstəsi əvvəlcə tutduqları, sonra itirdikləri qızın haradan gəldiyini öyrənməyə gəliblər — Va dedi.

Dan bildirdi:

— Onda bu yolla qayıda bilərlər. Əgər belədirsə, deməli, onlar artıq hər şeyi araşdırıb bu gün və ya dünən yola düşüblər.

Va sevinclə dedi:

— İz buraxmadan qararənglilərdən yan keçməli və onların arxasındakı mağaraya getməliyik.

— Belə də edəcəyik. İlk fürsətdə biz "yoxa çıxacağıq". Gəlin elə edək ki, onlar ovçuların ov axtarmaq üçün cığırla getdiklərini düşünsünlər. Sonra isə izlərimizi tamamilə gizlədək — deyə Dan qərar verdi.

Bundan sonra Dan cığırdan uzaqlaşdı, kolları sındırdı və yalnız ona məlum olan başqa bir şey etdi ki, onların izlərini oxuyan adamın Danın tərtib etdiyi plana uyğun fikri yaransın. Yol qayalı yerə çatanda Dan öz dəstəsini uzaqlara apardı. Axşam yaxınlaşırdı, istirahət haqqında düşünmək vaxtı idi. Tezliklə onlar gecələmək üçün uyğun bir yer tapdılar.

Gecə narahat keçdi, onun səssizliyini heç kim pozmadı, amma Dan və yoldaşları daxilən narahat idilər. Buna baxmayaraq,

səhər hamı sevincək ayağa qalxdı. Hər şey əngəlsiz ötüşsəydi, onlar axşama yaxın evdə olacaqdılar.

Gün çox yavaş keçdi. Qəbilə üçün narahatlıq, görüşün gözləntiləri, yaşanan təhlükələr — bütün bunlar səyahətçilərin ağlını və qəlbini məşğul edirdi. Amma uzaqdan çayların səsi eşidildi, bu tanış səslər onlara çox əziz və tanış idi. Artıq qısa müddətdən sonra onlar çay sahilinə çatacaqdılar. Hamı istər-istəməz addımlarını sürətləndirdi. Sahilə çatanda narahatlıq hissləri onları bürüdü və dayandılar.

Dan meşənin kolluğunda gözdən itməzdən əvvəl dedi:

— Mən itimlə mağaranın üstündəki keçid nöqtəsinə qədər gedəcəyəm və orada düşmənlərin olub-olmadığını yoxlayacağam. Sonra mən sizin üçün geri qayıdacağam.

Gözləmək getməkdən daha çətin idi. Amma bu vaxt da ötüb keçdi, kolların arasında xışıltı eşidildi və Dan öz iti ilə vadidə peyda oldu. Bu zaman dostları ağacların kölgəsində gizlənmişdilər.

— Heç kim yoxdur. Biz yuxarıya, axına doğru gedib o biri sahilə keçə bilərik — deyə Dan hamını arxayın etdi.

Hamı yenə cərgəyə düzülüb axın ilə çayın yuxarı tərəfinə keçdi. Quşların səsi azaldı, bir dəstə gənc onlardan getdikcə daha da uzaqlaşdı, axınla daha yuxarı qalxdı. Onlar mağaralarının yerləşdiyi yerlə üzbəüz ərazilərdən keçdilər, amma günəş qarşı tərəfdəki sahilin səmasında batırdı, sahildə heç nə görünmürdü və bu yerdə çay çox geniş idi.

Dan hamıya öz qərarını bildirdi:

— Əşyalarımızı bu ağacın aşağı budaqlarında qoyacağıq. Sabaha qədər onlara heç nə olmayacaq, sabah isə qəbilə gəncləri onları həvəslə bizə çatdıracaq.

Hər kəs onlara rəhbərlik edən insana çoxdan öyrəşmişdi. Onun əmrlərini həvəslə yerinə yetirdilər və fikrinə hörmət etdilər. Dan özü isə səfər zamanı öz roluna artıq öyrəşmişdi.

Çantalar boşaldıldı və şişirildi. Onlar paltarlarını çıxardılar və yalnız beldən olan geyimlərində qalaraq suya girdilər. Yalnız El paltarda üzdü. Va bunu diqqət yetirdi. Onlar çayı üzüb sahilə çıxanda Va Elin niyə belə qərar verdiyini anladı. Qız paltarda belə bütün füsunkarlığı ilə anasına bənzəyirdi.

Yamaca qalxmağa başlayanda itlər hürməyə başladılar. Hel baxmaq üçün yamaca çıxdı. Vanın ağlından bir fikir keçdi: “Artıq Hel keşik çəkmək növbəsinə başlayıb”. Yamaca qalxan səyahətçilər bütün qəbilənin səbirsizliklə onların gəlişini gözlədiyini gördülər.

Heç kim onların yanına qaçmadı, heç kim onları qucaqlamağa tələsmədi. Məlum oldu ki, bu Orun əmridir. Or irəli çıxaraq əllərini qaldırıb Əbədi Tanrıya həmd edəndə hamı bunu anladı. Cavanlar onları belə təntənəli qarşılamağı görüb utandılar. Səyyahlar çox maraqlı görünürdülər. Onların nəm və əzələli sinələrində boyunlarından ayının caynaqları asılmışdı. Qısa fasilədən sonra dəhşətli səs-küy yarandı, hər yerdən gülüş eşidildi, sevinc göz yaşları göründü.

— Ana, sən doğrudan da harada olduğumu bilirdin? — El anasının qucağından ayrılaraq soruşdu.

Va və An onların yanında dayandılar.

— Bəli, təxmin etdim.

— Necə? — Va dözməyib soruşdu.

Li təəccüblə ona baxdı və dedi:

— Çox başa düşüləndir. Ürəyin dili ilə.

— Bu mənim qardaşım Andır — Va Linin bu cür sirli sözlərinə necə cavab verəcəyini bilmədən An ilə onu tanış etdi.

— O mənim həyatımı xilas etdi. Ancaq bir çox başqa şeylər kimi bu barədə də uzun-uzadı və ətraflı danışmalıyıq — El anasına dedi.

20-ci fəsil

# Qəbilənin böyük şurası

Uzun bir sükut çökdü. Heç kim başqa nə deyə biləcəyini bilmirdi. Hər şey deyilmişdi, bütün sübutlar göstərilmişdi. Qəbilə məclisində əvvəllər belə toplantı olmamışdı. Bütün günorta və axşama qədər davam edən şuranın uzun müzakirəsindən sonra hamının razılaşdığı bir həll tapılmadı.

Əvvəlcə Dan bütün səyahət, Elin azad edilməsi və Vanın qardaşı An ilə görüşü, mamontların ovu və Köçərilərin qonaqpərvərliyi haqqında ətraflı danışdı. O, Xorun adamlarının salamlarını çatdırmağı da unutmadı. Şurada iştirak edən uzunömürlülər və ovçular suallar verdilər, səyyahlar onlara aydın olmayan məqamlara aydınlıq gətirdilər. Xüsusilə Dan mağaranı necə tapdıqlarından danışanda hamı böyük diqqətlə qulaq asırdı.

Dan dedi:

— Mağara çox yaxşı qurulub. Onun ikinci, gizli çıxışı var, onu tamamilə təsadüfən tapdıq. Daha doğrusu, Va onu tapdı. Mağaranın əsas çıxışı birbaşa müxtəlif heyvanların saysız-hesabsız sürülərinin otladığı vadidədir və vadinin ortasında çay axır.

Hel onun sözünü kəsdi:
— Sən lap Bağı təsvir edirsən, Dan.
Dan gülümsəyərək dedi:
— Açıq desək, bizdə də eyni təəssürat yarandı. Bütün mağara, göl olan aşağı adanı saymasaq, üç mağaradan ibarətdir: adaların ikisi daha böyük, biri daha kiçikdir. Ancaq ən kiçik olanı bütün qəbiləmizə uyğun olacaq. Mağaralardakı qübbələr çox hündürdür, kifayət qədər hava var və daha uzun illər yaşamaq üçün kifayət qədər yer var. Ora çox xoşumuza gəldi.
Orun arvadı Nua əlavə etdi:
— Elə sizin oraya köçməyiniz planlaşdırılırdı.
Dan çox mülayim bir tərzdə etiraz etdi:
— Əziz Nua, mən bu haqda danışmıram. Mən bütün qəbilənin ora köçməsini təklif edirəm.
Hər tərəfdən lehinə və əleyhinə səslər eşidildi, iclas səs-küyə çevrildi. Or əlini qaldırıb susmağı xahiş etdi:
— Dostlar, biz tələsmirik. Bu gün qərar verməli deyilik. Hər şeyi götür-qoy edəcəyik, məsləhətləşəcəyik və sonra qərar çıxaracağıq. Bu məsələ ilə bağlı mütləq qərar verəcəyik. Dan, ətraflı izahata görə təşəkkür edirəm. Əbədi Tanrıya həmd olsun ki, sizi səyahət zamanı qorudu, El öz təqsiri üzündən düşdüyü bəladan xilas oldu. Əbədi Olan mərhəmətsiz deyil. Biz həmişə səhvlərimizin nəticələrini daşımırıq və bəzən nəticələr gözlədiyimizdən tamamilə fərqli olur. Amma indi keçək ikinci məsələyə. Biz bu haqda məsləhətləşmək istərdik. Vanın qardaşını tapması bizi xüsusilə sevindirdi. An mənə dedi ki, o bizim tayfanın üzvü olmaq istəyir. Kiminsə buna qarşı fikri var?
Hel gülümsünərək dedi:
— Anın Va ilə rastlaşması Tanrının böyük mərhəmətidir. Vanın mənə dediyi kimi An qararənglilərdən uzaqlaşmaq üçün bir qrup qararəngli ilə kəşfiyyata çıxmışdı. Mən Anı qəbul etməyin tərəfdarıyam. O, hətta bizim qaydalara görə artıq ayaqqabılarını da çıxarıb.

Heç kim ona etiraz etmədi. Dan ayağa qalxıb yamaca çıxdı, orada An El ilə danışırdı və qəbilənin cavanları çayın o tayından səyyahların əşyalarını daşıyırdılar.

Dan dedi:

— Uzunömürlülər səni tayfa iclasına çağırırlar.

An həyəcanla cavab verdi:

— İndi gələrəm. Zəhmət olmasa, mənim əşyalarımı saxlayın.

Or salam vermək əvəzinə dedi:

— An, sən dedin ki, bizim tayfaya qoşulmaq istəyirsən. Bu sadə söhbət deyil, məclisdə məsələ həll edilməlidir.

An oturanların çevrəsindən bir az kənarda dayanıb dedi:

— Bəli, mən sizin tayfaya qoşulmaq istəyirəm. Mənim qardaşım burdadır və burada Tanrıya və təbiətə pərəstiş edən insanlar var.

— Qəbilənin bütün qaydalarına əməl etməyə və şuranın qərarları sənin fikrinə zidd olanda belə onlara tabe olmağa razısanmı? — Or soruşdu.

— Razıyam və şadam ki, qəbilədə məndən daha çox təcrübə və biliyə malik olan insanlar var, mən çox şey öyrənməliyəm — An dedi.

— Onda məsələ həll olundu, özünü bizimlə evdəki kimi hiss edə bilərsən. Zəhmət olmasa, bundan sonra gecələyəcəyin yeri özün seç. Bütün qəlbimlə sənin üçün sevinirəm, sənə Tanrı və təbiətlə sülhdə yaşamağı arzulayıram. Bu işdə əlimizdən gəldiyi qədər sənə kömək etməyə çalışacağıq — Or dedi.

Orun səsi təntənəli və şən səsləndi, bu sözləri ürəkdən söylədiyi aydın idi.

An başını aşağı salıb uzunömürlüyə dedi:

— Etibarınıza görə sizə təşəkkür edirəm. Mən onu doğrultmağa çalışacağam.

An bu sözlərdən sonra bir addım geri çəkildi, dönüb yenidən yamaca çıxdı. Bu vaxt şurada iştirak etməyən hər kəs ora toplaşırdı. Gənc ovçular ayı dərisini açırdılar. Qadınlar

əllərini ağızlarına aparıb dayandılar, kişilər təəccüblə başlarını tərpətdilər. Uşaqlar isə elə hay-küy saldılar ki, uzunömürlülər mağaradan çıxdılar və müzakirələrinə ara vermək qərarına gəldilər.

Uşaqlar və gənclər tərəddüd etmədən Ana və dəriyə baxır, təəssüratlarını bir-birləri ilə bölüşürdülər.

Hel dedi:

— Bizim qəbiləmizin əvvəllər heç vaxt belə ovu olmayıb. Təbrik edirik!

An yüksək səslə dedi:

— Biz beş nəfər idik. Bizim mağara ayısı ilə döyüşümüz Danın təcrübəsi sayəsində oldu və Elin məharətli əli ayının gözünü deşdi. Qardaşım Va və Arun ayının dərisini soydular.

Anın gözlərində oynaq bir işıq parladı və Va onların uzaq uşaqlıq xatirələrini xatırladı. Ətrafdakıların hamısı gülümsəməyə başladı.

— Baxın bu nizə necə möhkəmdir. Dostlarımız bu cür nizələrlə buradan çox uzaqlarda tüklü mamontları ovlayırlar. Bunu mənə onlar verdilər. Görürsünüz, hər birimizdə bu nəhəng ayının iki caynağı var — deyə An sinəsindən asılan boyunbağıya toxunaraq davam etdi.

— Bəli, amma ayının dişləri sənin nizənin üstündədir — öz cəsarətindən qorxan və anasının tüklü paltarının arxasında gizlənən bir uşağın cılız səsi eşidildi.

— Hə! Düz deyirsən, nizənin üzərindədir. Bu, Tanrının qələbəsidir, həmd və izzət yalnız Ona məxsusdur — deyə An Tanrını təriflədi.

Anın uşaqla nəzakətli davranması və son sözləri onun arxasında dayanan uzunömürlülərin və qəbilə ağsaqqallarının xoşuna gəldi.

An xahiş etdi:

— Bu dəri başqalarını narahat etməsin deyə onu mağaraya aparacağıq. Va, mənə kömək et.

Orun gecələdiyi yerdə bir neçə örtüyü mağaranın ortasından çıxardılar və dərini yarıya qatlayaraq oraya sərdilər.

Va dedi:

— Or, bu hamımızdan sənə hədiyyədir. Bu bizi parçalamaq istəyən ayının dərisini sənə hədiyyə edirik.

Orla zarafat etməyə ancaq Vanın cəsarəti çatırdı. O, Or üçün oğul kimi idi.

— Çox sağ olun! Qoca sümüklərimin yumşaq bir yerdə yatmasının vaxtı gəldi — Or dedi.

Sonrakı iki gün ərzində səyahətçilər öz təcrübələri haqqında dəfələrlə danışmalı oldular. Uşaqları dinozavrlar haqqında hekayə xüsusilə sevindirdi və təkrar-təkrar ayı ilə döyüşdən danışmağı xahiş etdilər. Həmin axşam El dəf gətirdi və tonqalın yanında oturdu. Uşaqlar dərhal onu dövrəyə aldılar. Həm də təkcə uşaqlar deyil, onun ətrafında otura bilən hər kəs qulaq asmağa hazır idi.

Əvvəlcə El dəfin kənarına yüngülcə vurmağa başladı, bu da halqaya yapışdırılmış sümüklərin və balıqqulaqlarının həmahəng sakit cingiltisinə səbəb oldu və ritmi təyin etdi. O, gözlənilmədən aşağı səslə mülayim tərzdə oxudu:

*Qaranlıq bir ağacın üstündə tək oturub gözlədim,*

*düşmənlər ətrafda idi, qoxularını duydum,*

*sakit pıçıltılarını anladım.*

*Birdən səs-küy və gurultu,*

*itlərin hürməsi və yaraqlıların harayı eşidildi...*

El mahnısında dinləyicilərin gözünə yaş gətirən əsirlikdən, azadlıqdan danışdı. Burada sevinc nidaları eşidildi. Dinləyicilər

qəhrəmanlarla birlikdə eyni hissləri keçirdilər. Qayıqda necə üzdüklərini dinləyən uşaqlar təəccüblə bir-birlərinə baxdılar. Onların mamontları necə qovduqları haqqında oxuyarkən El dəfin ritmini dəyişdi. Sonra El dinozavrlar barədə sakit və yavaş-yavaş, çayın axması və qayığın suyun səthilə üzməsi haqqında yüksək səslə və həyəcanlı şəkildə oxudu. Burada uşaqlar başlarını qaldırıb aya baxırdılar ki, onun işığında canavarların başlarını görə bilsinlər. El vadinin gözəlliyini və ecazkar mağaranı təsvir edərkən onun mahnısı şən səsləndi. Bu zaman uzunömürlülər bir-birinə mənalı baxdılar. El onlar yaralı olarkən Danın iti ilə birlikdə necə oturub aya baxması haqqında mahnı oxudu. Bu vaxt Li Dana baxaraq gülümsədi. Hamı Danın aya nə üçün baxdığını anladı.

Amma sonra Or əlini qaldırdı və El dərhal susdu. Or ucadan dedi:

— Dan və Li, bura gəlin!

Adları çəkilənlər qabağa çıxdı və hər ikisi çox utandı. Or əllərini Dan və Linin əyilmiş başlarına qoyaraq dedi:

— Dan və Li məndən gələcək həyatlarına xeyir-dua verməyi xahiş etdilər. Aranızda bunun qarşısını ala biləcək hər hansı bir səbəbi bilən varmı? Yoxdur? Onda Tanrının bərəkəti sizinlə və övladlarınızla olsun, sizi işıqlı və pak yola, sevinc və əmin-amanlıq yoluna aparsın. Qəlbinizdə nur, ocağınızda ruzi, ailənizdə övladlar olsun. Tanrının yaratdığı ilk insanlarda olduğu kimi, bundan sonra sizdən biriniz cənnətə gedənə qədər bir olacaqsınız. Əbədi Olan cənnətdə kişi və qadının bir olmasını planlaşdırmışdı.

Sevinc göz yaşları Linin yanaqlarından aşağı axdı. Övladlarının El və Arunun üzləri sevincdən parladı.

# Bağda olacağıq?

Bir neçə gün keçdi. Qəbilə yalnız bir şey — getmək, yoxsa qalmaq haqqında danışırdı. Hərdən bir adam Dana və Vaya yaxınlaşıb suallar verdi. Cavab aldıqdan sonra ya şübhə ilə ayrılırdılar, ya da cavabla kifayətlənirdilər. Üçüncü günün axşamı ağsaqqallar şuraya toplaşdılar.

Or söhbətə başladı:

— Gəlin bir daha Dana qulaq asaq. Son görüşümüzdə o bizə hər şeyi demədi. Düzdür?

Dan sakit səslə cavab verdi:

— Mən insanları boş yerə narahat etmək istəmədim. Elə indi də qəbiləmizin bütün insanlarına deyəcəklərimi çatdırmağın düzgün olub-olmayacağına əmin deyiləm. Məsələ ondadır ki, qararənglilər qayıqlar düzəltməyi öyrəniblər, onların vasitəsilə hətta dənizə və çaya keçə bilirlər. Bu barədə bizə An danışıb. Əminəm ki, bizim tayfamız böyük təhlükə altındadır. Bundan əlavə, evə qayıdarkən qararənglilərin kəşfiyyatçılarının izlərinə rast gəldik. Onlar altı nəfər idi. Bir neçə gün

qəbiləmizi izlədilər. Kimsə bunu öz gözü ilə görmək istəsə, çayın o biri sahilində izlərini tapacaq. Mağaranın əks tərəfində çoxlu izlər var. An dedi ki, qararənglilər hansısa qəbiləyə hücum etməzdən əvvəl altı nəfərdən ibarət qararəngli dəstəni kəşfiyyata göndərirlər.

— Biz hardan bilək ki, Ana etibar etmək olar? — ağsaqqallar arasından bir səs eşidildi.

Or qətiyyətlə dedi:

— Biz onu qəbiləmizə qəbul etdik. Burada şübhələrə yer yoxdur. Biz kiminləsə eyni tayfada yaşayıb ona güvənməyə bilmərik. Biz qararəngli deyilik. Davam et, Dan.

— Yox, mən hələ hamısını danışmamışam. Mən An, Va və Arundan bir qayıq tikmələrini xahiş etdim ki, ağsaqqallar bunun nə olduğunu görsünlər. Hamımız çaya enib qayığı görə bilərik. Sonra müzakirələrinizə davam edə bilərsiniz.

Qəbilənin bütün ağsaqqalları ayağa qalxıb mağaradan çıxdılar və çaya endilər. Va, An və Arun artıq onları gözləyirdilər. Suda iki qayıq yırğalanırdı: biri qamışdan, eynilə gənclərin çaya mindiyi qayıqdan, digəri isə ağcaqayın qabığından hazırlanmışdı. Ağcaqayın qabığı böyük yarpaqlarla, yüngül, lakin möhkəm fıstıq budaqlarının çərçivəsinə yapışdırılmışdı. Yarpaqlar qadınların qaynadılmış sümüklərdən və qamış suyu əlavə edərək hazırladıqları yapışqan ilə yapışdırılmışdı. Bu yapışqandan lələkləri oxlara yapışdırmaq üçün istifadə edilirdi. Düzdür ki, qayıq üçün onlara qadınların bütün yapışqan ehtiyatını sərf etmək lazım olmuşdu.

Uzunömürlülər qayıqlara və onların necə idarə oluna biləcəyinə bir az təəccübləndilər. An və Va bunu onlara göstərdi.

Hamı yenidən mağaradakı kiçik tonqalın ətrafına toplaşanda Dan dedi:

— Bu qayıqlarla biz buradan heç bir iz buraxmadan gedə bilərik.

Tonqala xüsusi ehtiyac yox idi, ancaq uzunömürlülər alova baxarkən fikir yürütməyə daha çox öyrəşmişdilər. Bir-birinin ardınca uzunömürlülər və başqa ağsaqqallar çıxış etdilər: bəziləri getməyə, bəziləri qalmağa üstünlük verdilər. Bir müddət sonra məlum oldu ki, qalmaq istəyən ailələrin yaşlıları ovdan əvvəl Əbədi Olana sitayişlə yanaşı, heyvan ruhlarına da sitayiş edənlərdir.

Or qızğın müzakirələrin sonunda dedi: "Onda biz belə edəcəyik: sabah səhər getməyə razı olanların hamısı çaya enəcək və qalmaq qərarına gələnlər yamaca toplaşacaqlar. Bundan sonra nə edəcəyimizi biləcəyik. Ancaq birlikdə etmək istədiyim daha bir qərar var. Sizcə qayıqlar Tanrı və təbiətlə sülhdə yaşamaq istəyənlər üçün məqbuldurmu?"

Bütün ağsaqallar bu yeniliyi yekdilliklə qəbul etdilər, onda insanların qəlbinə zülmət gətirəcək heç nə görmədilər.

— Onda məsələ həll olunur. Dan, onda köçən hər kəs üçün kifayət qədər qayıq tikildiyinə əmin ol. Sabah səhər görəcəksən ki, bizim sayımız nə qədərdir.

— Tədarük üçün özümüzlə nə aparacağıq, burada nə qoyub gedəcəyik? Bu problemi həll etmək də yaxşı olardı — Dan məsləhət gördü.

— Buna sabah qərar verəcəyik. Biz bütün tədarükləri qalan və gedən adamların sayına görə böləcəyik. Hamı razıdır? — deyə Or cavab verdi.

Hamı bununla razılaşdı. Şura müzakirəsi davam edərkən qadınlar səbirsizliklə qərar gözləyirdilər. Onlar da eyni məsələləri qızğın şəkildə müzakirə edir, məclisdə iştirak etməyən gənclər mağaranın cənub və qərbində ucalan dağlarda ov ovlayırdılar. Ov ovlamağa xüsusi ehtiyac olmasa da, vaxtlarını bu cür keçirmək və yola düşəcəyi təqdirdə yemək ehtiyatını artırmaq istəyirdilər. Axşam dincəlmək üçün tayfa toplaşanda tonqalların yanında camaat səs-küy salmışdı. Hamı uzunömürlülərin

qəbul etdiyi qərarları fəal şəkildə müzakirə edirdi. An, Va və Or mərkəzi tonqalın yanında dayandılar.

— Bizim qəbilələrdən olan qızlar qararənglilərə niyə lazımdır, An? — Or soruşdu.

— Qararənglilər inanırlar ki, təbiətlə sülhdə yaşayan qəbilələrdən olan qadınlar sağlam uşaq dünyaya gətirirlər. Ona görə də qararənglilərin bütün zadəganları belə qızları alırlar. Qızları bazardan mal-qara kimi, qoyun kimi almaq olar. Amma onlar çox bahadır. Buna görə də bəzi döyüşçülər qız satmaq üçün ov təşkil edir, daha varlı olan digər qararənglilər isə öz qulluqçularını onların arxasınca göndərirdilər. Başqaları ilə nə etdiklərini bilirsiniz. Bizim qəbilə bunu həyatda yaşayıb.

— Qadınlarımızın uşaqları doğrudanmı sağlam doğulur?

— Bəli. Onların uşaqları yalnız sağlam və güclü deyil, həm də çox ağıllı və ixtiraçıdırlar. Ən qəddar və güclü qararənglilər qararəngli kişi ilə bizim tayfaların qadınlarının övladlarıdır.

— An, bəs sən nə düşünürsən? Niyə qararənglilər oğlanları əsir götürür? — Va soruşdu.

— Güclü, cəsur və qararəngli olsunlar deyə.

— Bəs bu ov nə vaxt bitəcək? — Or bu mövzunun dərinləşməsinə imkan vermədi.

— Məncə heç vaxt. Bu yalnız təbiətlə və Əbədi Olanla sülh içində yaşayan tayfalar qalmadıqda bitəcək. Ya da tayfalar qararənglilər kimi silahlanıb insan ovçularını öldürməyə başlayacaqlar — deyə An cavab verdi.

— Onda bu, kim olduğumuzu dayandırmaq deməkdir. Bunu Eli tutan bütün dəstənizi öldürmək istəyəndə başa düşdüm. Hiss etdim ki, ürəyimə qaranlıq nəsə nüfuz etməyə başlayır — Va kədərlə dedi.

Or dedi:

— Mən də bunu hiss edirəm. Mənimlə gəl, sənə bir şey göstərmək istəyirəm.

Onun sözləri Anı və Vanı təəccübləndirdi.

Or ayağa qalxıb mağaranın ən ucqar tərəfinə getdi, orada giriş, daha doğrusu, təchizat üçün mağarada bir deşik var idi.

— Va, işıq salmaq üçün bir az alov götür — Or dedi və anbar mağarasında gözdən itdi.

Cavanlar onun ardınca anbara girəndə Orun böyük bir camış dərisini açdığını gördülər. Onların gördükləri kimi burada bir neçə belə bağlama var idi. Gördükləri onları heyrətə gətirdi: onun açdığı dəridə möhkəm oxlar və yaylar var idi.

— Buna görə hamının buraya girişi yoxdur. Hel uzun gecələrdə bu yayları düzəltmişdi. O bunu keçmiş həyatında öyrənib — Or sakitcə dedi.

Va və Anın ürəyi sıxıldı.

— Mən ona qadağa qoymadım. Nə edəcəyimi bilmirdim. İndi də nə edəcəyimi bilmirəm. Amma ürəyimdə hiss edirəm ki, biz onları burada qoyub getməliyik. Onları yenidən bağlamaqda mənə kömək edin. Burada qalan uzunömürlülər onlardan xəbərdardırlar. Ona görə də qararənglilərdən qorxmurlar. Əgər qararənglilər hücum etməyə cəsarət edərlərsə, onları öldürməyə hazırdırlar. Gedək buradan — Or qətiyyətlə dedi.

Silahları gizlətdikdən sonra onlar mağaranın anbarından çıxdılar və yenidən közərən alovun yanında oturdular.

— Mən qəbilənin bölünməsini istəmədiyim üçün getməyin əleyhinə idim. İstərdim ki, bizimlə əlaqə saxlayacaq bir neçə ailə ayrılsın, onlarla bəzən birlikdə ova çıxa bilərik və ya bayram edə bilərik. İstəmədiyim baş verdi, indi biz inanclarımıza görə bölünmüşük.

Cavanlar yenidən tonqalın yanında ayı dərisi üzərində oturanda An soruşdu:

— Or, səncə insanların qəlbinə qaranlıq haradan gəlir?

— Biz onunla doğulmuşuq. Valideynlər, tayfalar, uzunömürlülərin verdikləri bütün tərbiyə isə qəlbdəki bu qaranlığı

nurla məğlub etməyə yönəlib. Biz belə doğulmuşuq, çünki ilk insanlar Tanrının iradəsinə deyil, özlərinə uyğun yaşamaq istəyirdilər. Onlar belə qərar verdikdə onların qəlblərinə zülmət çökdü. El saçını, gözünün rəngini anasından miras aldığı kimi, biz də bunu onlardan miras almışıq.

— İlk adamları cənnətdə qoyub gedə bilməzdin? — uzun müddət bu sualdan əziyyət çəkən Va Ordan soruşdu.

— Əbədi Olanla əlaqə kəsilənə qədər insanlar indiki kimi Onunla danışa bilirdilər. Lakin sonra insanlar sadəcə olaraq Onun hüzurunda dayana bilmədilər. Onlar Tanrıdan gizləndilər. Cənnətdə insanlar ölüm nədir bilmirdilər. Onlar əbədi yaşayacaqdılar. Belə bir vəziyyətdə kim əbədi yaşamaq istəməzdi? Buna görə də Allah insanlarla cənnət arasında sədd çəkdi və odlu qılınclı bir mələyi cənnətin qapısının qarşısında saxladı.

— Onda ölümdən sonra cənnətə necə girə bilərik? — deyə An soruşdu.

— Biz buna inanırıq. Tanrıdan mərhəmət diləyirik, Onun iradəsi ilə yaşayırıq, bildiyimiz qədər, elə yaşamağa çalışırıq ki, qəlbimizdə nur olsun. Nə itirdiyini biləndə, nə axtardığını da bilirsən. Amma dincəlmək vaxtıdır, artıq söhbətlərimizlə hamını narahat edirik — Or cavab verdi.

Başını mağaranın tavanına qaldırıb gözlərini yumaraq Or dedi:

— Ey Əbədi Olan, hamımızı hifz et və qoy nurun qəlbimizdə olsun!

— Nə düşünürsən, Va, öləndən sonra biz cənnətdə olacağıq? — An öz yerində uzananda pıçıltı ilə soruşdu.

— Bilmirəm. Mən buna inanıram və bilirəm ki, Əbədi Olan yaxşıdır. Səni və Eli mənə qaytardı.

22-ci fəsil

# Ürəkdə düşmən

Sonrakı günlər yeni mağaraya köçə hazırlıq başladı. Qəbilə daha bir böyük ov təşkil etmək qərarına gəldi. Gedənlər qalanlara mümkün qədər çox tədarük qoyub getmək istəyirdilər, onlar da tədarüksüz getmək istəmirdilər. On nəfərə yaxın ovçu, kişi və qadın mağaranın şimalındakı meşəyə getdilər. Cəmi iki günə onlar ov edib zəngin qənimətlə qayıtdılar: bir maral, iki yetkin cüyür və onlarla dovşan. Bir çox qadın giləmeyvə və meyvələri toplayıb qurudur, sarımsaq və soğan yığırdı.

Dan anasına, Liyə və bir neçə başqa qadına yaxşı bişmiş ət tikələrini dəri tuluqlara qoymağı və üzərinə ərinmiş yağ tökməyi öyrətdi. An, Va və Arun yeniyetmələri və qızları köməyə çağırıb qayıqlar düzəltdilər.

— Sadəcə, əmin olun ki, qamışlar axınla yuxarıya doğru olan yerlərdə kökündən çıxarılsın ki, onların izi görünməsin — Dan dedi.

Qərara alındı ki, qamışdan on qayıq, ağcaqayın qabığından dörd qayıq düzəldilsin. Ağcaqayın qabığı qayıqlarında əşyala-

rı və tədarükləri daşımaq qərarına gəldilər. Hamı yorulmadan çalışırdı. Axşama yaxın onlar bu fərqli işlərindən və daxili gərginlikdən yorulub tez yatmağa getdilər.

Va qayıq tikməklə o qədər məşğul idi ki, bu günlərdə Eli nadir hallarda görürdü. Bəzən ona elə gəlirdi ki, o ondan qaçır. Bəzən Eli Anın yanında görürdü, amma buna çox əhəmiyyət vermirdi.

— Sən nə danışırsan? Hamımız hazırlıqla o qədər məşğuluq ki, başqa heç nəyə vaxtımız qalmır — El onun birbaşa suallarına təəccüblə cavab verdi.

Bir axşam Va, Anın El ilə ocağın yanında oturduğunu və onunla nəsə danışdığını gördü. An qızdan nəsə soruşdu və El sadəcə başını tərpətdi və arxayıncasına əlini onun çiyninə qoydu. An mehribanlıqla ona baxdı.

Bu səhnə Vanı yuxudan məhrum etdi. Yuxusunda dinc xoruldayan qardaşının yanında uzanıb ağlında əzab çəkərək qəlbən sıxılırdı. Yeni yerdəyişməyə, mağaraya, gözəl vadiyə daha sevinmədiyini hiss etdi. Onun üçün hər şey öz gözəlliyini və marağını itirdi. Ürəyinin qaraldığını hiss etdi.

Bir axşam ağlına bu fikir gələndə dəhşətə gəldi. Va dərhal, gecə yarısı onu övladlığa götürən atasının yanına getdi.

— Or, sənə vacib bir sualım var — Va müəlliminin çiyninə toxundu.

— Niyə yatmağımıza mane olursan? Or, oyan, gör nə deyir — Nua çox sakit olsa da, ərini dirsəyi ilə böyrünə itələyərək mızıldandı.

— Nə olub? — deyə Or Vanı yarıqaranlıqda tanıyaraq soruşdu.

Ocaqdan yalnız ətrafa azacıq qırmızı işıq saçan bir neçə kömür qalmışdı. Va dağınıq boz saçlı Orun yanında oturub sakitcə dedi:

— Mən bilmirəm nə edim. Qəlbimə qaranlıq çöküb və heç bir işıq yoxdur. Yalnız qaranlıqdır.

— Danış görüm, sən bunu necə hiss etdin və bu vaxt nə düşünürdün və ya edirdin?

Va Ora hər şeyi olduğu kimi söylədi. Or ona etibar etməyə və hər şeyi danışmağa öyrəşmişdi.

— Hər şey aydındır, Va. Bu barədə sizinlə daha sonra danışacağıq. İndi ən vacib şey bu barədə heç kimə danışmamaq, sakit və sülhdə olmaq və heç bir qərar verməməkdir. Belə bir vəziyyətdə düzgün qərar vermək mümkün deyil. İnanıram ki, hər şey düzələcək.

Gecə Va üçün sonsuza qədər uzandı. Günorta onlar yenidən qayıq tikməklə məşğul oldular. An onunla çox mehriban davranırdı və bir növ xüsusilə şən idi.

Həmin axşam Vanın ürəyi sınaqdan keçirildi. An Or, Va və Elin yanında ocağın ətrafında oturub təzə budaq parçasından nəsə düzəldirdi.

— Bu sənin üçündür— An dedi və əl işini Elə uzatdı.

— Bu nədir?

— Bu iti çağırmaq üçün fitdir.

— Buraya üfürsən, fitdən adamın eşitmədiyi, itin eşidə biləcəyi səs çıxacaq.

An fiti Eldən alıb fit çalmağı ona göstərdi.

O, fiti üfürəndə itlər qulaqlarını şəkləyib onun tərəfə baxdılar.

— Gördün! Mən sənə dedim! Kəsiyi daha da dərinləşdirsəm, səs insanlar üçün eşidiləcək, amma itlər üçün eşidilməyəcək.

Va Anın qızın əllərinə necə toxunduğunu gördü. Va zahirən rahat görünürdü, amma ürəyi narahat idi.

— Va, mənimlə bir az gəzmək istərdin? — deyə El soruşdu və Vanı fikirlərindən ayırdı.

— Əlbəttə! — Va ayağa durdu, elə cəld ayağa qalxdı ki, az qala ocağın yanında uzanıb sakitcə gülümsəyən Orun üstünə çıxacaqdı.

Mağaradan bir az uzaqlaşıb daşda yan-yana əyləşəndə El Vanın əlindən tutub oğlanın çiyninə qısıldı:

— Sən Enanı tanıyırsan, hə?

— Urukun qızı? Əlbəttə tanıyıram. Onlar burada qalırlar.

— Məsələ də elə bundadır ki, qız burada qalır, qardaşın An isə rahatlığını itirib.

— Sən çox vaxtını Anla keçirirsən, o qızın bura nə dəxli var?

El dedi:

— An qızın bizimlə yeni mağaraya getməsini istəyir, amma necə edəcəyini bilmir. An bəzi qayda-qanunları pozmaqdan, qızın onunla getmək istəməməsindən, valideynlərinin və uzunömürlülərin razı olmayacağından qorxur. Ümumiyyətlə, onun mənim köməyimə ehtiyacı var idi. Mən Ena ilə danışdım. Enanın da Andan xoşu gəlir. An ayının dərisinin üstündə dayanıb onu öldürənin tək özü olmadığını izah edəndə qızın ürəyi Ana bağlandı. Qız onun əlindən tutmaq, yaxınlaşıb onu qucaqlamaq istəyirdi. Or dedi ki, Ena Ana yaxşı uyğunlaşır və An tezliklə qərar versə yaxşı olar, əks halda bütün qızlarımız ondan ötrü dəli olacaq.

— Deməli, sən...

El dedi:

— Əbədi Olan kişi və qadını elə yaratdı ki, bir yerdə və bir olsunlar. Va və Eli bir olmaq üçün yaratdı. Amma indi belə məsələlərlə məşğul olmağın vaxtı deyil. Yeni bir mağaraya köçəndə, Ordan bizə xeyir-dua verməsini istəyə bilərik.

Va Elin üzündən öpdü və dedi:

— Ürəyimdə qaranlığa yer verdiyim üçün üzr istəyirəm.

El başını qaldırıb onun gözlərinin içinə baxaraq sakitcə dedi:

— Mən səni bağışlayıram. Bunun üçün sənin heç vaxt səbəbin olmayacaq. Getməliyik. Bu qədər vaxtı tək qala bilmərik — o, Vanın uzun dalğalı saçlarını sığalladı və ayağa qalxdı.

Gənclər əl-ələ tutaraq onlara təbəssümlə baxan Helin yanından keçərək mağaraya daxil oldular. Burada hər şey həmişəki kimi idi: qurudulmuş otların, qızardılmış ətin tanış qoxuları, itlər, çoxlu insanlar, gülən uşaqlar, pərdələr arxasında və kiçik ocaqların ətrafında pıçıltılı söhbətlər — mağaranın sakit, doğma dünyası. Va Elin əlindən tutdu və qız alovların əks olunduğu mavi-yaşıl gözləri ilə ona baxdı. Vanın ürəyi işıq və sevinclə doldu, gözlərindən yaş süzüldü.

# Xoşbəxtlik nədir?

Vida qısa sürdü: əslində bütün hazırlıq dövrünün son günlərində artıq hamı bir-biri ilə vidalaşırdı.

Bütün qəbilə çayın sahilində, Va və dostlarının hər səhər üzdüyü hovuzun yanında toplaşdı. Qamış qayıqlar bütün sahil boyu suyun üzərində dayanmışdı, bəzilərinə dərilər və tədarüklərlə yüklənmiş ağcaqayın qabığı qayıqları bağlanmışdı. Ovçular silahlarını əllərində tutmuşdular. Yay və oxlar onların çiyinlərindəki oxdanlarda asılmışdı.

Or səsini qaldıranda hamı susdu və tam sükut çökdü. Hətta itlər də insanların ayaqları arasında fırlanmağı dayandırıb sahildə oturdular.

Or dedi: "Ümid edirəm ki, yenidən görüşəcəyik, iki tayfamızın oğlan və qızları ocaqların ətrafında toy mahnıları oxuyacaqlar. Dörd günlük səyahət elə də uzun məsafə deyil. Burada qalanların hamısına arzum Tanrı ilə sülh içində yaşamaqdır. Bir şeyi də demək istəyirəm: Ena bizimlə getməyə qərar verdi. Onun valideynləri bununla razılaşır. Yeni mağa-

raya yerləşdiyimiz zaman Ena və Anın birgə həyatına xeyir-dua verəcəyik.

Bu sözlərdən sonra Ena anasına yaxınlaşdı və anası onun başını sığallayıb qulağına sakitcə nəsə pıçıldadı.

Or nitqini bitirdikdən sonra əllərini qaldırdı və orada qalanlara, səfərə gedənlərin hamısına xeyir-dua verdi. Hamı qayıqlar arasında bölüşdürüldü və qayıqlar bir-birinin ardınca yola düşdü. Əvvəlcə Dan, Li, Arun və Elin olduğu qayıq gedirdi. Onlardan başqa qayıqda daha üç it var idi. İkinci qayıqda Or, Nua, Hel və daha iki uzunömürlü ər-arvad var idi. Ən son gedən qayıqda isə An, Va, Ena və xüsusi cəsarət və çevikliyi ilə seçilən üç gənc ovçu oturmuşdu. Qəbilənin təcrübəsinə əsasən səyahət zamanı ən vacib və təhlükəli yerlər birinci və axırıncı yerdə idi.

Razılaşdılar ki, onlar çayın sağ sahili ilə hərəkət edəcəklər. Kövrək qayıqların sırası uzun məsafəyə qədər uzanırdı. Bəzi itlər avarçəkənin hər hərəkəti ilə yellənən qayıqda olmaqdan narahat idilər.

Quşların səsi daha da gücləndi. Tezliklə ilk qayıqlar sağ sahilə çatdı, burada yamac boyunca sıldırım qayalar və böyük çınqıllarla örtülmüş dar bir zolaq boyunca irəliləmək mümkün idi. Ovçular cənuba doğru yüksələn dağların yamaclarında cüyür ovlamağa gedəndə tez-tez buradan keçirdilər.

Əşyalar yenidən boşaldıldı və çiyinlərə qoyuldu. Hətta uşaqlar da yüksüz qalmamışdı. Kişilər və qadınlar qayıqları çiyinlərinə qaldırıb birinci getdilər. Bu səyahət çox vaxt apardı, çünki bəzən bir şeyi qoyub müəyyən bir məsafəyə aparmaq, sonra geri qayıtmaq və geridə qalanı aparmaq lazım idi.

Axşam yaxınlaşırdı və iti axan çaylar geridə qaldı, qayıqlar suya salındı, əşyalar yükləndi. Dan, Va və An yenə də bütün

bu yolu getdilər, haradasa iz qoyub getmədiklərini yoxladılar. Böyük bir dəstənin çılpaq ayaqlarının iz qoyduğu yerdə quma su tökməklə və ya budaqlarla qumun üzərindəki izləri silməklə izlərini gizlədirdilər.

— İndi heç kim bizim izlərimizi görməyəcək. Ancaq biz qayıqlarda gecələməli olacağıq. İlk baxışdan göründüyü qədər əlverişsiz deyil. Düşünürəm ki, hava qaralmamış qayıqlarla dağ silsiləsini aşaraq çayın sağa döndüyü yerə gedə bilərik. Sahil yaxınlığında çoxlu söyüdlər bitir. Onların altında şehdən gizlənə bilərik və gecə üçün qayıqları gövdələrə bağlaya bilərik — deyə Dan Ora qışqıraraq dedi.

Yenə də bütün qayıqlar yola düşüb çaya doğru getdilər. Bütün avarçəkənlər tamamilə təcrübəsiz olduqlarından, qayıqlar kifayət qədər narahat hərəkət etdilər. Zaman keçdikcə onlar düzləndilər və əks tərəfdən tamamilə görünməyən yüksək sağ sahilin kölgələri ilə getdilər. Dan qayıqları istiqamətləndirdi ki, onlar sahilin kölgəsində getsinlər.

Nəhayət, çayın sağa döndüyü yerə çatdılar. Maral ovçuları tayfası heç vaxt bu yerdən uzağa getməmişdi. Burada ov üçün çoxlu heyvanlar, həm də mane olmaq istəmədikləri bir çox ovçular var idi.

— Uzun dişli və mağara şirlərinin burada suya girəcəyini düşünmürəm, çünki sahil onlar üçün çox əlverişsizdir. Amma əvvəlcə mən bütün sahili yoxlayacağam ki, orada hər hansı bir izin olub-olmadığını bilim — Dan dedi.

Bir müddətdən sonra o, geri qayıdıb iri yırtıcıların izinə rast gəlmədiyini dedi.

— Biz heç bir alov yandırmayacağıq, qayıqları söyüd budaqlarının altına bağlayacağıq. Erkən, şeh vaxtından sonra yola düşəcəyik — deyə Dan əmr etdi, sahildən yuxarı qalxan və səmanın yarısını örtən nəhəng ağacların yanından keçərək hər bir qayığa yaxınlaşdı.

Əmrlər veriləndən sonra hamı sakitləşdi və yuxuya getdi. Qayıqlarda növbətçi olan cəmi üç nəfər oyaq idi: onlar sıranın əvvəlində, ortasında və sonunda idilər.

Dan və Orun qayıqları bir-birinə toxunurdu və suda yüngülcə yırğalanırdı, qamış budaqlara sürtünərək cırıldayırdı.

— Or hələ də oyaqsan? — El sakitcə soruşdu.

— Yox, bala, mən yatmıram.

— Sizə sual verə bilərəm?

— Soruş. Bacarsam, cavab verərəm. Son vaxtlar siz çox çətin suallar verirsiniz.

— Mən hardan bilə bilərəm ki, vaxtım çatanda və qəbilə mənim üçün ağlayanda, mən cənnətə düşəcəyəm? Sən Eden bağından o qədər gözəl danışıb mahnı oxuyursan ki, öləndən sonra ora gedəcəyimə əmin olmaq istərdim.

— Düşünürəm ki, bu sualın dəqiq cavabını heç kim bilmir. Biz bilirik ki, cənnətə layiq olmaq mümkün deyil. Keçmişi dəyişdirə bilməzsən. Əbədi və Böyük Yaradan bizi cənnətdən qovdu. Özümdən bilirəm ki, mən günahkaram — Or Elin artıq yuxuya getdiyini düşünərək uzun sükutdan sonra dedi.

— Bəs biz nə etməliyik? — deyə El soruşdu.

— İnanıram ki, Tanrı bizə yerin, təbiətin qayğısına qalmağı həvalə edib, bütün heyvanları, quşları bizə əmanət edib. Biz onlara cavabdehik. Əgər Onun bizdən gözlədiyini yerinə yetirsək, qəlbimizdə nur olar. Biz buna vicdan deyirik. İnanıram ki, ürəyində nur olsun deyə yaşayıb, belə ölsən, cənnətə düşəcəksən. Burada əsas əbədi Olana itaət və etibar etmək məsələsidir. Amma bu necə olacaq, onu bilmirəm. Mən sadəcə inanıram. Səninlə belə danışanda ürəyimdəki nur daha da artır. Buna görə də bunun doğru olduğuna inanıram. Əbədi Olan bizi qaranlıq üçün deyil, Özü üçün yaratdı.

— Sən bizə ilanın ilk qadını necə aldatdığını, qadının da ərini aldatdığını söylədin. Buna görə ilanları sevmirik? — El sual verdi.

— Bəlkə də ona görə və ya bəlkə də zəhərli olduqları üçün. Bəzən bir ilan insanı dişlədikdə insan ölür. Onlar günah kimi təhlükəlidir. Bu, kiçik bir məsələ kimi görünür, amma nəticəsi dəhşətlidir.

— Ölümdən qorxursan, Or? — El tamam cəsarətlənərək soruşdu.

— Get yat, ay bala. Or ölümdən qorxmur, ancaq Tanrıdan qorxur — deyə Nuanın səsi eşidildi.

— Or bir də səndən qorxur — deyə Or arvadı ilə zarafat etdi.

— Siz bir-birinizlə xoşbəxtsiniz? — El Nuadan soruşdu.

— Biz uzun müddətdir ki, bir yerdəyik, bir-birimiz olmadan həyatı təsəvvür edə bilmirik. Bəli, xoşbəxtik. Sən də Va ilə xoşbəxt olacaqsan. Siz həm düzgün suallar verirsiniz, həm də həyatınızı necə düzgün yaşayacağınızı düşünürsünüz — deyə Nua qətiyyətlə cavab verdi.

— Ailənin xoşbəxtliyi Eden bağından gətirdiyimiz yeganə şeydir. Xoşbəxtlik ər və arvadın həmişəlik bir olmasındadır. El, biz çox xoşbəxtik. Mən də Nua ilə razıyam ki, siz də xoşbəxt olacaqsınız — deyə Or əlavə etdi.

# 24-cü fəsil

# Vadiyə gəliş

Günəş çıxanda qəbilə qayıqlarda çayın sağ sahili ilə aşağıya doğru üzürdü.

— Görün nə qədər balıq var! Bax orda, sahilə yaxın nərə balıqlarıdır. Onlar çox böyükdür! — Arun şövqlə qışqırdı və düz onların yanında suda atılıb-düşən balıqları göstərdi.

— Bəli, sürətli çayların yuxarısında çox balıq yoxdur. Burada ancaq balıq tutmaqla yaşaya bilərsiniz, maral və cüyür ovlamağa ehtiyac yoxdur — Or da onunla razılaşdı.

— Vadini öz gözlərinizlə görəndə başa düşəcəksiniz ki, niyə bütün qəbilənin ora köçməsini istəyirdik — deyə Arun cavab verdi.

Vadidən kənarda çay nəhəng, demək olar ki, tam bir dairə yaradırdı, indi orada qayıqlar üzürdü. Sağ tərəfdə sıldırım qaya dayanırdı, arxasında hər şeyi gizlədirdi, solda isə geniş su zolağının arxasında, çayın o biri tərəfində meşə zolağı görünürdü.

— Nizəyə ip bağlasan, nərə balığını birbaşa qayıqdan tuta bilərsən. Yaxud oxa bağlaya bilərsən — Arun dedi.

— Amma nizənin ucları qarmaqlı olmalıdır ki, balığı tutsun. Belə qarmaqlar sümükdən, məsələn, mamont dişlərindən hazırlana bilər. Yoxsa siz boş yerə balığı incitmiş olarsınız — Or cavab verdi.

— Məncə, kiçik balıqlar üçün hər hansı bir sümükdən qarmaqlar hazırlaya bilərsiniz. Bu gün mən belə bir qarmaq düzəltməyə çalışacağam — deyə El müzakirələrə qoşuldu.

El bel çantasından ortası deşik olan uzun sümüyü götürdü. Sümüklə örtüyünü çiyninə bağlayırdı.

— Vaxtımız var, cəhd edə bilərsiniz — Or cavab verdi.

Dan gözünü çayın kənarından çəkmədən yoldaşlarının söhbətinə maraqla qulaq asırdı. Nəhayət, çay sola rahat bir şəkildə dönməyə başladı. Sağ tərəfdəki dağlar geri çəkilərək yerini geniş düzənliyə verdi, sol tərəfdə isə hələ də meşə zolağı var idi. Axşama yaxın tayfa çayın sağa dönməyə başladığı yerə çatdı, solda isə meşə zolağının arxasında hündür qayalı təpələr, bəzi yerlərdə hündür şam ağacları ilə örtülmüş təpələr göründü.

— Biz orada gecələyirdik ki, meşədə Elin itinin hürdüyünü eşitdik. Deməli, çayın ayrıldığı yerdən çox da uzaqda deyilik. Çayın bir qolunun sola getdiyi yeri əldən verməmək üçün sol sahilə yaxınlaşmaq lazımdır. Yeni adamız oradan başlayır — Dan dedi.

Dan qayığını əyri şəkildə sol sahilə yönəltdi. Bir müddətdən sonra sağ sahil onlardan uzaqlaşdı, sol sahil isə hündür ağaclarla, sıx qamışlıqlarla onların qabağına çıxdı. Qayıqlar yavaş-yavaş sahil boyu irəliləyirdi. Dan sola gedən bir qolun başlanğıcını qaçırmaqdan qorxurdu və boş yerə narahat deyildi. Onlar demək olar ki, yarım gün idi ki, sol sahillə gedirdilər və qol hələ də görünmürdü. Sol tərəfdə hündür, əlçatmaz qayalıqlara yol verən qamışlıq yüksəlirdi.

Çayın axını hamar bir dönüşlə cənuba tərəf istiqamət alanda Dan dedi:

— Düşünürəm ki, çayın böləndüyü yeri keçdik. O, yuxarıda bir yerdə olmalıdır. Biz geri qayıtmalıyıq.

Bütün qayıqlara geri qayıtmaq əmrini verərək, Dan yenidən sıranın başında yerini aldı. Yuxarıya, axına doğru avar çəkdilər, ona görə də o qədər də sürətlə hərəkət etmədilər.

Dan sahilin sıx qamışlıqlarla və sudan çıxan yuvarlaq daşlarla örtüldüyü yerə çatanda dedi:

— Siz burada gözləyin, biz kəşfiyyata çıxaq.

Dan daşların arasından keçdikdən sonra qayığını düz qamışlıq olan tərəfə yönəltdi və daha çox təzə qamışların olduğu yeri seçdi. Tezliklə kolluqda gözdən itdi. Dan qamışları araladı və yavaş axını olan geniş bir çay qolunun mənzərəsi göründü. Solda bir meşə çay qoluna yaxında yerləşirdi, sağda isə qayalı sahil demək olar ki, şaquli olaraq yüksəlirdi.

— Bu bizim adadır. Biz çayın adanı şimaldan əhatə edən qolunu tapdıq — Dan sağdakı qayaları göstərərək yanındakı adamlara həyəcanla dedi.

Danın qayığı nəhayət, kolluqlardan çıxanda demək olar ki, qaranlıq idi. Qayıqlarda gözləyən hər kəs rahat nəfəs aldı.

— İndi biz qayıqlarımızın keçdiyi çayın qoluna daxil olacağıq. Keçidin görünməz qalması üçün bir-birinizin arxasınca yaxın qalın. Biz kolluqlardan dərhal sağa, bir müddət sonra sola dönürük və orada çayın qolu başlayır. Qola çıxanda sağ sahilə doğru dönəcəyik. Bu bizim yeni adadır. Gecəni orada qalacağıq. Sabah çayın qolunu keçib onun başqa bir çayla qovuşduğu sahilə çıxacağıq. Adaya qalxmaq üçün rahat bir yol var — Dan son əmrləri verdi və qayığını yenidən kolluğa tərəf yönəltdi.

— Biz keşikçiləri təyin edəcəyik, amma ocaq yandırmayacağıq. Ümid edirəm ki, bu bizim qayıqlardakı son gecəmizdir — bütün qayıqlar çay qolunun sağ sahilinə toplaşanda Dan dedi.

Qayıqları sahildəki ağaclara bağlayandan sonra hamı dincəlmək üçün yerbəyer oldu. Artıq gec idi, hava tamamilə qaralmışdı. Artıq qərbdə günəş qeyb olmuşdu, ay isə hələ doğmamışdı.

İtlər ucadan hürməyə başlayanda yəqin ki, hamı artıq yuxuya getmişdi. Çayın qolunun yanından aşağıya doğru bir az səs-küy eşidildi. Orada bir növ mübarizə gedirdi. Köpüklü sudan gələn səs-küy, tanımadıqları bir heyvanın nəriltisi və yüksək gurultusu bütün tayfanı narahat edirdi. Sonra hər şey sakitləşdi. Lakin itlər uzun müddət sakitləşə bilməyib başlarını çayın qoluna tərəf çevirərək mırıldadılar. O gecə kimsə yatmışdısa da, çox narahat yatmışdı: qəribə çay, səslər, yeni qoxular adamın rahatlaşmasına imkan vermirdi.

Ertəsi gün günəş çıxanda və qorxular sovuşanda hamı ehtiyat tədarükdən səhər yeməyi yedi və yola düşməyə hazırlaşdı. Yoxlanış zamanı məlum oldu ki, ağcaqayın qabığı olan bir qayıq batmış vəziyyətdə qalıb. Nə yaxşı ki, o, sahilə yaxın idi və oradakı bütün əşyalar xilas edildi və digər qayıqlar arasında paylandı. Bu tapşırığı bitirdikdən sonra hamı yola düşdü. Bir az aşağıda, daşların arasındakı sahildə nərə balığının hissələri görünürdü. Nərə balığını ortasından dişləyənin necə bir canavar olması təsəvvürü hamını qorxutdu.

Tezliklə hamı bunun nə olduğunu gördü: çay qolunun ortasında böyük sürətlə hansısa iri heyvanın və ya nəhəng balıqlar dəstəsinin dişləri suyun üstündə göründü. Sonra onlar gözdən itdi və su sakitləşdi, dəstənin getdiyi yerdə yalnız köpük qaldı. Qayıqlar bir-birinə mümkün qədər yaxınlaşaraq aşağı axınla davam etdilər. Axın güclü deyildi. Qayıqlar sahilə yaxınlaşanda səs-küylü qurbağalar, ağ və qırmızı su zanbaqları görünürdü. Ətrafda quşların nəğməsi, suyun üzərində həşəratları qovan iri cırcıramaların qanadlarının vızıltısı və çayda çoxlu sayda balıqların sıçrayan səsi eşidilirdi. Çayın suyu təmiz və dərin idi.

Qayıqlar yolun yarısını qət etdikdə gün artıq yarıya yaxınlaşırdı. Sakit səslər insana rahatlıq gətirdi. Gecənin narahatlığından göz qırpmayanlar indi çayın sağ sahili ilə üzən qayıqlarda dinc halda mürgüləyirdilər.

Birdən An, Va, Ena və daha üç ovçunun olduğu sonuncu qayığın sol tərəfi kəskin şəkildə qalxdı və qayıq çevrildi. Bu o qədər tez və gözlənilmədən baş verdi ki, heç kimin səsini çıxarmağa vaxtı olmadı. Amma digər qayıqlar hadisəni görüb həyəcan təbili çaldılar. Qayıq aşağı getməyə davam etdi və suya düşən ovçular sahilə üzdülər. Yalnız bir gənc ovçu və Vanın qəza zamanı əllərində saxladıqları nizələr əllərində idi. Qalanlarının belində ancaq ox və yay olan oxdanları qalmışdı.

Birdən qayığın yanındakı su köpüklənməyə başladı və üzərinə nəhəng bir quyruq düşdü. Qayıq parça-parça oldu. Sudan nəhəng dişli ağzı və kiçik gözləri olan dəhşətli bir baş çıxdı. Nəhəngin arxasında, yanlarında və belində üzgəcləri olan gövdəsi var idi. Suyu qarışdırdıqdan sonra nəhəng çayın dərinliklərində gözdən itdi.

Cavanlar qaldırdıqları nizələrini aşağı saldılar, çünki belə nizələr nəhəng düşmənin qarşısında heç nə idi. Bütün qayıqlar yan almaq üçün daha əlverişli olan aşağıya doğru sahilə istiqamətləndilər. Va və onun komandası sahil boyu qayıqların yan aldığı yerə qədər getdi. Orada axın qayığın qalıqlarını sahilə çıxardı.

Dan dedi: “Budur çantalarınız, onlar suda batmayıblar. Burada qayığın burnuna bağlanan başqa bir çanta və örtük də var. Bizim yarım gündən artıq yolumuz qalıb, ona görə də yeni qayıq düzəltməyin mənası yoxdur. Siz qalan qayıqlara minməlisiniz. Va, sən axırda gələn qayığa minə bilərsən”.

Bu etimad Vanın ürəyini isitdi. O, minnətdarlıqla Dana baxıb yerinə oturdu və yaş çantanı özü ilə götürdü. Hamı əyləşəndən sonra qayıqlar yola düşdü və nəhəng onları təəccübləndirə bilmədiyi üçün Danın göstərişinə əsasən sahilə doğru avar çəkdilər.

Dan sahilə yan almaq əmrini verəndə günəş hələ onların arxasındakı üfüqə çatmamışdı.

— Adadan çıxanda çayın qoluna daxil olduğumuz yer buradır. Biz bütün qayıqları özümüzlə aparıb vadidə çayın axdığı gölün yanında qoyacağıq. Göl buradan uzaq deyil — Dan dedi.

Qəbilənin ən güclü kişi və qadınları qayıqları sıldırım sahilə qaldırıb yenidən çayın qoluna enib əşyalarını götürdülər. Qayıqlarla ağacların arasında gəzmək çox rahat deyildi, ona görə də onlar yavaş-yavaş irəliləyirdilər. Ancaq buna baxmayaraq, tezliklə meşənin və qayaların ortasında uzanan gölə çatdılar. Onların qarşısındakı göl o qədər gözəl idi ki, hamı onun sahilinə toplaşaraq susdu. Sakit, təmiz su şam ağaclarını və qayaları əks etdirirdi, bəzən onların arasında sərhədin harada olduğunu müəyyən etmək çətin olurdu. Gölün səthi yüksək buludlarla səmanı əks etdirirdi. Quşların oxuması gözəl qarşılanma konsertinə bənzəyirdi. İnsanın özünü bu gözəllikdən qoparması çətin idi, lakin qayıqları iri şam ağaclarının kölgəsində qoyub, bütün qəbilə gölə axan kiçik çayın sahili ilə yuxarıya doğru getdi. Sonra bir az sola döndülər, çünki çay burada dönürdü və onun sahili ilə gəzmək yolu uzatmaq demək idi.

Tezliklə meşə seyrəkləşdi, ağaclar hündürləşdi və birdən onların qarşısında bir vadi açıldı. Orda-burda səpələnmiş ağac dəstələri var idi, onların kölgəsində heyvan sürüləri oturmuşdu, otlar yamyaşıl, təravətli və hündür idi. Cənub tərəfdən, günəşin batdığı yerdən şərq və qərbdən dərə ilə yarımdairə şəklində həmsərhəd olan dağlar görünürdü.

— Bu dağlarda, çayın başladığı yerdə bir mağara var — Dan sükutu pozaraq dedi.

Or dönüb Dana baxanda onun gözlərindən yaş axdığını gördü.

— Sən haqlısan. Bu vadi xəyallarımızda olan Eden bağına bənzəyir və biz onu ancaq Tanrının hədiyyəsi kimi qəbul edə bilərik.

## 25-ci fəsil

# Yeni vətən

Onlar şehdən qorunmaq üçün ocaqların yanında, şimal meşəsinin kənarında, iri budaqlı ağacların altında gecələdilər. Onların sağ tərəfində hardasa çay axırdı, meşədəki ağacların budaqları xışıldayırdı, qarşıda geniş bir vadi uzanırdı.

Or ondan bir qədər aralıda dayanan An və Vaya üzünü tutub dedi:

— Sabah biz məkana çatacağıq. Orada, hamımız üçün, xüsusilə An və Va, sizin üçün yeni bir həyat başlayacaq. Yeni mağarada arvadlarınızla bir yer alacaqsınız.

— Mən artıq buna çox şadam. O an gələndə özümü tamamilə evdə hiss edəcəyəm — deyə An cavab verdi.

— Bilmirəm, An. Mən uzun illərdir yaşayıram. İlləri saymaq olmur. Nua ilə biz çox xoşbəxtik. Amma bütün bu illər ərzində özümü tamamilə evdə hiss etməmişəm. Ürəyimin dərinliklərində bir növ boşluq, itirilmiş vətənimə həsrət hiss etmişəm — Or fikirli şəkildə dedi.

— Məncə, ürəyi işıqlı olan hər kəsdə cənnət həsrəti var. Yoxsa onun haqqında danışmazdılar və ora getməyi xəyal etməz-

dilər, onun haqqında nəğmələr oxumazdılar və öləndən sonra ora düşməyə can atmazdılar — Nua dedi.

Gecənin səsləri quşların civiltisi və nəğməsi ilə əvəz olundu, uzaqdan aslan nəriltisi eşidildi.

— Bir zamanlar heyvanlar insanlarla sülh içində yaşayırdılar — Or dedi, sonra susdu və birdən oxumağa başladı. O, asta səslə, sakitcə oxuyurdu.

Ocaqların ətrafında hamı mahnıya qulaq asaraq susdu. El gəlib ona dəf uzatdı. Or sözlərinin ritmi ilə onu yüngülcə silkələməyə başladı, sonra barmaqlarının ucu ilə dəfin gərilmiş dərisinə vurdu.

Bağın təsvirlərini heyranlıqla dinləyən insanlar gözləri önündə onu canlandırırdılar. Bağın ağacları onların gözləri önündə canlandı, çiçək açan qızılgüllərin qoxusu ətrafa yayılırdı. Sanki gerçəkdə gənc oğlan və qız Eden bağında gəzir, onlara yaxınlaşan heyvanları sığallayırdılar. Onlar heyvanlara nəsə deyirdilər və heyvanlar şən, oynaq halda cavab verirdilər: bəziləri nərildəyir, digərləri hürür, başqaları isə mırıldayırdı. İnsanlar da onları başa düşürdülər və cavab olaraq sevinclə gülürdülər. Birdən cənnətin ortasında Tanrı göründü. O, gənclərə qoşuldu və onlar Bağın cığırları ilə, gözəl ağacların kölgəsində bir-birləri ilə canlı söhbət edərək addımladılar. Sonra mənzərə dəyişdi. Orun səsi titrədi, o, böyük günahdan danışdı və birdən susdu. Düşərgəyə dərin bir sükut çökdü. Dəf yenidən titrəməyə başladı. Or yeni vətən barədə oxudu. Amma o bildirdi ki, hamının getdiyi doğru yol — bu itirilmiş bağa gedən yoldur. Or Tanrıya həmd oxuyurdu, çünki insanlar cənnətə yalnız təmiz vicdanla daxil ola bilərdilər.

El, An və bir çox başqaları suallarının cavabını və onunla söhbətlərinin əks-sədasını Orun sözlərində tapırdılar.

Səhər hamı çox tez durdu. Artıq hamı ayağa qalxanda şeh hələ də düşməkdə davam edirdi. Hamı yola düşməyə can atırdı və yeni mağaranı görmək istəyirdi.

Ümumi əhval-ruhiyyəyə qapılan Dan yola düşmək əmrini verdi. Qəbilə uzun bir növbə ilə sıraya düzüldü. Dan, Li, Or və Nua qabaqda getdilər, sonuncular Va və An idilər. Onlar bu dəfə ən həssas hissəni qorumaq kimi şərəfli vəzifələrini həvəslə başqasına tapşırmaq istəyirdilər. Onların fikirlərini eşidirmiş kimi Dandan qardaşların irəlidə getmələri barədə əmr gəldi. Va və Anın qayıqda olduğu üç gənc ovçu arxada qaldı.

— Düşündüm ki, siz tapdığınız mağaranı qəbiləyə göstərmək istəyərsiniz. İstəklərinizi təxmin etmək üçün uzunömürlü olmağa ehtiyac yoxdur — Dan dedi.

Dan yenə yüksək səslə güldü. Aydın idi ki, o da qəbilənin yeni mağaranı necə qəbul edəcəyini və açıq dağ yamacındakı mövqeyinə uzunömürlülərin necə reaksiya verəcəyini həyəcanla gözləyirdi. Bu zaman onlar hündür kolluqların yanından keçdilər. Or kənara çəkilib bir neçə bitki qırıb başqalarının yanına gətirdi.

— Bu qarğıdalıdır. İndi o hələ yetişməyib, onu elə belə yemək olar, çox dadlıdır, tam yetişəndə isə unundan dadlı kökələr bişirmək və ya sadəcə üyüdərək suda islatmaqla yemək olar. Mən onun ləzzətini uşaqlıqdan tanıyıram. Son illərdə yaşadığımız yerdə bu bitki bitmədiyi üçün həmişə onu yemək həvəsində olmuşam — Or əlindəlki bitkini yeyərək dedi.

Bu vaxt səyyahlar dağlara çox yaxınlaşdılar, qəbilə göldən çox da uzaq olmayan çayın sahilinə gəldi. Şəlalənin səsi xoş təəssürat yaradırdı.

— Bu şəlalənin arxasında mağaranın ikinci girişi yerləşir. Əgər siz mənim təklifimi ağlabatan hesab edirsinizsə, o zaman bu barədə qəbilədən heç kimə deməzdim. Qoy bu sirr olaraq qalsın. Ola bilsin ki, nə vaxtsa bu bizə yaxşı xidmət edəcək — Va Ora dedi.

— Razılaşdıq. Onda bizi girişə aparın.

— Giriş o böyük qayaların arxasındadır. Or, mağaraya birinci sizin girməyinizi xahiş edirəm — Va hamı onu eşitsin deyə ucadan bildirdi.

— Əşyalarınızı hələlik burada qoya bilərsiniz — Dan dedi.

Hamı Orun ardınca dağın yamacına qədər getdi, qayaların arasında hamının çətinliklə oturduğu kiçik bir təpə var idi. Or mağaraya girdi, onun arxasınca uzunömürlülər, sonra hamı içəri girdi.

— Mən heç vaxt belə rahat mağara görməmişəm. Bütün ömrüm boyu heç vaxt bu qədər gözəl yerdə yaşamamışam! — Hel dedi.

Hamı mağaranı araşdırdıqdan sonra uzunömürlülər və Dan mağaranın qarşısına toplaşdılar. Onların qabağında uzanan, günəşin yumşaq işığına qərq olmuş bir vadi, uzaqdan meşə görünür, çay ağacların və kolların arasında nazik zolaq kimi parıldayırdı. Yaşıl otların arasında böyük heyvan sürüləri otlardan yeyib gövşəyirdilər.

— Mən təklif edirəm ki, uzunömürlülər sağdakı mağarada, gənc ailələr isə sol tərəfdəki mağarada yaşasın. Hələ ailəsi olmayan gənc ovçular böyük mağarada məskunlaşsınlar, əsas ocağımız da orda olsun — Or təklif etdi.

— Burada külək əsir, məncə, həmişə olduğu kimi, qərbdən əsir, ona görə də biz bu yarıqda tullantılar üçün yer düzəldəcəyik. O yer dar və dərindir. Tullantılar orada heç kimi narahat etməyəcək. Mağaradan çox uzaqda deyil və eyni zamanda o qədər də açıq yerdə deyil — Dan təklif etdi.

Axşam yetişdi. Hər kəs mağarada öz yerini tutub bir-biri ilə həyəcanla söhbət edirdi. Sonra hamı mağarada tonqalın ətrafına toplandı. O vaxt artıq gecə çökmüşdü.

— Bu gün əlamətdar bir gündür. Biz yeni gözəl vətən tapdıq. İstəyirəm ki, burada həyatımızı bu gözəl mağara və gözəl vadini bizə bəxş edən Əbədi Tanrıya ibadətlə başlayaq — Or təntənəli şəkildə dedi.

Or əllərini yuxarı qaldırıb minnətdarlıq, həmd və izzət sözlərini söylədi. Hamı başını aşağı salıb onunla razılaşdı.

Or dedi:

"Mənim daha bir işim var. Va və El, An və Ena, bura tonqalın yanına gəlin. Burada dayanın!

Kişi ilə qadını yaradan və onlara cənnətdə bir olmağı əmr edən Əbədi Olan Sən nə qədər xeyirxahsan. Sən təyin etdin ki, Va və El, eləcə də An və Ena Sənin iradəni yerinə yetirsin və ər-arvad olsun. Odur ki, onlara xeyir-dua ver, onların yaşadıqları yerdə nəğmə və uşaqların gülüşü, ocaqlarında bol yeməkləri olsun. Eləcə də, Sənin iradənin yerinə yetirilməsi onlar üçün sevinc olsun. Ürəklərini nurlu, düşüncələrini təmiz et".

Sonra Or gənclərə üz tutaraq dedi:

— Bundan sonra siz gənc ailələrsiniz. Mağaradakı öz yerinizi seçə bilərsiniz. Yoxsa artıq seçmisiniz?

Bu sözləri eşidən dördü də bir az utanaraq başını tərpətdi. Hər kəs öz yerinə getdikdən və yalnız Or əsas ocağın yanında qalanda Va ona yaxınlaşıb dedi:

— Or, El ilə mən bir vaxtlar mağara ayısını öldürdüyümüz həmin mağarada bir az yaşamaq istəyirik. Şehdən əvvəl ora getməyimizə etiraz etmirsən?

— Qaranlıqda ora yolunuzu tapa bilərsinizmi?

— Taparıq. Bax, ay artıq çıxır. O qədər təəssüratlarla doluyuq ki, biz tək qalmaq istərdik.

— Dan etiraz etmirsə, mən də etiraz etməyəcəyəm. Nə qədər vaxta getmək istəyirsiniz?

— Hələ bilmirik. Biz darıxmağa başlayan kimi qayıdacağıq.

— Onda bir neçə ay çəkəcək — deyə uzunömürlü Vanın sözünü kəsdi və güldü.

# Epiloq

Va və El qayaların arasında kiçik bir mağarada məskunlaşdıqdan sonra bir neçə gün keçdi. Gündüzlər meşədə gəzir, ovlayır və ya meyvə yığırdılar, axşamlar isə ocağın ətrafında oturub mahnı oxuyurdılar. Bu müddət ərzində El Vaya Orun oxuduğu mahnıları oxumağı öyrətdi.

— Or cənnətə gedəndə kimsə uşaqlarımıza baş verənləri əvvəldən söyləməli olacaq. Bunu bir insan, hamının hörmət etdiyi bir insan etməlidir — El Vadan yapışaraq, gözlərində bir parıltı ilə söylədi.

Bir axşam onlar ocağın yanında təzəcə oturanda qayaların arxasındakı kolluqlardan nəsə xışıltı gəldi. Lakin Va və El təşvişə düşmədilər, çünki it ocağın yanında sakitcə uzanmağa davam edirdi. Və cütlük tezliklə An və Enanı qarşılarında gördülər.

— Tək qalmaqdan yorulmadınız? Artıq bir aydır getmisiniz — An salam vermək əvəzinə dedi.

— Doğrudanmı bu qədər vaxt keçib? — Va və El bir səslə cavab verib səmaya baxdılar.

— Heç kim təhlükəsizliyiniz üçün narahat deyil, amma siz burada həmişəlik qalmayacaqsınız, elə deyilmi? — Ena soruşdu.

— Xeyr, əlbəttə. Tezliklə biz qayıdacağıq. Bir neçə gün bizimlə qalın. Sabah çayın sahilinə gedə bilərik. Çoxdandır ki, ora getmirik — El ona cavab verdi.

— Biz sabah evə qayıdacağıq, siz isə iki günə qayıdacaqsınız — deyə An qərar verdi.

Va gülümsəyərək, Ana dostcasına bir yumruq vuraraq dedi:

— Sən mənim böyük qardaşımsan. Dediyin kimi, edəcəyik.

An səsində bir nəvazişlə dedi:

— Eynilə uşaqlıqdakı kimi.

Ena dedi:

— Bəli, demək olar ki, unutdum. Daha bir xəbər var. Qəbilə məclisində Or deyirdi ki, silahları əvvəl yaşadıqları mağarada qoyub. Hamı onunla razılaşdı ki, bu düzgün qərar idi. O, silahları saxlamağı onun ürəyini sıxdığını dedi. Daha bir qərar şura tərəfindən qəbul edilib. Biz artıq “Maral ovçuları” qəbiləsi deyil, “Or övladları” qəbiləsiyik.

— Niyə? — El soruşdu.

— Çünki tayfanın demək olar ki, yarısı Or və Nua nəslindəndir. Ancaq bu, əsas məsələ deyil. Əsas odur ki, hər kəs həmişə işıq yolu ilə getmək, təbiətlə və Tanrı ilə sülhdə yaşamaq qərarına gəldi.

An dedi:

— Mən qəbilə üçün bu adı bəyənirəm.

Va qardaşı ilə razılaşaraq eyni tonda cavab verdi:

— Mən də.

Səhər çayda çimdikdən və dünənki ovun səhər yeməyindən sonra An və Ena geri qayıtdılar, Va və El isə meşəyə getdilər.

— Sümüklərə bax! — El onun yaralandığı və mağara ayısının öldürüldüyü yerdən keçərkən dedi.

— İnsanın ayını məğlub edə biləcəyini təsəvvür etmək çətindir — Va dedi. Birdən başını qaldırıb qulaq asdı:

— Sakit! Eşidirsən?

El dedi:

— Bəli, indi mən də eşidirəm. Bu nə səsdir?

—Tez gedək — Va cavab verdi və çaya tərəf qaçdı.

Səs getdikcə artırdı. Böyük dəfdə ritmik zərbələrin səsi eşidilirdi. Onlar ağacların kölgəsində gizlənib sahilə çıxanda çayın ortasında iki böyük qayığın üzdüyünü gördülər. Onlardan dəf səsi gəldi. Hər bir qayığın hər tərəfində onlarla avarçəkən var idi, qayığın ortasında, dirəkdə küləklə şişirdilmiş nəhəng yelkən vardı. Yelkən qara idi, ortasında böyük ağ işarəsi vardı. Qayıqlar çox sürətlə hərəkət edirdi. Qayıqların yan tərəflərinin üstündə ucları günəşdə parlayan sıra ilə düzülmüş nizələr görünürdü.

— Bunlar qararənglilərin döyüş qayıqlarıdır. Onlar avarçəkənlərin ritmini təyin etmək üçün dəfdən istifadə edirlər — Va dedi.

— Nə yaxşı ki vaxtında sahildəki mağaramızdan köçdük — El dedi və susdu. Hər ikisi orada qalan dostlarını düşündü.

— Gecə-gündüz qaçsan belə, qararənglilərdən irəli getməyəcəksən. Gəl qararənglilər barədə yalnız Ora danışaq — deyə El Vanın fikirlərini oxudu.

— Yaxşı — Va onunla razılaşdı.

Səs çayın qərbə zərif dönüş etdiyi yerdə tamamilə kəsilənə qədər eşidildi.

— Onda gəl biz evə gedək. Əbədi Olan bizim həyatımızı qorudu. Mən heç vaxt qararəngli olmayacağam! Va arvadını qucaqlayıb dedi və dönüb dağlara tərəf qaçdı.

Arvadı onu ötüb qabağa qaçdı. At quyruğu kimi qırmızı saçları sürətlə addımlayarkən yellənirdi. O, geriyə çevrilib Vaya baxdı və mavi-yaşıl gözləri parıldadı:

— Məni tutmağa çalış!

Va xoşbəxt idi.

# Mündəricat

Ön söz. İqor Saviç . . . . . . . . . . . . . . . . . . . . 3
1-ci fəsil. Vacib qərar . . . . . . . . . . . . . . . . . . 7
2-ci fəsil. Vanın həyat tarixçəsi . . . . . . . . . . . . 13
3-cü fəsil. Yolda . . . . . . . . . . . . . . . . . . . . 19
4-cü fəsil. Planların gözlənilməz dəyişməsi . . . . . . . 24
5-ci fəsil: Müttəfiq . . . . . . . . . . . . . . . . . . . 31
6-cı fəsil. Qurtuluş . . . . . . . . . . . . . . . . . . . 35
7-ci fəsil. Qaçış . . . . . . . . . . . . . . . . . . . . 41
8-ci fəsil. Mamont ovçuları . . . . . . . . . . . . . . . 45
9-cu fəsil. Köçərilərə qonaq getmək. . . . . . . . . . . 49
10-cu fəsil. Mamont ovu . . . . . . . . . . . . . . . . . 54
11-ci fəsil. Qayıq . . . . . . . . . . . . . . . . . . . . 59
12-ci fəsil. İzləmə . . . . . . . . . . . . . . . . . . . 65

13-cü fəsil. Qamış dənizi . . . . . . . . . . . . . . . . 71
14-cü fəsil. Səfərin təyinat yerində . . . . . . . . . . . 76
15-ci fəsil. Mağaranın hazırlanması . . . . . . . . . . . 81
16-cı fəsil. Ölümcül döyüş . . . . . . . . . . . . . . . 88
17-ci fəsil. Ada . . . . . . . . . . . . . . . . . . . . 96
18-ci fəsil. Qayıdış . . . . . . . . . . . . . . . . . 102
19-cu fəsil. Yenə düşmənlər . . . . . . . . . . . . . 108
20-ci fəsil. Qəbilənin böyük şurası. . . . . . . . . . . 114
21-ci fəsil. Bağda olacağıq? . . . . . . . . . . . . . 120
22-ci fəsil. Ürəkdə düşmən . . . . . . . . . . . . . . 126
23-cü fəsil. Xoşbəxtlik nədir?. . . . . . . . . . . . . 131
24-cü fəsil. Vadiyə gəliş . . . . . . . . . . . . . . . 136
25-ci fəsil. Yeni vətən . . . . . . . . . . . . . . . . 142
Epiloq . . . . . . . . . . . . . . . . . . . . . . . . 147

# Nur övladlarının qəbiləsi

Valdemar Zornun "Nur övladlarının qəbiləsi" kitabı uşaqlar və yeniyetmələr üçün bədii ədəbiyyatda diqqətəlayiq bir əsərdir. Müəllif Tanrının yaratdığı kamil insan ideyasını bədii obrazlarda canlı və ifadəli şəkildə təcəssüm etdirir. Süjetin kəskinliyi və qəhrəmanların, nur övladlarının mənəvi saflığı gənc oxucuları cəlb edir, onları dünyanın yaradılması haqqında Müqəddəs Kitab həqiqətini dərk etməyə yönəldir.

Təsvir edilən hadisələr qədim dövrlərdə baş verir. Maral ovçuları qəbiləsinin ağsaqqallar şurası Dan və dostlarını xüsusi bir tapşırıq ilə təhlükəli, lakin zəruri səyahətə göndərir. Gənclər bu məsuliyyətli işin öhdəsindən gələcəkmi?